RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 271 (10016) 25 dekabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Böyük qayıdış" proqramının əyani təzahürlərini indi hər kəs görə bilir



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi və Ağdamda olublar. Səfər çərçivəsində dövlət başçısı və birinci xanım Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər, onlara parkda yaradılmış şərait barədə məlumat verilib.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parkda 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

* * *

İlham Əliyev və Mehriban Əliyeva həmin gün Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər, dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verilib.

Bildirilib ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

2-5

## Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi təbrik edib



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Türkiyəyə, Türkiyə Prezidentinin isə ölkəmizə səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərimizin inkişafında roluna toxunulub.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Azərbaycana səfərini qeyd edərək, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş 12-ci iclasının uğurlu nəticələrini vurğulayıb.

Telefon danışığı əsnasında dövlət başçıları əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## Vladimir Putin İlham Əliyevi təbrik edib



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rusiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Rusiya prezidentlərinin keçirdikləri son görüşdə müzakirə olunmuş məsələlərə toxunulub, ikitərəfli əməkdaşlığın perspektivləri, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

## Kasım-Jomart Tokayev İlham Əliyevi təbrik edib



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Qazaxıstan dövlətinin başçısı Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin genişlənməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulub. Bu xüsusda, Azərbaycan Prezidentinin oktyabrda Qazaxıstana dövlət səfəri, həmçinin Kasım-Jomart Tokayevin ölkəmizə səfəri məmnunluqla xatırlanıb.

Dövlət başçıları əməkdaşlığımızın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## Şavkat Mirziyoyev İlham Əliyevi təbrik edib



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdıraraq, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə həyata keçirdikləri səfərlər və aparılmış səmərəli müzakirələr məmnunluqla xatırlanıb.

Dövlət başçıları Azərbaycan-Özbəkistan münasibətlərinin qardaşlıq, dostluq və müttəfiqlik prinsiplərinə əsaslandığını qeyd edərək, gələcəkdə də əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## Aleksandar Vuçiç İlham Əliyevi təbrik edib



**Dekabrın 24-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Aleksandar Vuçiç dövlətimizin başçısını ad günü münasibətilə təbrik edərək, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı Prezident İlham Əliyevlə Prezident Aleksandar Vuçiçin görüşləri məmnunluqla xatırlanıb, iki ölkə arasında tərəfdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Dövlət başçıları ikitərəfli əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## İsxak Hersoq İlham Əliyevi təbrik edib



**Dekabrın 24-də İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İsrail Prezidenti dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

## Hər zaman xalqının yanında

### Prezident İlham Əliyev doğum gününü Qarabağda qeyd etdi



Bu gün Qarabağ və Şərqi Zəngəzurda şəhərlər və kəndlər yenidən qurulur, müasir infrastruktur yaradılır, yollar, enerji xətləri, su təchizatı sistemləri sıfırdan inşa olunur. Ölkəmizin heç bir xarici dəstəyə ehtiyac duymadan bu qədər genişmiqyaslı layihələri gerçəkləşdirməsi həm iqtisadi müstəqilliyin, həm də siyasi iradənin göstəricisidir. Ermənistanın dağıtdığı mədəni, dini və tarixi irsimiz bərpa olunur, yeni təhsil, səhiyyə, mədəniyyət və sosial obyektlər tikilir. Bütün bunlar onu deməyə əsas verir ki, qısa zamanda həyata keçirilən bu layihələr Azərbaycanın milli gücünü, dövlət başçısının siyasi qətiyyətini və xalqın iradəsini əks etdirir.

İşğaldan azad olunmuş ərazilərdə enerji və sənaye infrastrukturunun bərpası Azərbaycanın bu bölgələrdə iqtisadi canlanmanı hədəfləyən sistemli siyasətinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu proses çərçivəsində bölgələrin "yaşıl enerji" zonasına çevrilməsi prioritet istiqamət kimi müəyyən edilib.

8

## İrakli Kobaxidze İlham Əliyevi təbrik edib



**Dekabrın 24-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Gürcüstanın Baş naziri Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

◆ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Xankəndi və Ağdama səfəri

# "Böyük qayıdış" proqramının əyani təzahürlərini indi hər kəs görə bilir

## Xankəndi şəhərində Zəfər parkının açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Xankəndi şəhərində Zəfər parkının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma parkda yaradılmış şərait barədə məlumat verdi.

Ümumi sahəsi 9 hektar olan Zəfər parkının təməli bu ilin fevralında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı iyulda burada görülən işlərlə tanış olub.

Bildirilib ki, parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Bina 10 mərtəbədən və terrasdan ibarətdir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub. Doqquzuncu mərtəbədə "Zəfər qalereyası" sərgi-nümayiş zalı yaradılıb.

Parkın ərazisində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib, fəvvarələr yaradılıb, işıqlandırma və musiqilərin səsləndirilməsi üçün sistemlər quraşdırılıb. İnşaat işləri zamanı mövcud ağacların qorunmasına xüsusi diqqət yetirilib. Ümumilikdə parkda 500-dən çox ağac və 11 mindən artıq kol və gül əkilib.

Qeyd edək ki, Xankəndi şəhərində Zəfər parkının yaradılması bir neçə mühüm əhəmiyyət daşıyır. İlk növbədə bu layihə Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir. Eyni zamanda park Xankəndi sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edəcək. Bundan başqa, belə istirahət məkanlarının yaradılması işğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı bərpa-quruculuq işlərinin uğurla davam etdiyini göstərir.










## Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.

Qeyd edək ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun məntəqələrin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. Bununla yanaşı, sosial infrastrukturun yaradılması xüsusilə diqqət mərkəzində saxlanılır. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər Qarabağın və Şərqi Zəngəzurun qısa müddətdə dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və bölgənin sürətli inkişafına xidmət edir.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərinə köçən sakinlərlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

◆ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Xankəndi və Ağdama səfəri

# “Böyük qayıdış” proqramının əyani təzahürlərini indi hər kəs görə bilir

## Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb















### Prezident İlham Əliyevin çıxışı

- Mən sizi ürəkdən salamlayıram. Bu gün Ağdam şəhərinin tarixində çox əlamətdar bir gündür, tarixi bir gündür. Uzun fasilədən sonra ağdamlılar öz doğma şəhərinə qayıdırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, burada siz rahat yaşayacaqsınız, əmin-amanlıq şəraitində yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər köçkün həyatını yaşamış insanlar üçün bu gün Ağdam şəhərində və işğaldan azad edilmiş bütün başqa ərazilərdə yeni, müasir şəhərlər, kəndlər, qəsəbələr salınır və artıq "Böyük qayıdış" proqramının əyani təzahürlərini hər kəs görə bilir.

İşğal dövründə Ağdam, demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır.

Əminəm, bütün xalqımız, o cümlədən keçmiş köçkünlər bilirdilər və inanırdılar ki, tarixi ədalət bərpa ediləcək. Halbuki Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olan, hər halda beynəlxalq təşkilatlar tərəfindən bu vəzifəni icra etməli olan qurumlar başqa fikirdə idi. Onlar Ermənistan dövləti ilə, işğalçı, talançı dövlətlə həmrəy idilər. Xüsusilə ATƏT-in Minsk qrupunun yarıtmaz və anti-Azərbaycan fəaliyyətini qeyd etmək istərdim. Bu qrup 1992-ci ildə yaradılmışdır və o vaxt bizim torpaqlarımızın işğal altına düşməsinin birinci mərhələsi idi. Bu qrupun və onun həmsədrlərinin məqsədi məsələni həll etmək əvəzinə, əksinə, bu işğalı əbədi etmək, Ermənistana haqq qazandırmaq, Azərbaycan xalqını və dövlətini isə işğalla barışdırmaq idi. Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi. Bax, bu 17 il ərzində keçirdiyim saysız-hesabsız görüşlərin nəticəsi budur. Hesab edirdilər ki, buna nail olacaqlar. Hesab edirdilər ki, bizi inandırmağa nail olacaqlar ki, biz öz əzəli torpaqlarımızdan əl çəkək. Ancaq yenə də Ermənistan dövləti kimi səhv etdilər. Mən işğal dövründə dəfələrlə demişdim ki, xalqımız və dövlətimiz heç vaxt işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını qaytaracaq. Bunu Prezident kimi fəaliyyətə başladığım ilk dəqiqələrdə - birinci andiçmə mərasimindəki çıxışımda və ondan sonrakı dövrdə bildirmişəm. Bu illər ərzində biz bir məqsəd ətrafında birləşmişdik ki, bir nöqtəyə vuraraq xalqımız bu müqəddəs missiyanı yerinə yetirsin.

Beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi, bizim hüquqlarımızı bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, bizim milli ləyaqətimizi bərpa etdi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa edib. Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Cəmi 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq. Bu günlər bu gün Xankəndidə açdığım Zəfər tağının pilləkənlərində də əks olunub. Əminəm ki, oraya da siz və bütün Azərbaycan vətəndaşları gedəcəklər, ziyarət edəcəklər. Bu gün ölkəmizdə ikinci Zəfər tağı açılmışdır - Bakıdan sonra Xankəndidə. Orada pilləkənlərin üzərində şanlı Zəfər yürüşümüzün hər günü təsbit edilib. Biz hər gün irəli gedirdik, hər gün şəhər və kəndləri azad edirdik və heç bir qüvvə bizim qabağımızda dura bilməzdi. Halbuki bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək - bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi. Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular. Ermənistan dövləti bu vəziyyətlə barışmalı oldu. Vaxtilə buradan uzaqda olmayan Xankəndi şəhərinin stadionunda "Qarabağ Ermənistandır və nöqtə" deyənlər "Qarabağ Azərbaycandır!" deməyə məcbur oldular. Yəni öz xoşu ilə yox, məcbur edən də biz olduq - xalqımız, dövlətimiz. Yəni bu tarixi biz heç vaxt unutmamalıyıq. O acı günləri yaşayan yaşlı nəsil təbii ki, heç vaxt unutmayacaq. Gənc nəsil unutmamalıdır. Bundan sonra gələn nəsillər, gələcək nəsillər unutmamalıdır, bilməlidir. Bu tarix həm məktəblərdə, həm ali məktəblərdə, ailələrdə əzbər olmalıdır. Yəni bu, bizim şanlı Zəfərimizdir. Eyni zamanda bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq.

Biz bilirik bizim dostumuz kim olub, düşmənlərimiz kim olub. Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub. Amma bu gün bizim güclü iradəmiz, siyasi addımlarımız, Silahlı Qüvvələrimizin güclü olması artıq tamamilə yeni mənzərəni ortaya qoyur. Beş il bundan əvvəl döyüş meydanında qazandığımız Qələbəni biz 2 il bundan əvvəl antiterror əməliyyatı nəticəsində tam əldə etdik. Ondan sonra keçən 2 il ərzində bütün beynəlxalq təşkilatlarda bunu təsdiqlədik. Mənfur Minsk qrupunun tarixin arxivinə göndərilməsi də məhz bizim təkidimizlə olmuşdur. Bu ayın əvvəlində Minsk qrupu və ona bağlı olan bütün təsisatlar rəsmən ləğv edildi. Bu da bizim tələbimiz idi və Ermənistan tərəfi demək olar ki, 5 il ərzində buna müqavimət göstərirdi. Ancaq yenə də deyə bilərəm ki, bizim iradəmizin qarşısında heç kim dura bilməz.

Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi. Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq "soyuq savaşı"nın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır.

Bizim xalqımız böyük fəlakətlə üz-üzə qalmışdı. Bilmirəm, dünyada buna oxşar ədalətsizliklə üzləşən xalqlar var, yoxsa yox, - bəlkə də var, - amma son illərin tarixində ən böyük ədalətsizliklə biz üzləşmişdik. Çünki torpaqlarımız işğal altına düşdü. Belə hallar dünyada var. Biz nə birinci idik, nə də sonuncu. Amma bütün belə hallar olduğu vaxtda beynəlxalq təşkilatlar, böyük dövlətlər və müxtəlif ölkələrin siyasi dairələri bu işğalı qınayır, işğalçını məcbur etmək üçün müxtəlif üsullardan istifadə edir, sanksiyalar tətbiq edir. Bunu biz görürük, indi yaxın tariximiz bunu göstərir. Ermənistan-Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir. Bizi işğalla barışdırmaq böyük dövlətlərin əsas vəzifəsi idi. Bizim yanımızda olan tək ölkə Türkiyə idi. Buna görə biz türk qardaşlarımıza minnətdarıq, həm işğal dövründə, həm müharibə dövründə bizə daim siyasi və mənəvi dəstək vermişdir.

Müsəlman ölkələri. Onlar İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim təkliflərimizə həmişə müsbət reaksiya verərək, lazım olan qərar və qətnamələri qəbul etmişdilər. Ancaq bütövlükdə götürəndə bizim müharibəmiz və işğal tariximiz bütün başqa, buna oxşar hadisələrdən fərqlənir. Çünki yenə də deyirəm, işğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı. Bu gün dünyada müxtəlif yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş alıb gedir. Ya beynəlxalq təşkilatlar, ya böyük nüfuzlu ölkələr dərhal nə edirlər? Sanksiyalar tətbiq edirlər. Əlbəttə ki, sanksiyaların da böyük təsiri var. Xüsusilə Ermənistan kimi kiçik və zəngin olmayan, demək olar ki, kasıb ölkəyə əgər sanksiyalar tətbiq edilsəydi, əlbəttə, Ermənistan işğala son qoyardı. Ancaq nəinki sanksiyalar tətbiq edilmədi, əksinə, onlara bəziləri pulsuz silahlar verirdi, özü də bir milyon dollarlıq yox, milyardlarla dollar dəyərində. Bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri təqribən 5-6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı. Hər il Amerikada, Fransada marafonlar keçirilirdi. Separatçılar, separatçı liderlər, - hansılar ki, bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər, - oraya vizalar alırdılar. Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox. Amma erməni separatçılarına niyə vizalar verilirdi? Yəni dediyim sözün bir təsdiqi də budur. Onlar telemarafonlar keçirirdi, 100 milyonlarla dollar pul yığırdılar. Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəllə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq. Yəni ona görə bütün bunlar, necə deyərlər, həm düzgün çatdırılmalıdır, həm də bizim təhsil müəssisələrimizdə, ictimai məkanda dəqiq təqdim edilməlidir, yəni bu unudulmamalıdır və biz də heç vaxt unutmamalıyıq.

Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq. Bax, bunu mən bir də deyirəm. Mən bunu birinci dəfə deyil ki, deyirəm. Ayıq olmalıyıq, daim güclü olmalıyıq. Ona görə biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini görə bildi.

*Ardı 4-cü səh.*

◆ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Xankəndi və Ağdama səfəri

# "Böyük qayıdış" proqramının əyani təzahürlərini indi hər kəs görə bilir

## Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb

*Əvvəli 3-cü səh.*










Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik.

Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Mən bu kəndlərin yenidən istifadəyə verilməsi mərasimlərində iştirak etmişəm - Kəngərli, Sarıcalı, Xıdırlı. Orada indi bir neçə min insan yaşayır və bu köç prosesi davam edir. Bu gün Ağdam şəhərində artıq insanlar yerləşir və bu yaşayış məhəlləsindəki 1268 mənzildə ağdamlılar yerləşəcək. Daha iki məhəllədə inşaat işləri gedir. Təkcə bu məhəllədə 60 çoxmərtəbəli bina var. Bütün şərait yaradılıb, infrastruktur qurulub və burada rahat yaşamaq üçün bütün imkanlar var. Təbii ki, Ağdam şəhərinin tam istədiyimiz kimi qurulması zaman tələb edir.

Onu da hər kəs yaxşı bilir ki, təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, "Böyük qayıdış" proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilmişdir. Mən dünən Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olmuşam. Artıq 30-dan çox rezident qeydə alınıb. Onların bəziləri fəaliyyətə başlayıb, bəziləri isə yaxın gələcəkdə fəaliyyətə başlayacaq. Ağdam ölkəmizin böyük sənaye şəhəri olacaq. Bakı, Sumqayıt və Gəncədən sonra yəqin ki, dördüncü sənaye mərkəzi olacaq.

Burada nəqliyyatla bağlı məsələlər həll olunur. Birinci layihə Bərdə-Ağdam avtomobil yolu, Bərdə-Ağdam dəmir yolu olmuşdur. Dəmiryol vağzalı istismara verilmişdir. Hazırda biz vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Ağdam-Xankəndi dəmir yolunun inşası ilə məşğuluq.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham ƏLİYEV:** Allah ölənlərinizə rəhmət eləsin. Bu dəmir yolunu da biz yenidən qururuq. Ağdam Cümə məscidi birinci bərpa olunan tarixi-dini abidəmizdir. Qiyaslı məscidi, - hansı ki, tamamilə dağıdılmışdır və orada da Ağdam Cümə məscidi kimi Ermənistan dövləti bütün müsəlmanları təhqir etmək üçün heyvan saxlayırdı, - o da açıldı. Suvarma işləri öz həllini tapır. Xaçınçay su anbarı yenidən quruldu. Həm Ağdam üçün, həm də bütün ölkəmiz üçün vacib olan mədəni digər abidə "İmarət" kompleksidir. O da tamamilə bərpa edildi. Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi qoyuldu. Məktəb istifadəyə verilmişdir. Çox gözəl, böyük məktəb, Muğam Mərkəzi, iki mehmanxana. Yəni o qədər işlər görülüb ki, bəlkə də hansılarısa mən unutmuşam. Amma yəni hər şey göz qabağındadır. Bütün bunlar da cəmi 5 il ərzində yaradılıb. Yəni bilirsiniz o nəyi göstərir? Təkcə söhbət ondan getmir ki, biz proqram qəbul etmişik və təbii ki, nəzarət var. Mən də dəfələrlə azad edilmiş ərazilərə gedərkən özüm şəxsən nəzarət edirəm. Söhbət ondan gedir ki, bütün xalqımız bu işləri böyük həvəslə görür. Əgər bu amil olmasaydı, biz qısa müddət ərzində bu qədər işi görə bilməzdik. Məsələn, dünən Xankəndidə Qarabağ Universitetinin yeni korpusunun açılışında idim. Tamamilə sıfırdan tikilmiş yeni, gözəl binadır. Maraqlanıram ki, burada yeni tədris prosesi necə gedir? Tələbələr, müəllimlər. Müəllimlərin bəziləri xaricdən, bəziləri isə Azərbaycanın müxtəlif yerlərindən gəlir dərs deməyə. Mən maraqlanıram ki, bəs motivasiya nədir? Onları nə cəlb edir? Mənə deyirlər ki, Qarabağ cəlb edir bizi.

Bir daha sizi təbrik edirəm, cansağlığı arzulayıram.

❖ ❖ ❖

Sonra sakinlər çıxış etdilər.

**Birinci kişi sakin:** Cənab Prezident, bu gün Ağdam camaatı üçün ikiqat bayramdır. Həm Sizin doğum gününüzdür, həm də Ağdam şəhərinin açılışı günüdür. Siz prezidentlik dövrünüzdə nə söz vermişdinizsə, onun hamısını vaxtında yerinə yetirdiniz və bizi 30 illik Ağdam həsrətindən qurtardınız. Allah Sizə uzun ömür, cansağlığı versin. Mən bir ziyalı, bir şəhid atası və Qarabağ veteranı kimi öz adımdan, bütün ağdamlılar adından Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə uğurlar arzu edirəm. Sağ olun, Allah Sizə ömür versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Birinci qadın sakin:** Salam, əziz Prezident, xoş gəldiniz, Mehriban xanım. Sizi həmişə xalqın arasında görmək bizim üçün böyük fəxrdir, bizi çox sevindirir, qürur verir. Ağdamlılar adından Sizi təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

**İkinci qadın sakin:** Yüz yaşayasan.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Birinci qadın sakin:** Bizə qürur verir ki, Siz həmişə xalqın arasındasınız. Çox sağ olun, var olun. Sizə təşəkkür edirik ağdamlılar adından. Milli Qəhrəmanımız Allahverdi Bağırovun həyat yoldaşıyam. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**İkinci kişi sakin:** Mən də təqdimat edim: ruhani şair, Ağdamdan din xadimi Hacı Fərman Azançı. Cənab Prezident, əvvəla sizlərin üzərinə Allahın salamı, rəhməti və bərəkəti olsun ki, bu gün o qədər bizim ürəyimiz açılıb ki, Quzanlıdan bu gün buraya gələndə and olsun Allaha, elə bilirdik ki, Kəbəni ziyarət eləməyə gəlirik. Ağdam bizim Kəbəmiz, qibləgahımızdır. Bu gün bütün bunları bizə bəxş edən Siz, Sizin Müzəffər, Qalib Ordunuz, şəhidlərimiz, döyüşən oğlanlarımızdır. Allah, Xudavəndi Aləm sizlərdən razı olsun. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Mən nəyi demək istəyirəm, bayaq Ağdam məscidinin adını çəkdiniz. Mənim yadıma nə düşdü: mənfur ermənilər orada donuz saxlayırdılar. Siz gəldiniz, oranı bərpa etdiniz. Bu gün həmin məsciddən azan səsləri ucalır, insanları doğruluğa, dürüstlüyə, Allaha doğru ibadətə, itaətə dəvət edir. Siz o məscidin qarşısında durdunuz və dediniz ki, "Qarabağ Azərbaycandır!" Bu, elə-belə məsələ deyil. Ondan əlavə, bu gün Ağdam dirçəlir. Beş il müddətində sıfırdan o qədər işlər görülüb ki, təsəvvür edin, bu boyda binalar, məktəblər Ağdamın rəmzləri olubdur. Biz ağdamlıların ürəyində nisgil idi, yaşamışıq bunu. Təsəvvür edin, "İmarət" kompleksi, Çay evi, - göstəriş vermisiniz ora bərpa olunur, - Ağdamın simvollarından Çörək muzeyi, mədəniyyət evimiz, bir nömrəli məktəbimiz... İnşallah, onlar da bərpa olunacaqdır. Yəni bütün bunların həyata keçməyi Sizin əməyinizdir. Mən Ağdamın özündənəm. Bizim uşaqlığımız bu yerlərdə keçibdir. Bu gün bizi o günlərə qaytarmaq, bizə sevinc bəxş etmək elə-belə məsələ deyil. Biz Sizə 210 minlik ağdamlılar adından ürəkdən təşəkkür edirik. Allah Sizdən razı olsun, Allah Sizi var eləsin!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Üçüncü qadın sakin:** Bu gün biz buraya yığışmışıq. Şəhidlərimizin ruhu şad olsun, qazilərimizə Allah kömək olsun. Allah Sizə də cansağlığı versin. Ad gününüzü təbrik edirəm, cənab Prezidentimiz, başınıza dönüm Sizin. Yüz yaşayasan!

Bu gün 83 yaşımda, - yəqin yadınızda olar, o vaxt çəkiliş olanda 79 yaşım var idi, indi 83 yaşımın içindəyəm, - burada, bu torpağın üstündə Sizinlə birlikdə, bütün xalqımla birlikdə durmağı Allah-taala mənə nəsib etdiyinə görə çox şadam. Çox şükür, o açar təkcə evimin açarı deyil, o torpağımızın açarıdır, qızıl açardır. Çox şadam, Allah Sizi var eləsin, canınız sağ olsun. O vaxt Allah-taaladan möhlət arzuladım ki, torpağımızın alınması münasibətilə gəlim, burada Sizə, Mehriban xanıma təşəkkürümü bildirim.

Cənab Prezident, 24 dekabr - bu gün Sizin ad gününüzdür. Öz ad gününüzdə burada bizimləsiniz. Biz Sizi ürəkdən təbrik edirik. Sizə gözəl günlər arzulayırıq. Allah razı olsun Sizlərdən.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Üçüncü kişi sakin:** Çox hörmətli Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev, Azərbaycanın çox hörmətli birinci xanımı, vitse-prezidentimiz Mehriban xanım, çox xoş gəlmisiniz. Gələn qədəmləriniz mübarək olsun, sağlam olasınız, gümrah olasınız. Ağdam torpağına 32 il idi həsrət idik. Hər dəfə Sizinlə görüşdə deyirdiniz ki, Maarif, arxayın ol, mən o torpaqları işğaldan azad edib sizi oraya aparacağam. Həqiqətən elə də oldu. Şəxsən mənim və bütün ağdamlıların bu gün o qədər yüksək səviyyədə sevinci var ki, adam bilmir, nədən başlasın, nədə qurtarsın. Bu gün Sizin doğum gününüzdür. Mən hər ikinizi, sizin övladlarınızı təbrik edirəm. Doğum gününüz münasibətilə Sizə sağlam ömür, uğurlar arzu edirəm. Allah Sizi qorusun.

Bir də demək istəyirəm, cənab Prezident, uzun illərin təcrübəsində görmüşəm ki, İlahinin yaratdığı sevimli bəndəsi xeyirxah işlərlə məşğul olur - körpüsü olmayan yollara körpü salır, yolu olmayan yerlərə yol, işığı olmayan şəhərə işıq çəkir, suyu olmayan yerlərə su çəkir, evi olmayan adamların hamısına ev tikir, yardım edir. Bunların hamısı hər ikinizdə var - həm Prezident İlham Əliyevdə, həm də Azərbaycanın birinci xanımı Mehriban xanımda. Ona görə ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin övladısınız və onun tapşırığı, varisliyi ilə Azərbaycanı həmişə qoruyursunuz. Biz buna sevinirik, şad oluruq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Həmin kişi sakin:** Ulu Öndərin vəsiyyətlərinin hamısını mən bilirəm. Onların hamısına əməl edirsiniz. O deyirdi, tapşırırdı ki, Siz Azərbaycanın işğal olunmuş 20 faiz torpağını bərpa etməlisiniz, sərhədləri düzgün müəyyənləşdirməlisiniz. İşğal olunmuş kəndləri, şəhərləri, o yerlərin hamısını azad etməklə yanaşı, yeni kənd, yeni şəhər, yeni qəsəbə salmalısınız. Bunların hamısını edirsiniz, cənab Prezident, Allah Sizi qorusun. Mən bir ağsaqqal kimi, - 81 yaşım var, - bunu deyirəm, İlahi qüvvə var, Sizə heç bir qüvvənin gücü çatmaz. Ona görə ki, deyilən bu işlərin hamısını Siz İlham Heydər oğlu Əliyev ürəkdən, yatmadan, dincəlmədən, əziyyət çəkə-çəkə edirsiniz. Hansı yerdə, hansı rayonda təməl qoyursunuzsa, onun icrası ilə maraqlanır, açılışında iştirak edirsiniz. Buna vaxt lazımdır, sağlamlıq lazımdır. Allah Sizə sağlamlıq versin, amin. Eləcə də Mehriban xanıma Allah sağlamlıq versin. Allah Sizi qorusun.

Siz Azərbaycanın 20 faiz torpağını işğaldan azad etdiniz. Otuz iki il idi ki, biz Ağdam üzünə həsrət idik. Şəxsən mən hər dəfə Sizinlə görüşəndə deyirdiniz ki, tələsmə, mərhələ-mərhələ o günə də gəlib çatacağıq. Mehriban xanım deyirdi o sözü. Doğrudan da şükürlər olsun bu günə ki, Siz onu həyata keçirə bildiniz. Elə qüvvələrlə rastlaşırdınız ki, mən televizorun qabağında saatlarla ayaq üstə durub gözləyirdim ki, görüm nə cavab alınacaq. Ona elə cavab verirdiniz, mat olurdu. Ona elə cavab verirdiniz ki, o, Sizin sözünüzdən dönə bilmirdi, Sizə baş əyirdi. Bunların hamısı Azərbaycanın Milli Qurucusu Heydər Əliyevin təcrübəsi idi. Onun vəsiyyəti idi. O, Azərbaycanın yüksəksəviyyəli memarı idi. Hər dəfə onunla görüş keçirəndə mən elə bilirdim ki, dünya bizimdir. Elə bilirdim ki, həyat bizimdir. O hakimiyyətə gəlməsə idi, Azərbaycan yox idi. O, hakimiyyətə gələndən sonra biz dirçəldik. Biz ondan sonra hər yerdə tanındıq. Həm də dünyanın hər yanında deyirdilər ki, Azərbaycanı Heydər Əliyev tanıtmışdır. İndi isə Sizin mərdliyiniz, qoçaqlığınız, güclü rəhbərliyiniz hesabına, şəhidlərimizin, qazilərimizin gücü, müharibə veteranlarımızın səyi ilə biz işğal olunmuş torpaqlarımızı azad etdik.

İndi gözəl şəhərlər salırsınız. Sizə uzun ömür, sağlamlıq arzulayıram. Arzu edirəm ki, heç bir pis qüvvə Sizə toxunmasın. Biz onu həmişə deyirik. Bütün ağdamlılar Sizi sevir. Balacasından tutmuş böyüyünə kimi bütün Ağdam camaatı Sizi dəstəkləyir. Hər dəfə söhbət düşəndə deyirlər, Allah İlham Əliyevə dəyməsin, Allah Mehriban xanıma dəyməsin. O, Azərbaycanın birinci xanımıdır. O, Azərbaycanın vitse-prezidentidir. O, İlham Əliyevə çox yaxşı kömək edir. Mən və bütün ağdamlılar arzu edirik ki, balaca Heydərimiz həmişə sağlam, gümrah olsun, Azərbaycana rəhbər olsun, Sizin özünüzün yetişdirməniz, kadrınız olsun. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev Sizi yetişdirib, onun vəsiyyətlərinin hamısına əməl edirsiniz, özü də yüksək səviyyədə. Bu hər övladın işi deyil. İndi isə balaca Heydər Azərbaycanın rəhbəri olsun. Biz onunla fəxr edirik. Biz Sizinlə fəxr edirik. Sizi sevirik, Sizi dəstəkləyirik. Bunu bütün ağdamlıların adından deyirəm, bütün komandamızın adından deyirəm.

Bir məsələni demək istəyirəm ki, mən Qarabağ atlarını ermənilərdən çox cəsarətlə aldım. O zaman aldım ki, 1992-ci il fevral ayının 26-sı idi, 366-cı alayın köməyi ilə Xocalıya hücum etdilər, Xocalını çox pis günə saldılar. Orada mənim 15 nəfər yaxın qohumum şəhid oldu. Beş nəfər yaxın qohumum əsir düşdü. Bu zaman onlar Qarabağ atını özəlləşdirmək, özününküləşdirmək istəyirdilər. Ona nail ola bilmədilər. Biz mərdliklə, qoçaqlıqla o atları gətirdik, Üçoğlanda toyuq fermasına yığdıq, orada saxladıq. Sonra da onları öz gücümüzlə Bakıya apardıq. Siz 2014-cü ildə Ağdamda köçkün şəhərciklərinin açılışında iştirak edəndə Sizə çatdırdıq ki, bəs Qarabağ atlarının vəziyyəti yaxşı deyil. Çox sağ olun, minnətdaram. Bu atlar Ağdamın milli simvolu idi. Ağdama böyük hörmət etdiniz, Qarabağ atı üçün böyük kompleks tikdirdiniz, Mehriban xanım da ona xarici dildə kitab yazdırdı, bütün dünyanın hər yanına yaydı.

Quzanlı kimi böyük bir şəhər salmısınız orada. Allah Sizdən razı olsun. Ağdam camaatı Sizə ömrü boyu minnətdardır ki, Qarabağ atını Ulu Öndərimiz Heydər Əliyevin tapşırığı ilə regionların iqtisadi inkişafı dövlət proqramına saldınız. İndi Sizin və Mehriban xanımın hesabına orada Qarabağ atı inkişafdadır, özü də yüksək səviyyədə.

*Ardı 5-ci səh.*

# "Böyük qayıdış" proqramının əyani təzahürlərini indi hər kəs görə bilir

## Prezident İlham Əliyev Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb







*Əvvəli 4-cü səh.*

Bizim qoşaminarəli Ağdam məscidini, Cümə məscidini ermənilər məhv etmişdi. Çox xırdalamıram. Onu Siz yenidən bərpa etdiniz. Biz ağdamlıların ürəyindən keçən işləri etdiniz. Muğam Evini yaratdınız. Muğam Evi bizim Ağdam üçün ən lazımlı bir yerdir. Həm Muğam Evi, həm Qarabağ atı, həm də ki, o başqa işlərin hamısını Siz yüksək səviyyədə gördünüz. Allah Sizin köməyinizdə olsun. Siz yaxşı ailənin, gözəl ailənin, Ulu Öndərimiz Heydər Əliyevin düzgün, cəsarətli oğlusunuz. Onun vəsiyyətlərini Siz yerinə yetirdiniz. Öpürəm Sizi. Bütün ağdamlıların adından Sizə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Biz səni sevirik. Səni də, bütün uşaqlarını da, balaca Heydəri də sevirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, mən də sizi sevirəm.

**Həmin kişi sakin:** Sənin arxanca haraya desən, getməyə hazırıq. Siz ki, o qatarı gətirib Ağdama çıxarmısınız, nə desən, etməyə hazırıq. Ağdamda baş plan üzrə gözəl şərait yaradırsınız. O baş plan haqqında mənim məlumatım var. Allah Sizə ömür versin. Allahdan arzu edirəm ki, İlahi qüvvə sənə, yoldaşına, balalarına sağlam ömür versin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Daha sonra sakinlərə evlərin açarlarının təqdim edilməsi mərasimi oldu.

Dövlətimizin başçısına minnətdarlığını bildirən **Maarif HÜSEYNOV** dedi: Öpürəm Sizi. Bütün Azərbaycanı yaşatdın, təkcə Ağdamı yox. Ağdamın əhalisi səni çox istəyir, sənin arxandadır, necə deyim, ürəyin istəyən qədər sənə köməyi var. Öpürəm səni, öpürəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Bilirsiniz, biz Eyvazxanbəylidə də gözəl bir mərkəz yaradacağıq.

**Maarif HÜSEYNOV:** Sağ olun, bilirəm, bilirəm.

**Prezident İlham ƏLİYEV:** Yəni atın əsl vətəni oradır da, bilirsiniz.

**Maarif HÜSEYNOV:** Oradır, amma inanın ki, o nəslin korlanmasının qarşısını alan birinci növbədə Ulu Öndərimiz Heydər Əliyev oldu.

**Prezident İlham ƏLİYEV:** Amma siz o vaxt o atları çıxarmasaydınız, onlar batacaqdı.

**Maarif HÜSEYNOV:** Erməni sevinəcəkdi, deyəcəkdi, Qarabağ da bizimdir, elə Qarabağ atları da. Öpürəm Sizi, çox sağ olun. Sizə uzun ömür arzu edirəm. Balalarınız xoşbəxt olsun. O balaca Heydər Sizə həmişə dayaq olsun.

**Mehriban xanım ƏLİYEVA:** Balaca Heydər artıq böyüyüb *(gülür)*.

**Maarif HÜSEYNOV:** Çox xoşbəxt olsunlar. Balaları ilə xoşbəxt olsun.

**Mehriban xanım ƏLİYEVA:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** İki uşağı var.

**Sakinlər:** Allah saxlasın.

**Prezident İlham ƏLİYEV:** İki oğul.

**Maarif HÜSEYNOV:** Siz Azərbaycanı bütün dünyada tanıdırsınız. Siz o polad yumruğunuzla elə cəsarətli komandanlıq edirdiniz ki, həyatda heç vaxt uduzmazsınız. Siz xeyirxah adamsınız. Bax o da, Siz də. Yaradırsınız, xalqı yaşadırsınız, xalqa çörək verirsiniz. Bunlar hamısı Sizin qanınızda var, Sizdə var. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Təbrik edirəm, xoşbəxt yaşayın.

**Maarif HÜSEYNOV:** Çox sağ olun, Allah Sizdən razı olsun.

❖ ❖ ❖

Sonra xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

**Qadın sakin:** Sizin ad gününüzü təbrik edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Allah-taala Sizi dövlətimizin, millətimizin üzərindən əskik etməsin, əskik olmayasınız. Siz bu gün bizə 30 illik həsrətin sevincini yaşatdınız. Doğma Vətənimizə qayıtdığımız üçün Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Biz anaların xeyir-duası həmişə Sizin üstünüzdə olsun.

**Kişi sakin:** Cənab Prezident, bu gün doğum gününüzdə burada camaatla görüşməyinizlə, elə bil ki, Ağdamı dirçəltdiniz, camaatın ürəyini genişləndirdiniz. Allah Sizi qorusun, Allah Sizə dəyməsin!

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycan sosial və iqtisadi sahələrdə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqelərini ardıcıl olaraq möhkəmləndirir.

Ölkələrimiz arasında münasibətlər möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Əminəm ki, bu münasibətlər bundan sonra da strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edəcək, bu da şübhəsiz ki, Rusiya və Azərbaycan xalqlarının mənafelərinə cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı, firavanlıq və uğurlar arzulayıram. Ən səmimi salamlarımı ailənizə çatdırmağı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident, Əziz Qardaşım!

Sizi doğum gününüz münasibətilə xalqım adından və öz adımdan səmimi-qəlbdən təbrik edir, zati-alinizə cansağlığı, rifah və ailənizlə birlikdə uzun ömür arzulayıram.

Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsi, regional və beynəlxalq siyasətdə nüfuzunun artması bizim üçün böyük məmnunluq və qürur mənbəyidir.

Beşinci ildönümünü birlikdə qeyd etdiyimiz şanlı Vətən müharibəsi Zəfərindən sonra həyata keçirilən sülh prosesinin davamlı bir razılaşma ilə nəticələnməsini arzu etdiyimi bir daha vurğulamaq istəyirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun inkişafına xidmət edəcəkdir.

Türkiyə və Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklərə malik qardaşlıq və həmrəylik əlaqələri Ümummilli Lider Heydər Əliyevin bizə miras qoyduğu "Bir millət, iki dövlət" prinsipi ilə hər gün daha da güclənir.

Möhkəm təməllər üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və hər sahədə nümayiş etdirdiyimiz yüksəksəviyyəli əməkdaşlıq sayəsində regionumuzun taleyini və gələcəyini formalaşdıran birgə layihələrimizi həyata keçirmək üçün güclü iradəyə malik olduğumuz birmənalıdır.

Əziz Qardaşım, Sizi bir daha doğum gününüz münasibətilə ürəkdən təbrik edir, fürsətdən istifadə edərək dost və qardaş Azərbaycan xalqının rifah və firavanlığı üçün ən xoş arzularımı çatdırıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə gürcü xalqı adından və öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırım.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası davamlı sülhə, sabitliyə və mühüm nailiyyətlərə nail olub ki, bu da uzaqgörənliyinizin və Azərbaycan xalqının rifahı naminə göstərdiyiniz fədakar xidmətinizin əyani sübutudur. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə daha da güclənəcəkdir.

Əminəm ki, xalqlarımız arasında nümunəvi dostluq münasibətləri və möhkəm strateji tərəfdaşlıq qarşıdakı illərdə də möhkəmlənəcək və genişlənəcəkdir. Gürcüstan və Azərbaycan arasındakı əməkdaşlıq təkcə ikitərəfli əlaqələrimizin inkişafı üçün deyil, həm də Cənubi Qafqazda daha dərin regional inteqrasiyanın, davamlı sülhün və sabitliyin təşviqi üçün təməl daşı rolunu oynayır.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, tükənməz enerji və yüksək məsuliyyətli dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh və rifah arzulayıram.

*Ən xoş arzularla,*

***Mixeil KAVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qırğız Respublikası xalqı adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə qardaş Azərbaycan Respublikası siyasi və iqtisadi inkişafda böyük uğurlara nail olmuş və beynəlxalq aləmdə xüsusi nüfuz qazanmışdır.

Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın möhkəmləndirilməsinə şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Əminəm ki, Qırğızıstana qarşıdan gələn dövlət səfəriniz çərçivəsində biz səmərəli və effektiv danışıqlar yolu ilə Qırğızıstan-Azərbaycan münasibətlərinin bundan sonra da inkişafı üçün zəmin yaradacağıq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, uzun ömür, qardaş Azərbaycan xalqına isə davamlı sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, davamlı güc-qüvvət və Azərbaycan dövlətinin rəhbəri kimi ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

Moldova Azərbaycanla dostluq münasibətlərini yüksək qiymətləndirir və tərəfdaşlığımızı müəyyən edən etimad və əməkdaşlıq ruhunu dəyərləndirir. Əminəm ki, birlikdə konstruktiv dialoqumuzu dərinləşdirməyə və ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirməyə davam edəcəyik.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Macarıstanın həm sülh dövründə, həm də son onilliklərdəki böhran dövründə Azərbaycana güvənə bilməsinə görə minnətdarlığımı bildirirəm. İkitərəfli münasibətlərimiz ildən-ilə daha da güclənməkdə davam edir. Əməkdaşlığımız genişlənərək bir çox əsas sahəni, xüsusilə də enerji sektorunu əhatə edir.

Zati-alinizin şəxsi töhfələri sayəsində xalqlarımız arasında münasibətlərdə yeni bir dövr başlanmışdır və buna görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizi əmin etmək istərdim ki, hökumətim tərəfdaşlığımızın dərinləşməsinə və xalqlarımızın ortaq maraqlarının irəliləməsinə sadiqdir.

Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli Prezident, əziz dost!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Uğurlu fəaliyyətiniz, dövlət işlərini səmərəli şəkildə yerinə yetirmək və beynəlxalq məsələlərin həllində kompromis əldə etmək bacarığınız haqlı olaraq Sizə bütün dünyada yüksək nüfuz və hörmət qazandırıb.

Qarşıdan gələn Yeni ildə Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram. Həm iqtisadi, həm də hərbi baxımdan güclü, beynəlxalq münasibətlərdə mühüm rol oynayan bir ölkənin Prezidenti kimi qarşınızda böyük vəzifələr durur.

Hazırkı dünya çoxsaylı çətinliklərlə üzləşir. Bizim gələcəyimiz dünyanın bu çətinliklərin öhdəsindən necə gəlməsindən asılı olacaqdır.

Fürsətdən istifadə edərək, Sizə, ailənizə və xalqınıza Yeni ildə ən xoş arzularımı çatdırıram.

*Səmimiyyətlə,*

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş Katibliyi adından zati-alinizi doğum günü münasibətilə ən səmimi arzularımla təbrik edirəm. Bu əlamətdar günün Sizin üçün sağlamlıq, xoşbəxtlik və əmin-amanlıq dolu yeni bir ilin başlanğıcı olmasını arzu edirəm.

Həyatınızı Azərbaycan xalqına və türk Dünyasının ortaq gələcəyinə həsr etdiyiniz bu şərəfli yolda ölkənizin rifahı, sabitliyi və inkişafı naminə nümayiş etdirdiyiniz qətiyyətli və uzaqgörən liderlik təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün mühüm qürur mənbəyidir.

Azərbaycan Respublikasının türk mədəniyyətinin qorunması, inkişaf etdirilməsi və beynəlxalq miqyasda tanıdılması istiqamətindəki ardıcıl mövqeyi, eləcə də TÜRKSOY-a göstərdiyi dəyərli dəstək xalqlarımız tərəfindən daim böyük hörmət və təqdirlə qarşılanır.

Zati-alinizin türk dünyasında birlik və həmrəyliyin möhkəmləndirilməsinə yönəlmiş strateji baxışı ortaq tarix, dil və mədəniyyət bağlarımızı daha da gücləndirir, dövlətlərimiz arasında qardaşlıq münasibətlərini möhkəm əsaslar üzərində gələcəyə aparır. Azərbaycanın beynəlxalq arenada artan nüfuzu, eləcə də regional və qlobal sülhə verdiyi töhfələr diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

Bu əlamətdar gün münasibətilə zati-alinizə bir daha möhkəm cansağlığı, firavanlıq və davamlı uğurlar arzulayır, Azərbaycan Respublikasının və əziz Azərbaycan xalqının sülh, sabitlik və rifah şəraitində inkişafının davam etməsini Uca Allahdan diləyirəm.

Zati-aliləri, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sultan RAEV,***
***TÜRKSOY-un baş katibi***

❖ ❖ ❖

Cənab Prezident!

Zati-alinizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqını qələbələrə aparan liderliyiniz ölkənizin müasir tarixində dönüş nöqtəsi təşkil edir. Nümayiş etdirdiyiniz qətiyyətli mövqe təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası üçün qürur mənbəyidir.

Zati-alinizin strateji uzaqgörənliyi və uğurlu dövlətçilik fəaliyyəti bölgəmizdə sülhün, sabitliyin və gələcəyə inamın möhkəmlənməsinə mühüm töhfələr vermişdir. Bu proses güclü dövlətçiliyin və milli birliyin eyni məqsəd ətrafında necə davamlı uğura çevrilə biləcəyini əyani şəkildə nümayiş etdirdi.

Sizin rəhbərliyinizlə Azərbaycan milli birlik, qətiyyətli iradə və güclü dövlət anlayışının parlaq nümunəsini ortada qoymuşdur. Bu mövqe türk dünyası üçün ruhlandırıcı yol xəritəsi rolunu oynayır.

Bu əlamətdar gündə zati-alinizə möhkəm cansağlığı və rifah, ali dövləti vəzifənizdə daha böyük uğurlar arzulayıram.

*Dərin ehtiramla,*

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Məsafədən asılı olmayaraq dostlarınızı qiymətləndirmək və xatırlamaq xüsusiyyətiniz həqiqətən təqdirəlayiqdir. Mən də öz növbəmdə, bu əlamətdar gününüzdə dünyanın hər yerindəki saysız-hesabsız dostlarınız və Sizi sevənlərlə birlikdə zati-alinizə möhkəm cansağlığı, rifah, xoşbəxtlik, davamlı uğurlar arzulayıram.

Sizin görkəmli dövlət xadimi kimi nümayiş etdirdiyiniz cəsarət və müdrikliyi xatırlayıram. Əhəmiyyətli nailiyyətləriniz Azərbaycanın beynəlxalq aləmdə dinlərarası və mədəniyyətlərarası harmoniya mayakı kimi mövqeyini xeyli yüksəldib.

Bir liderin irsini bəşəriyyətə verdiyi töhfələrə əsasən qiymətləndirərkən, deyə bilərik ki, Azərbaycana və dünyamıza verdiyiniz töhfələrə görə Sizinlə rəqabət apara bilən az adam var. Misilsiz rəhbərliyiniz altında qarşıdakı illərdə daha çox uğur qazanacağınızı gözləmək məni sevindirir.

Cənab Prezident, sevimli Azərbaycan xalqının davamlı tərəqqisi və rifahı naminə fəaliyyətinizdə Sizə ən xoş arzularımı bildirir, ən yüksək hörmət və ehtiramımı ifadə edirəm.

***Ravvin Mark ŞNAYER,***
***ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Zati-alinizin müdrik liderliyi və uzaqgörənliyi Azərbaycan Respublikasının sabitliyinə, inkişafına və firavanlığına, eləcə də onun beynəlxalq mövqeyinin güclənməsinə, regional və qlobal məsələlərdə konstruktiv iştirakının artmasına mühüm töhfə vermişdir.

Həmçinin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi dövründə fəal və konstruktiv roluna görə səmimi minnətdarlığımı bildirmək istərdim. Ölkənizin rolu təşkilatımızın prinsip və məqsədlərinin irəliləməsinə, eləcə də Asiyada sülh və dialoqun təşviqinə dəyərli töhfələr vermişdir.

Bu əlamətdar gün münasibətilə zati-alinizə möhkəm cansağlığı, məsuliyyətli missiyanızda davamlı uğurlar, eləcə də qardaş Azərbaycan xalqına daha da çox tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan özünəməxsus mədəni və tarixi kimliyini qoruyub saxlayaraq bütün sahələrdə davamlı inkişaf nümayiş etdirir.

Xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Əminəm ki, Qaraçay-Çərkəz ilə Azərbaycan arasındakı münasibətlər konstruktiv dialoq üçün yeni perspektivlər yaradaraq daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan xalqının rifahı naminə ali missiyanızda yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, daim ətrafınızda sadiq məsləkdaşların və etibarlı dostların olmasını arzulayıram.

*Dərin hörmətlə,*

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, ailənizlə birlikdə daim xoş günlər, uğurla inkişaf edən ölkənizin dövlət başçısı kimi gələcək fəaliyyətinizdə daha çox güc və enerji arzulayıram.

Dünyanın ən gözəl ölkələrindən biri olan Azərbaycanın Sizin rəhbərliyiniz altında qlobal miqyasda nüfuzlu dövlətlərdən birinə çevrildiyini müşahidə etməkdən məmnunam. Azad edilmiş torpaqlarınızın Sizin birbaşa nəzarətinizlə bərpası və transformasiyasını heyranlıqla izləyirik.

Cənab Prezident, mən həmçinin Sizə və ailənizə qarşıdan gələn Yeni il münasibətilə ən xoş arzularımı çatdırıram. Ölkənizə uzunmüddətli sülh və firavanlıq, dost Azərbaycan xalqına isə rifah arzulayıram.

Yeni il Sizə yeni imkanlar, davamlı nailiyyətlər və daha çox tərəqqi gətirsin!

*Dərin hörmət və ehtiramla,*

***Konrad SZORQ,***
***Almaniyadan "S.A.T. GmbH Security and Transport" korporasiyasının icraçı direktoru***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırım.

Müdrik və uzaqgörən rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası davamlı inkişaf, sosial-iqtisadi tərəqqi, regional əməkdaşlığın gücləndirilməsi və xalqlar arasında qarşılıqlı anlaşma yolu ilə inamla irəliləyir.

Fürsətdən istifadə edərək, şirkətimizin Azərbaycan ərazisində strateji əhəmiyyətli layihələrin həyata keçirilməsində gördüyü daimi diqqətə və konstruktiv dəstəyə görə dərin minnətdarlığımı bildirirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, firavanlıq və respublikanın bundan sonrakı inkişafı naminə ali dövləti fəaliyyətinizdə yeni böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın LUKOYL Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Mərkəzi Asiya Mediatorları Konsorsiumu Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası davamlı sosial-iqtisadi inkişaf nümayiş etdirmiş, dövlətçiliyini möhkəmləndirmiş, beynəlxalq nüfuzunu artırmış, sabitliyi, dialoqu və sülh yolu ilə həll prinsiplərini ardıcıl olaraq təşviq etmişdir.

Regional və beynəlxalq əməkdaşlığın inkişafını, dövlətlər arasında etimadın qurulmasını və peşəkar vasitəçilik missiyasına uyğun olaraq problemlərin sülh yolu ilə həlli mexanizmlərini dəstəkləmək səylərinizi yüksək qiymətləndiririk.

Sizə möhkəm cansağlığı, rifah və məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, firavanlıq və inkişaf arzulayırıq.

*Hörmətlə,*

***Gülsina KOJOYAROVA,***
***Mərkəzi Asiya Mediatorları Konsorsiumunun sədri, Qırğız Respublikası Mediatorlar Birliyinin Müşahidə Şurasının sədri***

***Jandilda JAKUPOV,***
***Mərkəzi Asiya Mediatorları Konsorsiumunun həmsədri, Qazaxıstan Mediatorları Assosiasiyasının baş direktoru, Beynəlxalq İnsan Hüquqları Mərkəzinin rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə ən dərin ehtiramımızı bildiririk.

Sizin Azərbaycan Respublikasının daha da inkişafına, beynəlxalq aləmdə nüfuzunun durmadan artmasına və ölkəmizin daha parlaq gələcəyinə yönəlmiş strateji hədəfləriniz daim yüksək qiymətləndirilir.

Sizin Müzəffər Ali Baş Komandan kimi qətiyyətiniz, möhkəm iradəniz və uzaqgörən siyasətiniz nəticəsində Vətən müharibəsində əldə olunan şanlı Zəfər xalqımızın milli qürurunu, birlik və həmrəylik ruhunu daha da gücləndirmişdir.

Bu tarixi gün Azərbaycan dövlətinin gücünü, ordumuzun rəşadətini və xalqımızın yenilməzliyini bütün dünyaya bir daha nümayiş etdirmişdir.

Fürsətdən istifadə edərək Sizi xalqımız üçün xüsusi mənəvi əhəmiyyət daşıyan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Dünyanın harasında yaşamasından asılı olmayaraq bütün soydaşlarımızı birliyə çağıran bu bayram milli kimliyimizin, mədəni irsimizin və birliyimizin rəmzidir. Həyata keçirdiyiniz siyasət dünya azərbaycanlılarının həmrəyliyini daha da möhkəmləndirmiş, diasporumuzun fəaliyyətinə yeni dinamika gətirmişdir.

Sizin rəhbərliyinizlə ölkəmizin daha da inkişaf edəcəyinə inanırıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycanımızın tərəqqisi naminə gördüyünüz böyük işlərdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Arzuman AZAFLI,***
***Türkiyədə fəaliyyət göstərən Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkənin daha sürətli inkişafı, dünyada nüfuzunun daha da artması istiqamətində apardığınız qətiyyətli siyasət bütün dünya azərbaycanlıları tərəfindən qürurla izlənilir.

Bu il biz Sizin müdrik rəhbərliyiniz və Ali Baş Komandanlığınızla qazanılan, uzun illər həsrətlə gözlənilən, tarixi ədalətin bərpasını təmin edən möhtəşəm Zəfərin beşinci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Zəfər Günü təkcə Azərbaycanın deyil, bütün türk dünyasının qürur günüdür.

Cənab Prezident, icazə verin Sizi hər bir azərbaycanlını bir amal, bir bayraq və bir ruh ətrafında birləşdirən əlamətdar gün - 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edək. Dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı bu birliyi dövlətə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq və Vətən eşqi ilə qorumağa davam edir. Azərbaycanın yanında olmaqdan, ölkənin haqq işini dəstəkləməkdən və xalqın birliyinə xidmət etməkdən qürur duyuruq.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına davamlı inkişaf və əmin-amanlıq arzu edirik.

*Dərin hörmətlə,*

***Əşrəf TUNA,***
***İzmir Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Doğum gününüz mübarək! Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, hər zaman böyük sevinc, qarşıdakı planlarınızın uğurla həyata keçməsini arzulayır, doğma ölkənizin daha da inkişafı və Azərbaycan xalqının daha xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

Zati-aliləri, xeyirxahlığınıza, humanistliyinizə, xüsusilə də uşaqlarımızın xoşbəxtliyi üçün göstərdiyiniz əvəzsiz köməyə görə Sizə ömrümün sonuna qədər minnətdar olacağam.

Qəlbinizin zənginliyinə, alicənablığınıza, şəfqətinizə görə minnətdarlığımı və hisslərimin dərinliyini sözlə ifadə etmək mümkün deyil.

Sizin müdrik rəhbərliyinizə, vətənpərvərliyinizə və görkəmli siyasi xadim kimi yüksək zəkanıza heyranam.

Sizi bir daha təbrik edir, ən xoş arzularımı çatdırıram.

*Dərin hörmət və ehtiramla,*

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Belçika Krallığında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları adından doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Azərbaycan Respublikasının güclü rəhbəri kimi Sizə ölkənin davamlı inkişafında, suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmlənməsində əvəzolunmaz xidmətlərinizə görə minnətdarlığımızı bildirir, dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin təşəbbüslərinizlə Azərbaycanda və regionda həyata keçirilən nəhəng layihələr ölkənin gələcəyinə inamla baxmağa imkan yaradır və irəlidə bizi yeni mühüm nailiyyətlərin gözlədiyini deməyə əsas verir. Göstərdiyiniz əzmli fəaliyyət dünya azərbaycanlıları, o cümlədən Belçikada yaşayan soydaşlarımız üçün böyük qürur mənbəyidir.

Belçikadakı Azərbaycan diasporu ölkəmizin milli maraqlarının təbliği, mədəni irsimizin qorunması və Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəaliyyətini bundan sonra da birlik və həmrəylik ruhunda davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti missiyanızda yeni-yeni uğurlar və Azərbaycan xalqının rifahı naminə yorulmaz fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Rüfət ABASOV,***
***RADİOCTO - Avropada Azərbaycan Radiosu***
***Yasəmən ABBASİ,***
***BUTAM Azərbaycan Mədəniyyət Assosiasiyası***
***Eldar BAYRAMZADƏ,***
***İRS Azərbaycan Belçika Tələbə Assosiasiyası***
***Novruz ABDULLAYEV,***
***FİRELAND - Belçika Azərbaycanlıları Birliyi***
***Emin ƏLİYEV,***
***"MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platforması***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

"MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platforması adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, həyatınızda yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan güclü, müasir və beynəlxalq arenada söz sahibi olan bir dövlət kimi mühüm inkişaf mərhələsindən keçmişdir. Milli maraqların qətiyyətlə qorunması, ölkəmizin strateji mövqeyinin möhkəmləndirilməsi və xalqımızın birliyi naminə həyata keçirdiyiniz ardıcıl siyasət dünya azərbaycanlıları üçün qürur mənbəyidir.

MADANİ platforması olaraq biz Belçikada və Avropada yaşayan azərbaycanlıların birliyinin möhkəmləndirilməsini, mədəni və ictimai dəyərlərimizin təbliğini, gənclərin fəal və məsuliyyətli vətəndaş mövqeyinin gücləndirilməsini əsas məqsədimiz hesab edirik. Bu istiqamətdə fəaliyyətimizdə Azərbaycanın inkişafı və gələcəyi naminə müəyyənləşdirdiyiniz strateji xətt bizim üçün əsas istinad nöqtəsidir.

Bu xüsusi gündə MADANİ ailəsi adından Sizə bir daha səmimi təbriklərimizi çatdırır, minnətdarlığımızı bildirir və qarşıdakı illərdə yeni nailiyyətlər, daim sevinc dolu xoş günlər arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Emin ƏLİYEV və Aytən MƏMMƏDOVA,***
***Belçikada fəaliyyət göstərən "MADANİ - Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platformasının təsisçiləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Berlin şəhərində yerləşən “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Evinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası bütün sahələrdə davamlı inkişaf yolu keçmiş, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, Azərbaycan dilinə, mədəniyyətinə və incəsənətinə göstərilən yüksək diqqət və qayğı xalqımız tərəfindən daim minnətdarlıqla qarşılanır.

Xüsusilə xaricdə yaşayan azərbaycanlıların milli kimliyinin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən siyasət diaspor təşkilatlarının fəaliyyətinə güclü stimul verir. Biz Azərbaycan dilinin və mədəni irsinin yaşadılması və gələcək nəsillərə ötürülməsi yolunda fəaliyyətimizi bundan sonra da böyük məsuliyyətlə davam etdirəcəyik.

*Dərin hörmət və ehtiramla,*

***Sevda BADALİOURİ,***
***Berlində fəaliyyət göstərən “Xarı Bülbül” Azərbaycan Mədəniyyət Evinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi İspaniyada yaşayan azərbaycanlılar, eləcə də Barselonadakı Azərbaycanlılar Cəmiyyəti və Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyiniz altında Azərbaycan son illərdə mühüm tarixi nailiyyətlərə imza atmış, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirmişdir. Bu uğurlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün də böyük qürur və mənəvi dayaq mənbəyidir.

Xüsusilə vurğulamaq istərdik ki, Sizin diaspor siyasətiniz xaricdə yaşayan soydaşlarımızın milli kimliyinin qorunması, Azərbaycan mədəniyyətinin və həqiqətlərinin dünyada tanıdılması baxımından mühüm rol oynayır.

Biz, İspaniyada yaşayan azərbaycanlılar bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə, milli-mənəvi dəyərlərimizi yaşatmağa və Azərbaycan-İspaniya münasibətlərinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Qoy Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti daim güclənsin, xalqımız sülh, rifah və sabitlik şəraitində yaşasın!

*Dərin hörmət və ehtiramla,*

***Kərim KƏRİMOV,***
***Barselonadakı Azərbaycanlılar Cəmiyyətinin və Azərbaycan Evinin rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən dərin ehtiramımı ifadə edirəm.

Müasir dövrdə mürəkkəb qlobal çağırışların və dəyişkən geosiyasi proseslərin fonunda Sizin qətiyyətli, prinsipial və uzaqgörən siyasətiniz Azərbaycan dövlətinin milli maraqlarının etibarlı şəkildə qorunmasına, ölkəmizin beynəlxalq nüfuzunun davamlı olaraq möhkəmlənməsinə xidmət edir. Sizin rəhbərliyinizlə Azərbaycan güclü, müstəqil və öz sözünü deyən bir dövlət kimi dünya birliyində layiqli yerini daha da möhkəmləndirmişdir.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttini müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirərək, Siz ölkəmizin sosial-iqtisadi potensialının gücləndirilməsi, əhalinin rifahının yüksəldilməsi, milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirirsiniz. Bu siyasətin nəticələri bu gün həm ölkə daxilində, həm də beynəlxalq aləmdə aydın şəkildə görünməkdədir.

Xaricdə yaşayan azərbaycanlılarla bağlı apardığınız siyasət xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin diasporla bağlı strateji xətti sayəsində dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız Azərbaycan ətrafında daha sıx birləşmiş, milli maraqlarımızın müdafiəsində fəal mövqe tutmuşlar. Finlandiyada fəaliyyət göstərən Helsinki Azərbaycan Evi də bu istiqamətdə dövlət siyasətinə uyğun olaraq Azərbaycan mədəniyyətinin, tarixinin və müasir reallıqlarının tanıdılması naminə ardıcıl iş aparır. Bu fəaliyyətlərdə Sizin müəyyən etdiyiniz milli birlik və dövlətçilik prinsipləri əsas rəhbər tutulur.

Sizin yüksək siyasi mədəniyyətiniz, zəngin dövlətçilik təcrübəniz, prinsipial mövqeyiniz və Vətənə bağlılığınız Azərbaycan xalqının Sizə olan böyük etimadının əsasını təşkil edir. Qürurverici haldır ki, bu etimad ölkəmizin qazandığı uğurlarda, əldə olunan nailiyyətlərdə öz parlaq əksini tapır.

Zati-aliləri, əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan dövləti bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolunda inamla irəliləyəcək, xalqımız yeni nailiyyətlərin sevincini yaşayacaqdır.

Doğum gününüz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Ülviyyə CABBAROVA,***
***Helsinki Azərbaycan Evinin və Azərbaycan-Türk Gənclər Təşkilatının rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası mühüm tarixi uğurlara imza atmış, dövlət suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş, beynəlxalq aləmdə nüfuzunu daha da artırmışdır. Bu nailiyyətlər xaricdə yaşayan azərbaycanlılar üçün böyük qürur mənbəyi və mənəvi dayaqdır.

Sizin ardıcıl diaspor siyasətiniz soydaşlarımızın milli kimliyinin qorunması, Azərbaycan mədəniyyətinin dünyada təbliği və həqiqətlərinin tanıdılması baxımından xüsusi əhəmiyyətə malikdir. Biz də İsveçdə yaşayan azərbaycanlılar olaraq, bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə və Azərbaycan-İsveç münasibətlərinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə uzun ömür, cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayırıq. Qoy Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti daim güclənsin, xalqımız hər zaman sülh və firavanlıq şəraitində yaşasın!

*İsveçdə yaşayan azərbaycanlılar adından dərin hörmətlə,*

***Ülviyyə NƏCƏFOVA,***
***İsveç Azərbaycanlıları Koordinasiya Şurasının Yöteborq şəhəri üzrə koordinatoru və Azərbaycan Qarabağ Mərkəzinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə Polşada yaşayan azərbaycanlılar adından səmimi təbriklərimizi və dərin ehtiramımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan müasir tarixinin ən həlledici və şərəfli mərhələsini yaşamış, milli iradə, siyasi uzaqgörənlik və güclü dövlətçilik modeli formalaşdırılmışdır. Qlobal çağırışların artdığı bir dövrdə Azərbaycanın müstəqil mövqeyinin qorunması, milli maraqlarının qətiyyətlə müdafiə edilməsi və ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi Sizin liderliyinizin bariz nəticəsidir.

Siz yalnız ölkə daxilində deyil, xaricdə yaşayan milyonlarla azərbaycanlının da inam və ümid mənbəyisiniz. Biz, Polşada yaşayan azərbaycanlılar respublikamızın qazandığı hər uğuru, atdığı hər strateji addımı qürur hissi ilə izləyir, bu uğurları yaşadığımız ölkədə layiqincə təmsil etməyə çalışırıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq. İnanırıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan daha böyük zirvələr fəth edəcək, sülhün, inkişafın və ədalətin güclü tərəfdarı kimi öz yolunda inamla irəliləməkdə davam edəcəkdir.

*Hörmətlə,*

***Sedat ŞAMİLLİ,***
***Polşada fəaliyyət göstərən "Xarı Bülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Portuqaliya Respublikasında yaşayan Azərbaycan icması adından səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımızı çatdırırıq.

Sizin müdrik və prinsipial rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası son illər ərzində böyük inkişaf yolu keçmiş, beynəlxalq aləmdə nüfuzunu əhəmiyyətli dərəcədə artırmışdır. Dövlətimizin güclənməsi, milli maraqlarımızın qətiyyətlə qorunması və xalqımızın rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl və məqsədyönlü siyasət hər bir azərbaycanlıda böyük iftixar hissi doğurur.

Xaricdə yaşayan soydaşlarımız, o cümlədən Portuqaliyadakı Azərbaycan icması Sizin diaspor fəaliyyətinin inkişafına göstərdiyiniz xüsusi diqqət və qayğını daim hiss edir, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bu etimadı layiqincə doğrultmağa çalışır.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və Azərbaycan xalqının daha firavan gələcəyi naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Milana SEYİDZADƏ,***
***Portuqaliyada yaşayan Azərbaycan icmasının koordinatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir və zati-alinizə ən xoş arzularımı bildirirəm.

Bəzən elə şəxsiyyətlər olur ki, onların misilsiz dərəcədə böyük əhəmiyyəti təkcə öz ölkəsinin tarixində deyil, ədalətli bir dünyanın formalaşmasında da hiss olunur. Zamanla onlar insanın daxili dünyasının ayrılmaz hissəsinə çevrilirlər. Onlara sadəcə heyran qalınmır və onlarla təkcə qürur duyulmur, onları həqiqətən dəyərli və doğma bilirlər.

Cənab Prezident, Sizin həyat yolunuz təkcə dövlət məsuliyyəti deyil.

Bu yol xalqın etimadı, ümidləri, tarixi və gələcəyidir, onun sevgisidir. Bu, çox ağır, eyni zamanda çox qiymətli bir yükdür və Siz bu yükü böyük ləyaqətlə daşıyırsınız.

Bu gün Sizə ad günü təbriki çatdırmaqla yanaşı, həm də səmimi minnətdarlığımı bildirmək istəyirəm - verdiyiniz dayaq hissinə, sabaha olan əminliyə və ədalətin qalib gələcəyinə olan inanca görə.

Həmişə sağlam olun və Sizi ürəkdən sevən xalqınızın yanında olun.

Ad gününüz mübarək, əziz Prezident!

*Hörmətlə,*

***Leyla Begim CƏFƏROVA,***
***Praqada yerləşən Azərbaycan Mədəniyyət Evinin rəhbəri, Natəvan Cəmiyyətinin sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Çex Yazıçılar Birliyinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Çexiyada yaşayan Azərbaycan icması adından səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Sizin rəhbərliyiniz altında Azərbaycan dövləti davamlı inkişaf yolu ilə irəliləyir, beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirir. Xaricdə yaşayan azərbaycanlılar olaraq biz də bu uğurlarla qürur duyur, Vətənimizlə bağlı hər bir nailiyyəti böyük sevinc hissi ilə qarşılayırıq.

Ulu Öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı kimi həyata keçirdiyiniz məqsədyönlü siyasət Azərbaycan xalqının rifahına, ölkəmizin güclənməsinə və gələcək nəsillərin firavan sabahına xidmət edir.

Bu əlamətdar gün münasibətilə Sizə ən xoş arzularımızı yetirir, Azərbaycan dövlətinə və xalqına bundan sonra da böyük nailiyyətlər diləyirik.

*Hörmətlə,*

***Fərid ƏMİRƏLİYEV,***
***Çexiyada fəaliyyət göstərən "Land of Fire" Cəmiyyətinin təsisçisi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Azərbaycan Türk Mədəniyyəti Assosiasiyası adından səmimi-qəlbdən, dərin hörmət və ehtiramla təbrik edirik.

Sizin müdrik, uzaqgörən və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə hərtərəfli inkişaf yolu keçmiş, dövlət müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin siyasi, iqtisadi və sosial sahələrdə qazandığı uğurlar beynəlxalq miqyasda yüksək dəyərləndirilmişdir. Azərbaycan Respublikasının beynəlxalq arenada artan nüfuzu, milli maraqlarımızın qətiyyətlə qorunması və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi Sizin uğurlu siyasi kursunuzun bariz göstəricisidir.

Xüsusilə qeyd etmək istərdik ki, Sizin rəhbərliyinizlə əldə olunan tarixi nailiyyətlər, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi Azərbaycan xalqının milli qürurunun və birliyinin təcəssümünə çevrilmişdir. Bu böyük uğurlar hər bir azərbaycanlının qəlbində dərin fəxarət hissi doğurur və gələcək nəsillər üçün möhkəm təməl yaradır.

Bu əlamətdar və sevincli gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə daim müvəffəqiyyətlər, Azərbaycan dövlətinin daha da güclənməsi, xalqımızın rifahının yüksəldilməsi naminə həyata keçirdiyiniz bütün təşəbbüslərdə yeni-yeni uğurlar arzulayırıq.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycan Respublikasının davamlı inkişaf yolunda daha böyük zirvələr fəth edəcəyinə dərin inamımızı ifadə edirik.

*Hörmətlə,*

***Taleh QURBANOV,***
***Sloveniyada fəaliyyət göstərən Azərbaycan Türk Mədəniyyəti Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Lüksemburq Azərbaycan Dostluq Assosiasiyası və Lüksemburqda yaşayan azərbaycanlı həmvətənlərimiz adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə dərin ehtiramımızı ifadə edirik.

Sizin uzun illər ərzində Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyiniz xidmətlər danılmaz və əvəzolunmazdır. Uzaqgörən və qətiyyətli rəhbərliyiniz altında Azərbaycan güclü dövlətçilik ənənələrini möhkəmləndirmiş, beynəlxalq arenada etibarlı və nüfuzlu tərəfdaş kimi tanınmış, iqtisadi inkişaf və sosial rifah sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Ali Baş Komandan kimi göstərdiyiniz misilsiz siyasi iradə, əzm və liderlik sayəsində torpaqlarımızın işğaldan azad olunması Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri kimi yaddaşlara həkk olunmuşdur. Bu tarixi Zəfər Sizin adınızı müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazmış, xalqımızın qürur mənbəyinə çevrilmişdir.

Zati-alinizin fəaliyyəti nəticəsində Azərbaycan bu gün güclü, müstəqil və gələcəyə inamla addımlayan bir dövlətdir. Sizin dövlətçilik fəlsəfəniz, milli maraqlara söykənən siyasətiniz və prinsipial mövqeyiniz həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə yüksək qiymətləndirilir və xalqımızın Sizə olan sevgi və etimadını daha da möhkəmləndirir.

Bu əlamətdar gün münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, ali dövlətçilik fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan Respublikasına isə davamlı inkişaf, rifah və firavanlıq arzulayırıq.

*Ən yüksək ehtiramla,*

***Seymur ƏHMƏDOV,***
***Lüksemburq Azərbaycan Dostluq Assosiasiyasının sədri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Ukraynada yaşayan azərbaycanlılar və diaspor təşkilatları adından Sizi doğum gününüz münasibətilə dərin ehtiramla təbrik edir, zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycan dövlətinin daha böyük zirvələr fəth etməsi naminə ali missiyanızda davamlı uğurlar arzulayırıq.

Sizin uzaqgörən rəhbərliyiniz, qətiyyətli siyasi iradəniz və milli maraqlara söykənən strateji xəttiniz sayəsində Azərbaycan beynəlxalq müstəvidə nüfuzunu gücləndirən, iqtisadi və sosial inkişafını ardıcıl təmin edən, öz sözünü inamla deyən müasir dövlət kimi tanınır. Bu uğurlar dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün güvən, qürur mənbəyi və birliyə çağırışdır.

Ukraynada fəaliyyət göstərən diasporumuz da Azərbaycançılıq ideyasına sadiq qalaraq milli-mənəvi dəyərlərimizi yaşatmaq, ölkəmizin haqq səsini çatdırmaq və Azərbaycan-Ukrayna dostluq münasibətlərinin möhkəmlənməsinə töhfə vermək istiqamətində səylərini davam etdirir.

Eyni zamanda Sizi və bütün xalqımızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, bu əlamətdar günün hər bir azərbaycanlının qəlbində milli birliyi daha da möhkəmləndirməsini diləyirik.

Qarşıdan gələn Yeni ilin ölkəmizə sülh, sabitlik, tərəqqi, ailələrimizə firavanlıq və sevinc gətirməsini arzu edirik.

*Dərin hörmət və ehtiramla,*

***Cəlil ASTANOV,***
***Ukraynanın Odessa vilayətindəki "Birlik" diaspor təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Doğum gününüz münasibətilə Sizi QALA Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti adından səmimi-qəlbdən, dərin hörmət və ehtiramla təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, rifah, davamlı uğurlar arzulayıram. Fəaliyyətinizin hər anı müstəqil Azərbaycanımızın daha da güclənməsi, rifahı və gözəlləşməsi yolunda atılan addımdır.

Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə ölkəmizin hər sahədə qazandığı tarixi nailiyyətlər, xüsusilə Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyiniz dəmir iradə və sarsılmaz əzmkarlıq hər bir vətəndaşımız üçün qürur mənbəyidir. Xalqa xidmətiniz, dövlətçilik məfkurəsinə sədaqətiniz xüsusilə təqdirəlayiqdir.

Bu əlamətdar gündə Sizi bir daha ürəkdən təbrik edir, Azərbaycanın əzəmətli inkişafı yolunda yeni parlaq səhifələr yazmağınızı diləyirəm. Sizinlə fəxr edirik, uğurlarınıza ürəkdən sevinirik.

*Hörmətlə,*

***Rəşid MƏMMƏDOV,***
***QALA Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə "Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri adından ürəkdən təbrik edirik.

Biz, Küveytdə yaşayan azərbaycanlılar Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik, Sizin kimi Prezidentimizin olması ilə fəxr edirik.

Siz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olaraq bir çağırışınızla bütün Azərbaycan xalqını, xüsusilə də gəncləri Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizədə tək bayraq altında birləşdirən və "dəmir yumruğ"a çevirən, tarix yazan böyük Lider, qüdrətli sərkərdəsiniz.

Cənab Prezident, bu gün Siz dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilmisiniz. Fürsətdən istifadə edərək Sizi və ailə üzvlərinizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

Sizə uzun ömür, cansağlığı, əzmkar fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Allah Sizi və ailənizi qorusun!

*Hörmətə,*

***Könül HACIZADƏ,***
***"Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri***

# Baş nazir Əli Əsədov Türkiyə Diyanət İşləri İdarəsinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 24-də Türkiyə Respublikası Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə S.Arpaquşun Bakıda keçirilən Azərbaycan Din Xadimlərinin II Forumunda iştirakının əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında dini sahədə əməkdaşlığa toxunularaq qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinin, təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyəti qeyd edilib, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iştirak edib.

## Yerli icra hakimiyyəti başçılarının tabeliyində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 408** **Bakı şəhəri, 22 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Yerli icra hakimiyyəti başçısının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur)*.

2. Şəhər İcra Hakimiyyəti (Bakı şəhəri və Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri istisna olmaqla) başçılarının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin (əlavə olunur).

3. Rayon İcra Hakimiyyəti (Laçın, Cəbrayıl, Xocavənd, Xocalı, Kəlbəcər, Qubadlı rayonları və Naxçıvan Muxtar Respublikasının Şərur, Şahbuz, Culfa, Babək, Ordubad, Kəngərli və Sədərək rayonları istisna olmaqla) başçılarının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin *(əlavə olunur)*.

4. Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin *(əlavə olunur)*.

5. Naxçıvan Muxtar Respublikasının Rayon İcra Hakimiyyəti başçılarının tabeliyində Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nümunəvi strukturu və ştat vahidləri təsdiq edilsin *(əlavə olunur)*.

6. Müəyyən edilsin ki, Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nizamnamə kapitalı yerli icra hakimiyyəti başçılarının tabeliyində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən qurumların əmlakı hesabına formalaşır.

7. Yerli icra hakimiyyəti (Bakı şəhəri, Laçın, Cəbrayıl, Xocavənd, Xocalı, Kəlbəcər və Qubadlı rayonları istisna olmaqla) orqanları altı ay müddətində:

7.1. aidiyyəti üzrə tabeliklərində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin əsasında məhdud məsuliyyətli cəmiyyət statusunda vahid Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin (bundan sonra - Mənzil-kommunal Təsərrüfatı Müəssisəsi) yaradılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

7.2. Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin nizamnaməsinin bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan Nümunəvi Nizamnaməyə uyğun olaraq hazırlanmasını təmin etsinlər və müvafiq qaydada təsdiq edilməsi üçün zəruri tədbirlər görsünlər;

7.3. Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin strukturunu və ştat vahidlərini bu Qərarın 2-5-ci hissələri nəzərə alınmaqla təsdiq edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər;

7.4. aidiyyəti üzrə tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin işçilərinin aylıq vəzifə maaşlarının məbləğini dövlət büdcəsindən maliyyələşdirilən sahələr üçün müəyyən edilən Vahid Tarif Cədvəlinə uyğun müəyyən etsinlər;

7.5. aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) publik hüquqi şəxsin informasiya ehtiyatlarının və sistemlərinin imkanlarından istifadə etməklə respublikanın rayon və şəhər ərazilərində müntəzəm sanitar təmizlik aparılan sahələrin və xidmət göstərilən yaşıllaşdırma sahələrinin həcmini müəyyən edərək müvafiq məlumatların Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

7.6. bu Qərardan irəli gələn digər məsələləri həll etsinlər.

8. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 410** **Bakı şəhəri, 24 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111 (Cild I); 2025, № 4 (II kitab), maddə 415, № 9, maddə 855) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "Respublikasının xarici ölkədəki" sözləri "Respublikası" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

3. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında "Respublikasının xarici ölkədəki" sözləri "Respublikası" sözü ilə əvəz edilsin;

3.2. 1.1-ci bənddə "Respublikasının xarici dövlətdəki" sözləri "Respublikası" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi"

**Dekabrın 24-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən Nəsimi rayon təşkilatı ilə birgə "Milli Konstitusiyadan mütləq suverenliyə: Heydər Əliyev dühasının İlham Əliyev zirvəsi" mövzusunda tədbir keçirilib.**






Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu əlamətdar gündə keçirilən tədbirin mövzusunun çağdaş tariximizin möhtəşəm dövrü ilə həmahəng olduğunu bildirib: "Çünki günümüzün reallığı budur ki, dünyada bir çox ölkə mühüm resurslara - əlverişli coğrafi mövqeyə, təbii sərvətlərə, böyük iqtisadi və demoqrafik potensiala sahib olsalar da, öz siyasətlərini milli maraqlara uyğun həyata keçirə bilmirlər. Müasir Azərbaycanın nümunəsi isə təsdiqləyir ki, məhz zəngin dövlətçilik təcrübəsinə, xalqın birmənalı və qətiyyətli dəstəyinə malik lideri olan ölkələr milli mənafelərə əsaslanan siyasət vasitəsilə davamlı inkişafı təmin edir və beynəlxalq aləmdə nüfuz sahibi olurlar. Çoxəsrlik dövlətçilik tarixinə malik Azərbaycan mürəkkəb sosial-iqtisadi və geosiyasi vəziyyətə baxmayaraq, müstəqilliyin bərpasından sonra yüksəlişini təmin edə, dünyada nüfuzlu dövlət kimi tanına bilmişdir. Bu, birmənalı olaraq Heydər Əliyev dühası və Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olmuşdur. Ümumxalq etimadını doğruldan dahi liderlərin uğurlu siyasəti nəticəsində sabitlik və tərəqqi yoluna qədəm qoymuş Azərbaycanın adı bu gün qüdrətli və qalib dövlətlər sırasında çəkilir".

Tahir Budaqovun sözlərinə görə, inkaredilməz həqiqətdir ki, müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində Azərbaycan naminə çalışaraq xalqın işıqlı gələcəyini təmin edən əvəzsiz işlər görmüşdür: "1993-cü ildə xalqın israrlı tələbi ilə respublikamızda yenidən hakimiyyətə qayıdan Ulu Öndərin dövrün çağırışlarına cavab verən siyasəti nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm faktorlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etmişdir. Bir sözlə, müstəqillik dövründə Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1993-2003-cü illər əldə etdiyimiz möhtəşəm qələbələrin təmini üçün möhkəm təməllərin yaradılmasını şərtləndirmişdir".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu kontekstdə müasir dövlətçilik tariximizdə müstəsna yerə və rola malik - taleyüklü önəm daşıyan siyasi varisliyin təmin olunmasını xüsusi qeyd etmək lazımdır: "Azərbaycan xalqının böyük etimadı əsasında ölkə Prezidenti seçilərək dövlət başçısı kimi fəaliyyətə başladığı zaman öz missiyasını "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" - tezisi ilə ifadə edən cənab İlham Əliyev Heydər Əliyev yoluna sadiqliyini sübuta yetirmişdir. Bu gün inamla və iftixarla söyləyirik ki, Ulu Öndərin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda addımlayan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmişdir. Dövlət başçısının qeyd etdiyi kimi: "Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Tahir Budaqov əlavə edib ki, Prezident İlham Əliyevin tərəqqi və Zəfərə hədəflənən məqsədyönlü siyasəti sayəsində iqtisadi gücü artan, modern ordu quruculuğuna nail olan, regionda lider dövlətə çevrilən və qlobal təsir imkanları genişlənən Azərbaycanın bütün cəbhələrdə - hərb meydanında, beynəlxalq informasiya platformasında və diplomatiya müstəvisində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin - ərazi bütövlüyü və mütləq suverenliyin bərpasına müvəffəq olması xalqımızın şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsidir: "Azərbaycanın son illərdə əldə etdiyi tarixi nailiyyətlər fonunda nəinki regionda, daha geniş coğrafiyada təşəkkül tapmış yeni reallıqlar ictimai-siyasi sabitliyin və milli birliyin möhkəmləndirilməsini, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını, ölkənin beynəlxalq mövqeyinin daha da gücləndirilməsini zəruri edir. Dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası da yeni dövrün çağırışlarından irəli gələrək suveren Azərbaycanın milli maraqlarının təmini üçün öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək əzmindədir. Ulu Öndərimizin tükənməz siyasi irsinə sonsuz ehtiram və sədaqət nümayiş etdirməklə möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan naminə çalışmaq hamımızın ümdə vəzifəsidir. Fürsətdən istifadə edərək hər birimizin adından partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı və ölkəmizin firavanlığı naminə şərəfli fəaliyyətində davamlı uğurlar arzulayıram. Şübhə yoxdur ki, dövlət başçısının rəhbərliyi ilə görülən işlər ölkəmizə bundan sonra da yeni müvəffəqiyyətlər qazandıracaq, tarixi dəyərlərlə müasir reallıqların vəhdətinə əsaslanan, azərbaycançılıq ideologiyasına və dövlətçilik ideyasına söykənən Heydər Əliyev siyasəti Azərbaycana növbəti qələbələri bəxş edəcəkdir. Yaşasın Heydər Əliyev dühasının xalqımıza ən böyük mənəvi-siyasi mirası olan müstəqil Azərbaycan dövləti! Eşq olsun Azərbaycanı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə!"

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 2003-cü ildə cənab İlham Əliyev haqqında "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirlərini xatırladıb. Beş il əvvəl Müzəffər Lider İlham Əliyevin "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!" sözlərini fəxarətlə ifadə etdiyini vurğulayan Kamal Abdulla bildirib ki, Azərbaycan xalqının belə böyük bir sərkərdə və Prezidentinin olması qürurvericidir: "Biz ordumuzla, qalib əsgərlərimizlə, şəhidlərimizlə, qazilərimizlə, arxa cəbhədə bir yumruq kimi Azərbaycanın adını yüksəldən vətəndaşlarımızla fəxr edirik".

Rektor vurğulayıb ki, bütün dünya Azərbaycan xalqının mədəniyyəti, intellektual səviyyəsi, döyüş bacarığı və diplomatik gücünə şahid oldu: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına tarix boyu göstərilən xidmətlərdən ən möhtəşəmini həyata keçirdi. Millətimiz bunu heç zaman unutmayacaq və cənab Prezidentin ideallarını Vətən bayrağı kimi daim uca tutacaqdır. Möhtərəm Prezidentimiz Vətənin işıqlı gələcəyə gedən yolunda cəsur əsgər, müzəffər sərkərdə, ləyaqətli Prezident, vəfalı oğul və qədirbilən ata kimi Zəfərdən-Zəfərə addımladı, bizi də məğrur, başıdik, alnıaçıq insanlar kimi arxasınca apardı. Prezident İlham Əliyevlə birlikdə bu yolu getmək qürurlu və şərəflidir".

"Prezident İlham Əliyev daim qeyd edir ki, multikulturalizm ölkəmizdə özünəməxsus həyat tərzinə çevrilib. Müasir dövrdə Heydər Əliyev idealları etibarlı, münbit zəmində inkişaf etdirilir. Bunun müəllifi Ümummilli Liderin siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, qalib Ali Baş Komandan İlham Əliyevdir. Ulu Öndərin ideyalarını və irsini mükəmməl mənimsəyən, onların həyata keçirilməsində yeni uğurlar qazanan Prezident İlham Əliyev çağdaş zamanımızda multikultural dəyərlərin himayəçisi kimi çıxış edir. Azsaylı xalqların, dini konfessiyaların hüquqlarının qorunmasında, mədəni müxtəlifliyin saxlanılmasında, Azərbaycanın multikultural həqiqətlərinin qlobal miqyasda təqdim olunmasında Prezident İlham Əliyevin cahanşümul fəaliyyəti göz önündədir", - deyə Xalq yazıçısı əlavə edib.

Şəhid Ruslan Cəfərovun anası Alimə Cəfərova belə bir mötəbər tədbirdə çıxış etməyin onun üçün həm şərəf, həm də böyük məsuliyyət olduğunu bildirib: "Azərbaycanın bugünkü qürurlu, suveren və qalib ölkə reallığı təsadüfi deyil. Bu yolun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər bizə təkcə müstəqil dövlət yox, mütərəqqi Konstitusiya, milli kimlik və sarsılmaz dövlətçilik ideologiyası miras qoyub. O Konstitusiya ki, bu gün hər bir Azərbaycan vətəndaşının hüququnun, ləyaqətinin və azadlığının təminatıdır. Bir ana olaraq deyirəm ki, övladım Vətən naminə, Heydər Əliyevin qurduğu dövlətin, İlham Əliyevin qoruduğu suverenliyin uğrunda canından keçdi. Bu, hər bir şəhid anasının ağrısını qürura çevirən ən böyük həqiqətdir".

Alimə Cəfərova vurğulayıb ki, Heydər Əliyev ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfəri təmin etdi: "44 günlük Vətən müharibəsi və birgünlük antiterror əməliyyatı göstərdi ki, ölkəmizin Konstitusiyası real həyatda - döyüş meydanında, siyasi masada, beynəlxalq hüquqda öz sözünü deyir. Fəxrlə ifadə edirik ki, şəhidlərimizin qanı yerdə qalmadı. Onların qanı müstəqilliyimizin möhürü, suverenliyimizin imzası oldu. Bu gün üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalanırsa, bu, Heydər Əliyev uzaqgörənliyinin və İlham Əliyev qətiyyətinin nəticəsidir. "Konstitusiya və Suverenlik İli" bizim üçün təkcə təqvim ili deyil. Bu il xalqımız üçün milli qürur ilidir. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı sübut edir ki, Azərbaycan öz qəhrəmanlarını unutmur. Oğlum Ruslan Cəfərov qalib xalqın şəhididir. İnanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da güclənəcək, şəhidlərimizin ruhu daim şad olacaq. Dövlətimizin başçısına bir şəhid anası kimi təşəkkür edirəm. Yaşasın müstəqil, suveren və qalib Azərbaycan!"

Daha sonra çıxış edən Vətən müharibəsi iştirakçısı, qazi Rüfət Salmanov deyib: "Bu gün bu tribunada təkcə bir qazi kimi yox, həm də Azərbaycan Ordusunun bir əsgəri, qalib xalqın nümayəndəsi olaraq çıxış etmək mənim üçün böyük şərəfdir. Milli Konstitusiyadan mütləq suverenliyə aparan yolun canlı şahidi və iştirakçısı olmaq taleyin bizə verdiyi böyük məsuliyyətdir. Biz döyüşə gedəndə bir amalımız vardı: dövlətimizin suverenliyini tam bərpa etmək. Biz bilirdik ki, arxamızda Ulu Öndər Heydər Əliyevin qurduğu güclü dövlət, önümüzdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi dayanır. Bu inam bizi məğlubedilməz etdi".

R.Salmanov bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır: "O, Konstitusiya ilə xalq-dövlət-ordu birliyinin əsasını qoydu. Biz Vətən müharibəsində həmin Konstitusiyanın canlı qüvvəsi olduq. Döyüş meydanında hər addımda hiss edirdik ki, bu mübarizə haqq işidir, beynəlxalq hüquqa, milli iradəyə və Konstitusiyaya söykənir. Prezident İlham Əliyev bu irsi zirvəyə daşıdı. Ali Baş Komandan kimi verdiyi hər qərar, göstərdiyi qətiyyət orduda ruh yüksəkliyi yaratdı. Biz bilirdik ki, bu savaşın sonunda mütləq qələbə olacaq. Çünki bu, sadəcə hərbi əməliyyat deyil, suverenlik mübarizəsi idi. Qazi kimi fəxrlə deyirəm ki, Azərbaycan əsgəri yalnız əzəli torpaqları üçün yox, həm də dövlət, bayraq, Konstitusiya üçün döyüşdü. Bu gün Azərbaycanın tam suverenliyi reallıqdırsa, bu, Ümummilli Lider Heydər Əliyev ideyalarının Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilməsinin nəticəsidir. "Konstitusiya və Suverenlik İli" bizim üçün döyüş yolunun siyasi davamıdır. Bu fakt sübut edir ki, Azərbaycan artıq öz taleyinin tam sahibidir. Ordusu güclü, xalqı həmrəy, Lideri qətiyyətli olan dövlət heç vaxt yolundan dönməz".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

# Hər zaman xalqının yanında

## Prezident İlham Əliyev doğum gününü Qarabağda qeyd etdi

**Regionların inkişafı ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi strategiyanın mühüm tərkib hissəsidir. Bölgələrin inkişafı sahəsində uğurla reallaşdırılan Dövlət proqramları ölkədə qeyri-neft sektorunun dinamik inkişafına, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına təkan verib.**

Bölgələrin sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və regionların təkmil konsepsiyasının icra vəziyyəti ilə bağlı xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında əksini tapmış vacib istiqamət insan amilinə xidmət etməklə yeni sosial-infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə, aqrar və idman müəssisələrinin tikintisini, yeni yolların çəkilişi və əsaslı bərpasını nəzərdə tutur.

Otuz ildən sonra işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur bu gün yeni həyatın, quruculuğun və davamlı inkişafın mərkəzinə çevrilib. Tarixi Zəfərimizin yaratdığı imkanlar sayəsində Böyük qayıdış prosesi mərhələli şəkildə həyata keçirilir, doğma torpaqlara qayıdan hər bir vətəndaş üçün müasir və layiqli yaşayış şəraiti yaradılır. Prezident İlham Əliyevin rəhbərliyilə aparılan bərpa-quruculuq işləri bu bölgələri sürətlə canlandırır, onları Azərbaycanın sosial, iqtisadi və mədəni həyatının fəal tərkib hissəsinə çevirir.

Bu gün dövlət siyasətinin əsas hədəflərindən biri kimi Qarabağ və Şərqi Zəngəzurun bərpası strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə həyata keçirilən genişmiqyaslı işlərin hüquqi və praktiki bazasını isə Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Böyük Qayıdışa dair I Dövlət Proqramı" təşkil edir. Sözügedən proqram Azərbaycanın 2030-cu ilə qədər olan inkişaf strategiyasında müəyyən edilmiş beş milli prioritetdən biri kimi Böyük qayıdış prosesinə əsaslı və planlı yanaşmanı təmin edir. Artıq bu sənədin icrası nəticəsində nəzərdə tutulan tədbirlər ardıcıl və sürətli şəkildə reallaşdırılır.

Azərbaycan, Böyük qayıdış prosesini tamamilə öz daxili resursları və maliyyə imkanları hesabına həyata keçirərək nümunəvi bir model ortaya qoyur. Dövlət siyasətində prioritet kimi müəyyən olunan işğaldan azad edilmiş ərazilərin bərpası, bölgənin yenidən dirçəldilməsi və sabit əhali həyatının təmin edilməsi məqsədilə böyük maliyyə və intellektual resurslar səfərbər olunub. Nəticə etibarilə bu gün Qarabağ və Şərqi Zəngəzurda şəhərlər və kəndlər yenidən qurulur, müasir infrastruktur yaradılır, yollar, enerji xətləri, su təchizatı sistemləri sıfırdan inşa olunur. Ölkəmizin heç bir xarici dəstəyə ehtiyac duymadan bu qədər genişmiqyaslı layihələri gerçəkləşdirməsi həm iqtisadi müstəqilliyin, həm də siyasi iradənin göstəricisidir. Ermənistanın dağıtdığı mədəni, dini və tarixi irsimiz bərpa olunur, yeni təhsil, səhiyyə, mədəniyyət və sosial obyektlər tikilir. Bütün bunlar onu deməyə əsas verir ki, qısa zamanda həyata keçirilən bu layihələr Azərbaycanın milli gücünü, dövlət başçısının siyasi qətiyyətini və xalqın iradəsini əks etdirir.

İşğaldan azad olunmuş ərazilərdə enerji və sənaye infrastrukturunun bərpası Azərbaycanın bu bölgələrdə iqtisadi canlanmanı hədəfləyən sistemli siyasətinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu proses çərçivəsində bölgələrin "yaşıl enerji" zonasına çevrilməsi prioritet istiqamət kimi müəyyən edilib.

Gələn il dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərə nə qədər vəsaitin ayrılacağı məlumdur. Bu, Azərbaycan Respublikasının 2026-cı il üzrə büdcəsində qeyd olunub. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2026-cı ilin dövlət büdcəsində 3,5 milyon manat məbləğində vəsait nəzərdə tutulub.

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyev adətən doğum günündə sosial obyektlərin açılışında iştirak edir, keçmiş məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. Dövlət başçısı sevincini bu təbəqədən olan soydaşlarımızla paylaşır.

14 il öncə, 2011-ci il dekabrın 24-də 50 illik yubileyini Ağcabədi rayonunda Taxtakörpü qəsəbəsində məskunlaşmış Laçından olan məcburi köçkün ailələrlə görüşən Prezident İlham Əliyev doğum gününü onlarla birlikdə qeyd etmişdi. Həmin görüşdə Prezident vurğulamışdır ki, gün gələcək bu sevinc hissini Qarabağda yaşayacaq: "Mən sizin öz evlərinizə qayıtmağınız üçün çalışıram və əmin olun ki, bu baş tutacaq".

O tarixdən artıq 14 il keçir. Ötən bu müddət ərzində Azərbaycanın da, Prezidentin də, onunla görüşən məcburi köçkünlərin də statusu dəyişib. İndi cənab İlham Əliyev ərazi bütövlüyünü bərpa etmiş qalib ölkənin Prezidentidir, onunla görüşən Laçın sakinləri isə artıq məcburi köçkün deyillər.

Bu dəfə doğum gününü isə Prezident Xankədi və Ağdam sakinləri ilə birgə qeyd edib. Dövlət başçısı dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində oldu. Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də də bu qəsəbədə olub.

Dəniz səviyyəsindən 1130 metr hündürlükdə yerləşən və ümumi sahəsi 234 hektar olan Kərkicahan Xankəndi şəhər ərazi vahidində qəsəbədir. 1960-cı illərdə keçmiş vilayətin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb Xankəndi şəhərinə birləşdirmişdilər. 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılmışdı. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Ümumiyyətlə, Prezidentin Ağdam və Xankəndiyə səfərləri bir sıra mühüm obyektlərin açılışı, yenilərinin təməlinin qoyulması ilə yadda qaldı.

Belə ki, Kərkicahan qəsəbəsində 1 nömrəli tam orta məktəbin binası əsaslı təmirdən sonra istifadəyə verildi, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışı oldu, "Xankəndi-1" elektrik yarımstansiyası istismara verildi, Prezident İlham Əliyev Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşdü.

Xocalının Ballıca kəndində ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsi açılıb. Prezident Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub, Ağdamda metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında və Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin istifadəyə verilmə mərasimində iştirak edib.

Dekabrın 24-də Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının açılışında və Ağdamda 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb.

Xatırladaq ki, dövlətimizin başçısı bu kompleksin təməlini 2023-cü ildə qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin fevralında kompleksdə görülən tikinti işlərinin gedişi ilə tanış olublar.

Qarabağın və Şərqi Zəngəzurun bərpasında əsas prinsip müasir standartlara uyğun yaşayış məntəqələrinin qurulması ilə keçmiş məcburi köçkünlərin rahat yaşayışını təmin etməkdən ibarətdir. İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir, məşğulluğun təmin olunması üçün sənaye parkları, müxtəlif istehsal müəssisələri, xidmət sahələri yaradılır. Bütün bu tədbirlər onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzur qısa müddətdə dirçələcək, burada sürətli inkişaf mərhələsi başlayacaq. Bu həm də onu göstərir ki, Prezident daim xalqının yanındadır. Vətəndaşların rifahının yüksəlməsi, qayğısı, problemlərinin həlli dövlət başçısının siyasətinin əsas xəttidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Leyla Əliyeva Mərkəzi Nəbatat bağında uşaqlar üçün təşkil olunan tədbirdə iştirak edib

**Dekabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Mərkəzi Nəbatat bağında uşaqlar üçün bayram şənliyi təşkil olunub.**







AZƏRTAC xəbər verir ki, tədbir Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə internat evlərində yaşayan azyaşlılar üçün keçirilib. Bayram proqramı çərçivəsində balacalar üçün əyləncəli tədbirlər, oyunlar və musiqili proqramlar təqdim edilib. Uşaqlara müxtəlif hədiyyələr paylanıb.

Sonra Leyla Əliyeva uşaqlarla birlikdə IDEA İctimai Birliyinin "Şəhər ekologiyası" ("Urban Ecology") layihəsi çərçivəsində Mərkəzi Nəbatat bağının ərazisinə Bakı Zooloji Parkında çoxaldılmış 10 sincab buraxıb. "Şəhər ekologiyası" layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib. Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların Nəbatat bağı ərazisində təbii şəkildə çoxalmasıdır.

Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və digər heyvan növləri məskunlaşıb, onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalıb. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növünün qaytarılması üçün münbit şərait yaradılıb.

# Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbində olublar





**Dekabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbində olublar.**



AZƏRTAC xəbər verir ki, qonaqlar məktəbdə təşkil olunan Yeni il tədbirində iştirak ediblər.

Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva burada təhsil alan şagirdlərlə görüşərək onları 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, onlara hədiyyələr təqdim ediblər.

Qonaqlar şagirdlərin çıxışlarını və rəqslərini izləyib, onların ifasında şeir və musiqi parçalarını dinləyiblər.

Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva daha sonra uşaqlarla söhbət edib və şəkillər çəkdiriblər.

Qeyd edək ki, gözdən əlil uşaqlar üçün internat məktəbi 1961-ci ildə inşa edilib. Məktəb 2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib, yeni sinif otaqları, kompüter zalı yaradılıb və müasir avadanlıqla təchiz olunub.

# Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva "Təmiz Dünya" sığınacağında yaşayan uşaqların bayram sevincinə şərik olublar

**Dekabrın 24-də "Təmiz Dünya" sığınacağında yaşayan uşaqlar üçün bayram şənliyi təşkil olunub.**









AZƏRTAC xəbər verir ki, şənlikdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Şaxta baba və Qar qız nağıl qəhrəmanları ilə birlikdə şənlikdə iştirak edən uşaqları əyləndirib, onlara xoş anlar yaşadıblar.

Uşaqların məktəbə rahat və təhlükəsiz şəkildə gedib-gəlmələrini təmin etmək məqsədilə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tərəfindən mərkəzə yeni avtobus hədiyyə olunub.

Sonra Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva uşaqlara hədiyyələr təqdim edib, balacaların sevincinə şərik olublar.



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## *Düşünülmüş siyasət, düzgün taktika*



## İntibah, inkişaf və tərəqqi illərinin müəllifi

**Bugün Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyinin qarantı, inkişafının memarı və beynəlxalq arenada söz sahibi olan lider kimi ölkəmizin gələcəyini formalaşdırır. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan güclü dövlətçilik ənənələrini daha da möhkəmləndirərək xalqın birlik və iradəsinin əsl təcəssümünə çevrilib. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləyir.**

Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalan Prezident İlham Əliyev Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirib. Dövlət başçısının liderliyi ilə Azərbaycan ötən illər ərzində möhtəşəm tarixi uğurlara imza atıb. Cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi müddətdə bütün sahələr inkişaf edib, əhalinin rifah halı daha da yaxşılaşıb və xalqa verilən vədlər bütünlüklə yerinə yetirilib. Belə ki, uğurlu siyasət, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkədir. Eyni zamanda ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Prezident İlham Əliyevin beynəlxalq münasibətlərə dair dərin bilikləri və çevik diplomatik manevrləri Azərbaycanın xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı ölkələrin suverenliyinə hörmət edilməsinin, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasının və gücləndirilməsinin vacibliyini vurğulayaraq Azərbaycanın xarici siyasət strategiyasını məhz bu prinsiplər əsasında formalaşdırıb. Azərbaycan beynəlxalq hüququn aliliyi, dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiq qalaraq əməkdaşlığa daim açıq olduğunu nümayiş etdirib. Bu yanaşma Azərbaycanın beynəlxalq aləmdə söz sahibi kimi tanınmasını təmin edib və Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərə geniş dəstək qazandırıb.

Ötən illər ərzində beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq əlaqələri Azərbaycanın qlobal mövqeyinin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edib. Ölkəmizin 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına uğurla sədrlik etməsi və COP29 kimi möhtəşəm tədbiri keçirməsi Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb. Ötən il Azərbaycan COP29 çərçivəsində irəli sürdüyü təşəbbüslərlə iqlim dəyişmələri sahəsində mühüm qlobal qərarların qəbul edilməsinə şərait yaradaraq öz liderliyini bir daha təsdiqləyib.

Prezident İlham Əliyev Azərbaycan dövlətinin inkişafında mühüm rol oynayan həm qurucu, həm də islahatçı Liderdir. O, hadisələrin gedişatını dəyişməyə qadir, dövlətçilik fəaliyyətində milli maraqları ən yüksək məqsəd kimi qəbul edən və bütün gücünü bu məqsədə həsr edən dövlət başçısıdır. Prezident İlham Əliyev xalqının birmənalı şəkildə dəstəklədiyi və etimad göstərdiyi Lider olaraq Azərbaycanı yeni zirvələrə daşıyan strateji addımlar atır. Cənab İlham Əliyev dövlət başçısı seçildiyi ilk gündən bəyan edirdi ki, Ulu Öndərin siyasi kursunu dönmədən davam etdirəcək, hər bir vətəndaşın Prezidenti olacaq. Eyni zamanda deyirdi ki, biz öz torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağıq, Azərbaycan ərazilərində ikinci Ermənistan dövləti yaradılmasına yol verməyəcəyik. Bəli, cənab Prezident bu taleyüklü vəzifənin də öhdəsindən layiqincə gəldi!

Prezident İlham Əliyevin fəaliyyətinin ən parlaq səhifəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması təşkil edir. Dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanına və Zəfər simvoluna çevrilən 44 günlük Vətən müharibəsi, Qarabağda erməni separatizminin kökünün kəsilməsi təkcə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpasını deyil, eyni zamanda həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların yaranmasına səbəb olub. Ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə verməklə yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpası regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir. Şanlı Zəfərin qazanılmasında ən başlıca amillərdən biri lider-xalq-ordu birliyi oldu. Bu birlik və həmrəylik nəticəsində Prezident İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi adını Azərbaycanın tarixinə qızıl hərflərlə yazdırdı.

Artıq beş ildir ki, postmüharibə dövrünü yaşayırıq və bu dövrün də öz hədəfləri var. Qürurla deyə bilərik ki, postmüharibə dövrünün gündəliyini Azərbaycan lideri diktə edir. Beynəlxalq güclər, dünyanın böyük dövlətləri regionda yaranmış yeni reallıqları qəbul edir, bununla hesablaşırlar. Prezidentimizin cəsarətli, təmkinli addımları, taleyüklü məqamlarda nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq bizi qələbədən-qələbəyə aparır.

Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirib, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət nümunəsi təqdim edib. Məhz dövlət başçısının iradəsi sayəsində ölkədə yeni siyasi konfiqurasiya qurulub, siyasi dialoq mühiti formalaşıb. Siyasi dialoqu və əməkdaşlıq mühitini təşviq edən Prezident İlham Əliyev qeyd edir: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Son illər siyasi dialoqun müsbət demokratik təzahürləri də özünü göstərməkdədir. Belə ki, "Siyasi partiyalar haqqında" yeni qanun qəbul edilib, siyasi partiyalara dövlət maliyyə yardımının həcmi 2022-ci ildən başlayaraq 4 milyondan 5 milyona manata, 2025-ci ildən isə 6 milyon manata çatdırılıb. Parlament seçkilərində etibarlı səslər qazanmış, lakin Milli Məclisdə təmsil olunmayan siyasi partiyalar da 2024-cü ilin IV rübündən etibarən dövlətdən maliyyə yardımı almağa başlayıblar. Eləcə də partiyaların mütləq əksəriyyəti dövlətçilik məsələləri ilə bağlı Vətən müharibəsi zamanı və digər dövrlərdə siyasi və milli birlik nümayiş etdirərək ümumilikdə 14 birgə bəyanat və müraciətə imza atıb. Siyasi partiyaların işğaldan azad edilmiş rayonlara birgə 8 səfəri həyata keçirilib. Bütün bunlar yeni siyasi konfiqurasiyanın nümunələridir.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər intibah, inkişaf və tərəqqi ilə səciyyələnir. Bu gün xalqımız formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoyub. Yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin, Böyük qayıdışın davam etdirilməsi, təhlükəsizliyin təmin olunması və müasir ordu quruculuğu, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması, cəmiyyətin rifahının yüksəldilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, müstəqil xarici siyasət sayəsində Azərbaycanın beynəlxalq mövqelərinin daha da gücləndirilməsi, cəmiyyət həyatında şəffaflığın və ictimai iştirakçılığın, həmçinin ölkədə mövcud siyasi dialoqun dərinləşdirilməsi, zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və digər məsələlər həyata keçirilən siyasətin prioritet istiqamətləri olacaq. Xalqımız və dövlətimiz cənab İlham Əliyevin liderliyi ilə bu hədəflərə də nail olacaq!

*Pərvin KƏRİMZADƏ,*
*Milli Məclisin deputatı*

## Tarixi ədaləti bərpa edən Müzəffər Ali Baş Komandan

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həyata keçirilən praqmatik, çoxvektorlu və milli maraqlara söykənən siyasət Azərbaycanı həm regional, həm də qlobal miqyasda mühüm mövqeyə yüksəldib. Siyasi sabitlik, güclü iqtisadi islahatlar, uğurlu diplomatik addımlar və ordu quruculuğu sahəsində qazanılan nailiyyətlər nəticəsində ölkəmiz Cənubi Qafqazın lider dövləti olmaqla yanaşı, beynəlxalq aləmdə də etibarlı tərəfdaş kimi tanınır. Azərbaycanın artan nüfuzu, onun regional sabitlik və əməkdaşlıq təşəbbüslərindəki rolu eyni zamanda milli maraqların qətiyyətlə qorunması ilə birbaşa bağlıdır. Bu siyasət həm də ölkənin təhlükəsizliyini, dayanıqlı inkişafını və suverenliyini təmin edən mühüm amilə çevrilib.**

Hər bir xalqın tərəqqisi və davamlı inkişafı üçün əsas şərtlərdən biri dövlətçilik ənənələrinin qorunması və müasir tələblərə uyğun dövlət modelinin formalaşdırılmasıdır ki, bu prosesdə lider amili xüsusi əhəmiyyət daşıyır. Dövlət quruculuğu prosesində xalqın iradəsini milli hədəflərə yönəldən liderlik faktoru müstəsna əhəmiyyət kəsb edir. İdarəçilik məharətini strateji düşüncə və qətiyyətli siyasi kursla birləşdirən Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın milli gücünün artırılmasında və dövlət suverenliyinin möhkəmləndirilməsində həlledici rol oynayan ali liderlik nümunəsidir.

2003-cü ildə xalqın böyük etimadı ilə dövlət başçısı seçilən İlham Əliyev, yalnız Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirməklə kifayətlənmədi, onu dövrün çağırışlarına uyğun şəkildə inkişaf etdirərək ölkəni yeni mərhələyə çıxardı. Onun rəhbərliyi ilə Azərbaycan təkcə regionda deyil, dünya miqyasında da nüfuzlu aktora çevrildi. 44 günlük Vətən müharibəsində əldə edilən tarixi qələbə isə İlham Əliyevin liderlik keyfiyyətlərinin ən parlaq göstəricisi oldu. Onun qətiyyəti, diplomatik çevikliyi və strateji düşüncəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Ulu Öndərin illərlə dilə gətirdiyi Qarabağ arzusu reallığa çevrildi.

Ötən illər bir daha sübut etdi ki, Prezident İlham Əliyev müasir Azərbaycanın qurucusu və inkişaf strategiyasının memarı kimi öz liderlik keyfiyyətləri ilə seçilən, xalqın iradəsinə əsaslanan siyasət yürüdən dövlət başçısıdır. O, hər zaman milli maraqları uca tutaraq ölkənin təhlükəsizliyi, rifahı və beynəlxalq nüfuzunun artırılması naminə yorulmadan çalışıb. Son 22 ildə aparılan inqilabi islahatlar və reallaşdırılan qlobal layihələr Azərbaycanın iqtisadi gücünün artmasına, sosial rifahın yüksəlməsinə, beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə səbəb olub. Bütün bu nailiyyətlərin əsasında isə Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" strateji fəlsəfəsinə söykənən inkişaf xətti dayanır. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirərək Azərbaycanı regionda və dünyada söz sahibi olan nüfuzlu dövlətlər sırasına çıxarıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan və Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətindən qaynaqlanan neft strategiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə sonrakı illərdə daha da inkişaf etdirilərək Azərbaycanın beynəlxalq enerji bazarında mühüm aktora çevrilməsinə şərait yaradıb. Bu strategiyanın davamı olaraq 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. 2018-ci ildə isə enerji təhlükəsizliyində həlledici rolu olan "Cənub qaz dəhlizi" və TANAP layihələrinin açılışı baş tutub. "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması bu siyasətin davamlılığını və möhkəm təməl üzərində qurulduğunu sübut edir. Paralel olaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın geosiyasi mövqeyini möhkəmləndirən nəqliyyat layihələri "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Eyni zamanda ölkəmiz kosmik sahədə də uğurlar qazanaraq "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri ilə kosmik dövlətlər sırasına daxil olub. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin iqtisadi, enerji və texnoloji sahələrdə apardığı siyasətin davamlı, milli maraqlara əsaslanan və beynəlxalq əhəmiyyət daşıyan strateji xətt olduğunu göstərir. Bu siyasət Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirməklə yanaşı, onu qlobal əməkdaşlıq üçün etibarlı tərəfdaşa çevirib.

Prezident İlham Əliyevin uzaqgörən, məqsədyönlü və milli maraqlara əsaslanan praqmatik siyasəti Azərbaycanın iqtisadi potensialının gücləndirilməsi, beynəlxalq nüfuzunun artması və strateji mövqeyinin möhkəmləndirilməsi ilə nəticələndi. Məhz bu amillər Vətən müharibəsində qələbənin əldə olunmasında həlledici rol oynadı. Güclü iqtisadi dayaqlara, müasir və çevik orduya, geniş diplomatik əlaqələrə malik olan Azərbaycan dövləti Prezidentin rəhbərliyi ilə tarixi ədaləti bərpa etdi. Eyni zamanda Prezident İlham Əliyev uzun illər ərzində hər bir beynəlxalq platformada Qarabağ həqiqətlərini səbr və ardıcıllıqla gündəmdə saxladı, Azərbaycanın mövqeyini dünyaya çatdırdı. Onun göstərişi ilə beynəlxalq təşkilatlarda, xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklər və diplomatik missiyalar bu istiqamətdə sistemli fəaliyyət göstərdi. Bunun nəticəsində dünya ictimaiyyəti tədricən Azərbaycanın ədalətli mövqeyini qəbul etməyə başladı. Prezidentin diplomatik səyləri, hüquqi bazanın gücləndirilməsi və siyasi iradəsi Qarabağ Zəfərinin həm hərbi, həm də beynəlxalq legitimlik baxımından möhkəm təmələ söykənməsini təmin etdi.

Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində atılan hərbi-siyasi addımlar, beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyin ardıcıl şəkildə müdafiəsi və qlobal təşkilatların qəbul etdiyi sənədlər bu prosesin hüquqi zəminini formalaşdırdı. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri ilə yanaşı, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İƏT-in, Avropa Parlamentinin və digər beynəlxalq qurumların sənədlərində Azərbaycanın ərazi bütövlüyünə dair açıq və konkret müddəaların yer alması ölkəmizin mövqeyini beynəlxalq miqyasda gücləndirdi. Bu siyasi və diplomatik uğurlar paralel olaraq ordu quruculuğu sahəsində də böyük irəliləyişlərlə tamamlandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycanın hərbi potensialı sürətlə inkişaf etdirildi, Silahlı Qüvvələr ən müasir texnika və avadanlıqlarla təchiz olundu. Hərbi əməkdaşlıqlar genişləndirildi, şəxsi heyətin peşəkarlığı artırıldı və nəticədə Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biri səviyyəsinə yüksəldi. Bütün bu faktlar 44 günlük Vətən müharibəsində əldə olunan şanlı qələbənin əsas dayaqlarını təşkil etdi.

Beş ildir ki, postmüharibə dövrünü yaşayırıq və bu dövrün özünəməxsus məqsəd və hədəfləri var. Fəxrlə deyirik ki, bu proseslərin əsas istiqamətlərini Azərbaycan Prezidenti müəyyən edir. Beynəlxalq güclər və böyük dövlətlər regionda yaranmış yeni reallıqları qəbul edir və onunla hesablaşırlar. Prezidentimizin cəsarətli və təmkinli addımları, taleyüklü məqamlarda göstərdiyi qətiyyət və prinsipiallıq bizi uğurdan-uğura aparır. Azad olunmuş ərazilərə həyat yenidən qayıdır və bu, Azərbaycan dövlətinin gücünü göstərir. İlham Əliyev müharibədə olduğu kimi, indi də quruculuq işlərində sonsuz qətiyyətlə çalışır. İşğaldan azad edilmiş yerlərdə yalnız infrastruktur deyil, həm də yaşayış kompleksləri, məktəb binaları tikilir, yenilərinin təməlləri qoyulur. Bütün bunlar Böyük qayıdışın geniş perspektivindən xəbər verir. İndiyədək minlərlə ailə doğma yurda qayıdıb. Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirərək xalqına və məcburi köçkünlərə verdiyi vədə sadiq qaldı.

Beləliklə, Azərbaycanın son iki onilliyi Prezident İlham Əliyevin rəhbərliyi altında milli dövlətçilik tariximizi kökündən dəyişən, xalqımızın taleyinə qızıl hərflərlə həkk olunmuş 22 illik möhtəşəm bir uğur salnaməsidir. Bu dövr Azərbaycanın dövlətçilik salnaməsində "İlham Əliyev imzası" ilə möhürlənmiş ən parlaq səhifədir. Bu imza gələcək nəsillər üçün ən böyük qürur mənbəyi və sarsılmaz dövlətçilik məktəbi olaraq qalacaq.

*Kamran BAYRAMOV,*
*Milli Məclisin deputatı*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# İlham Əliyev yalnız ölkəmizdə deyil, bütövlükdə regionda milyonlarla insanın ümid yeridir



**Bu il dekabrın 22-də möhtərəm Prezident Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə birdəfəlik maddi yardım verilməsi barədə sərəncam imzaladı. Bu hüquqi akt Azərbaycan dövlətinin gücünün, konstitusion niyyətlərin və dövlətimizin ali məqsədlərinin uğurla realizəsinin nümayişi olmaqla bərabər, heç şübhəsiz ki, cənab İlham Əliyevin siyasətinin ana xəttinin insan amili və vətəndaş rifahı olduğunu bir daha göstərdi. Bu o deməkdir ki, müzəffər Prezident və qalib dövlətimiz bayram günlərində yardıma, dəstəyə ehtiyac duyan hər bir ev və hər bir ailənin bir daha hamisinə çevriləcək. 1990-cı illərin çörək növbələrindən fərqli olaraq artıq elə bir inkişaf dövrünə çatmışıq ki, hamının ruzisi var, amma cənab İlham Əliyevin bu böyüklüyü, bu ləyaqətli jesti vətəndaşın dövlətinə inamını, etimadını daha da möhkəmləndirdi. Vətəndaş bir daha gördü ki, lazımi məqamda onun yanında dövləti və Prezidenti dayanır.**

Cənab İlham Əliyevin elə həmin gün digər sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edildi. Əlbəttə, növbəti ilin prioritetləri müəyyən edilərkən kompleks qiymətləndirilmə aparılır və heç şübhəsiz ki, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyasının gələn il Bakıda keçirilməsi növbəti ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsində əsas faktor kimi çıxış edib. Lakin konseptual yanaşsaq, növbəti ilin məzmunu, əslində, ölkəmizin yeni inkişaf, sülh və əməkdaşlıq dövrünə qədəm qoyması, quruculuq-bərpa prosesinin yeni mərhələyə adlamasını simvolizə edir.

Azərbaycan müharibəni cənab İlham Əliyevin sayəsində zəfərlə başa çatdırıb. Möhtərəm Prezidentin liderliyi və təşəbbüsləri ilə sülh istiqamətində önəmli məsafə qət edilib. Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesləri uğurla davam edir, kommunikasiyalar tədricən blokadadan çıxmaqdadır. Bu, sülh və əməkdaşlıqda ehtiva olunan elə yeni bir dövr deməkdir ki, biz potensialımızı artıq daha çox quruculuğa və yenidənqurmaya sərf edə biləcəyimiz mərhələyə qədəm qoyuruq.

Şərh etdiyimiz iki sərəncam cənab İlham Əliyevin yeni çağırışların və yeni tarixin lideri olduğunu demək üçün kifayət qədər ciddi əsas verir.

Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti vəzifə etibarilə xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini təmin edir. İstər müstəqilliyə qədərki, istərsə də postsovet dövründəki prosesləri təhlil etdikdə danılmaz bir reallıq meydana çıxır. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətçiliyin bütün meyarları üzrə varisliyini təmin edə, heç bir formatda isə xalqın vahidliyinin təcəssümü ola bilməmişdi. 2003-cü ildə Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Ulu Öndər Heydər Əliyevin qurduğu Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi. Azərbaycan xalqının ilk dəfə Ulu Öndərin tövsiyəsi və cənab İlham Əliyevin özünün SOCAR-ın vitse-prezidenti, Milli Məclisin deputatı və Azərbaycan Respublikasının Baş naziri qismində çoxşaxəli fəaliyyətini, sonrakı dövrdə isə dövlət başçısı kimi nail olduğu ölkənin birmənalı uğurlu inkişaf kursunu nəzərə alaraq xalqın müdrikcəsinə möhtərəm cənab Prezidentə dəfələrlə yüksək etimad göstərməsi dövlətçiliyimizin varisliyinin işğala, təcavüzə tam şəkildə son qoyulduğu tam yeni bir mərhələdə, demokratik və hüquqi yolla davamlılığında ifadə olunan yeni dövrə aparan milli iradənin qətiyyəti sayılmalıdır.

Məhz milli iradənin Ulu Öndər yoluna və cənab İlham Əliyev şəxsiyyətinə sədaqəti sonrakı dövrdə, möhtərəm Prezidentin 23-cü ilə qədəm qoyan siyasi hakimiyyətini son 1000 ilin gündəliyindən daha zəngin, daha mürəkkəb, həm də tariximizin ən uğurlu mərhələsinə çevirdi. Nəticə etibarilə bu gün əminliklə deyə bilərik ki, İlham Əliyev şəxsiyyəti, onun siyasəti artıq yalnız Azərbaycan yox, bütövlükdə regionda təhlükəsizliyin qarantı rolunda çıxış edir. Təbii ki, bunun birinci səbəbi, cənab İlham Əliyevin şah əsərinin böyük Zəfərimiz olması ilə bağlıdır. Ümumiyyətlə, bəllidir ki, Ulu Öndər ikinci dəfə ölkəyə rəhbərliyi dövründə Qarabağ düyününü ölkənin inkişaf və təhlükəsizliyi qarşısında ən ciddi problem hesab edirdi. Hətta özünün 1 oktyabr 2003-cü il tarixli son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Böyük Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük verdi. Əslində isə Ulu Öndərin dediyi kimi, "bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi" və cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq. Sadəcə, dövlət idarəçiliyi milli düşüncədə və doğru əldə olmalıdır.

Siyasi hakimiyyətə 2003-cü ildə gəlməsinə baxmayaraq, cənab İlham Əliyevin fəaliyyəti barədə 2003-cü ildən etibarən danışmaq insaflı yanaşma deyil. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilərkən cənab İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən iki nəfərdən biri idi. Azərbaycan Xalq Cəbhəsi hərəkatı Qorbaçov yenidənqurmasını dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alındığı dövrdə İlham Əliyev sovet miqyasında elə əslində cəbhəçilərin ideoloqu olan Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılmışdı. Ulu Öndər Bakıya qayıtdıqdan sonra məhz onun sayəsində hakimiyyət iyerarxiyasında yer tutmuş bir sıra şəxslər nankorluq edən zaman, parlamentdə Ulu Öndərə qarşı çirkab kampaniya nümayiş etdiriləndə, danışmağa imkan verməyəndə, Bakıda təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə Heydər Əliyevin əsas silahdaşı yenə də İlham Əliyev idi. 1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin çiyinlərində oldu. Bu mənada 2003-cü ilə qədərki dövlət quruculuğu prosesində Ulu Öndərlə bərabər, onun əsas silahdaşı kimi məhz cənab İlham Əliyevin adı xüsusi qeyd olunmalıdır.

Cənab İlham Əliyev haqlı olaraq hesab edirdi ki, qalibiyyət özündə siyasi, iqtisadi, sosial, milli və mənəvi zəmin tələb edir. Bu mənada 2020-ci ildəki böyük hərbi-siyasi zəfərlərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etmiş, siyasi müstəqilliyimizi daha da möhkəmləndirmişdi. Ölkəni çadırlardan azad etmişdi. Məcburi köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərini ləğv edərək vətəndaşın layiqli rifahı, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığını təmin etmişdi, düşüncələri "palatka" təfəkküründən xilas edib, 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətmişdi.

Bu Zəfərə qədər cənab İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, çoxəsrlik dövlətçilik ənənəsinin əhəmiyyətini dərk edən vətənpərvər gənclik yetişdirdi. Cənab İlham Əliyev bütün dünya ilə, xüsusən yanlış gözləntilərdə olan bəzi qlobal dairələrlə ideoloji savaşa girib, bu savaşdan da zəfərlə çıxaraq sübut etdi ki, Heydər Əliyev siyasi kursunun davam etdiyi bir şəraitdə Azərbaycan xalqı torpaqlarının zəbt olunması ilə barışa bilməz və bu siyasi xətt illərlə davam etmiş işğalın Azərbaycan gəncliyinə Qarabağ və Şərqi Zəngəzuru unutdurmasına imkan verməz. Məhz bu qətiyyətli mövqeyi rəhbər tutmaqla, 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Zəfərdən cəmi 8 gün sonra özünün ən sadiq silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi. Möhtərəm Prezidentin özünün də ifadə etdiyi kimi, bütün bu işlər Azərbaycanın öz gücü, imkanları hesabına, reallıqları obyektiv qiymətləndirdikdə isə, əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin özünün qətiyyəti hesabına başa gəlir.

Məhz möhtərəm Prezidentin enerji siyasətini Heydər Əliyevin neft strategiyası üzərində inşa edərək yeni mərhələyə ucaltmasının məntiqi nəticəsi olaraq Azərbaycan nefti bəzi ölkələrdə olduğu kimi lənət yox, inkişaf etmək və dünyada təsirli güc kimi tanınmağımız üçün, sözün əsl mənasında, milli sərvətə çevrildi. Eyni zamanda strateji əhəmiyyətinə görə tarix boyu maraqların toqquşma nöqtəsi olan və faydasından çox zərərini gördüyümüz coğrafiyanı ilk dəfə məhz cənab İlham Əliyev milli kapitala çevirdi və elə geosiyasi konfiqurasiya formalaşdırdı ki, nə qədər ki, Heydər Əliyev siyasi kursunun davamlılığı təmin olunacaq, coğrafiyamız bizim üçün dividend gətirməkdə davam edəcək.

Cənab İlham Əliyevin vizyonu sayəsində danılmaz faktdır ki, Azərbaycan müasir geosiyasi situasiyada nəinki bölgəmiz, bütövlükdə qlobal mənada hərbi-siyasi güc mərkəzlərindən birinə çevrilib. Təbii ki, qlobal ziddiyyətlərin gücləndiyi bir şəraitdə rəqabətqabiliyyətli güclü dövlətə çevrilmək sadə məsələ deyil. Xüsusən siyasi və iqtisadi transformasiyaların sürətlə davam etdiyi bir şəraitdə. Hazırda Azərbaycan Respublikası özünün ənənəvi enerji öhdəliklərinə sadiq qalmaqla, neft hasilatından tədricən qaz istehsalına strateji keçidi təmin etmək üzrədir və bu, müasir mərhələdə Azərbaycanın enerji siyasətinin şaxələndirilməsində çox vacib addım hesab olunmalıdır. Elə buna görə də möhtərəm Prezidentin zamanın da uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar, həmçinin onun iradəsi ilə gerçəkləşən layihələr bu gün faktiki olaraq Azərbaycanı Avropa üçün alternativsiz və çox cazibədar enerji təchizatçısına çevirib. Xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda, qütblərarası ziddiyyətlərin dərinləşdiyi bir zamanda Azərbaycan Prezidentinin zamanında nə qədər uğurlu gedişlər etdiyini və çoxlarının süni əngəllər yaratmasına baxmayaraq nə qədər strateji düşüncə sahibi olduğunu bir daha ortaya çıxarır. Bu gün faktiki olaraq Azərbaycan Avropanın, xüsusən Avropa İttifaqına üzv olan bir sıra dövlətlərin enerji təhlükəsizliyində tədricən həlledici rol almaqdadır, o cümlədən Azərbaycanın Balkanlarda və Şərqi Avropada artan rolu bu baxımdan Avropa İttifaqının ayrı-ayrı strukturlarının Azərbaycana qeyri-adekvat və ədalətsiz yanaşmaları fonunda Bakının ciddi qələbəsi hesab olunmalıdır. Yalnız elə bu fakt bizə deməyə əsas verir ki, əhali sayı və ərazi ölçüsü baxımdan böyük potensialımızın olmamasını məhz cənab İlham Əliyevin vizyonu tam şəkildə nəinki kompensasiya edir, üstəlik, ərazi və əhali göstəriciləri bizdən qat-qat artıq olan dövlətlər qlobal nüfuz baxımından Azərbaycandan çox geri qalırlar.

Əlbəttə, Azərbaycanın uğurları, artan iqtisadi imkanları və bundan dolayı güclənən suverenliyi, müstəqil siyasət yürütməsi regionla bağlı qeyri-adekvat maraqları olan neoimperialist güclər tərəfindən müsbət qarşılana bilməzdi. Xüsusən Vətən müharibəsində Azərbaycanın Zəfəri, habelə antiterror tədbirlərində cənab İlham Əliyevin müstəsna qələbəsi, konstitusiya quruluşumuzun beynəlxalq hüquqla tanınan bütün ərazilərimiz boyu bərqərar olunması regionda qeyri-dost niyyətləri olan gücləri ölkəmizə qarşı səfərbər etdi.

Lakin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və Qoşulmama Hərəkatının Sədri qismində cənab İlham Əliyevin uğurlu fəaliyyəti, onun bəşəri miqyasda lider kimi mövqelərinin möhkəmlənməsi, Azərbaycanın qələbələrinin sağlam təməllər üzrə inşasını təmin etməsi, pandemiya ilə mübarizədə qlobal səylərə məhz cənab İlham Əliyevin liderlik etməsi, eyni zamanda postpandemiya yol xəritəsinin cızılmasında onun həlledici liderlik missiyasını üzərinə götürməsi, digər tərəfdən türk dünyasının birliyi istiqamətində aparıcı aktor olması cənab İlham Əliyevin bu qlobal ədalətsizlik qarşısında mövqeyini kifayət qədər möhkəmləndirdi.

Nəticədə, lokal xarakterli antiterror tədbirlərinin ardınca Azərbaycana qarşı səf tutmuş güclər Azərbaycanın beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərlə uyğun, suveren haqlarını bərpa etməsi faktını qəbullanaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinə dəstək verdilər. Eyni zamanda Demokratların fiaskosu və Fransanın geri çəkilməsi fonunda cənab İlham Əliyev ölkəmizə münasibətdə əks cəbhədə dayananlara qarşı təşəbbüsləri ələ aldı. ABŞ-nin Prezidenti cənab Donald Trampın dəvətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Vaşinqtona səfəri, məzmun və əhəmiyyət baxımından isə qlobal miqyaslı tarixi hadisə olmaqla bərabər, qlobal ədalətsizliklərin ehtiva olunduğu riyakarlıqla mübarizədə ölkəmizin həlledici qələbəsinə çevrildi. Bayden administrasiyası dövründə, cənab İlham Əliyevin təbiri ilə desək, münasibətlərimiz Azərbaycandan asılı olmayan səbəblərdən, daha dəqiq desək, Bayden komandasının Azərbaycanla münasibətlərə Azərbaycan-Ermənistan, yaxud ABŞ-Ermənistan pəncərəsindən baxması nəticəsində faktiki olaraq sıfırlanmışdı. Eyni zamanda ötən dövr ərzində biz ABŞ Dövlət Departamentinin ayrı-ayrı rəsmiləri, habelə bu quruma bağlı ayrı-ayrı "vətəndaş cəmiyyəti institutları" tərəfindən müxtəlif bəyanat və hesabatlarda hücumlara məruz qalmış, ikili standartlara əsaslanan və beynəlxalq hüquqazidd, ədalətsiz davranışlarla üzləşirdik və özünü beynəlxalq ictimaiyyət adlandıran dairələr də bu reallıqdan bizə qarşı güc alırdılar. Donald Trampın ABŞ-də ikinci dəfə hakimiyyətə gəlməsi ilə Bayden administrasiyasının ilk növbədə ABŞ-nin Cənubi Qafqazdakı maraqlarına zərbə vuran sərt gedişlərinə "dur" deyildi və bu yarıtmaz siyasətin nəticələrinin aradan qaldırılması istiqamətində real addımlar atılmağa başladı. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hələ ötən il Şuşa Media Forumunda açıq şəkildə bəyan etmişdi ki, ABŞ-nin həyata keçirdiyi mövcud yanlış siyasət yalnız və yalnız cənab Trampın hakimiyyətə gəlməsi ilə dəyişə və Azərbaycanla çoxsaylı dəyərləri bölüşən Donald Trampın müdaxiləsi ilə vəziyyət düzələ bilər. Xankəndidə, Şuşa Media Forumunda cənab İlham Əliyevin təkrar həmin mövqeyi ifadə etməsi, ABŞ-nin Prezidenti cənab Donald Trampın özünün sosial media hesabında Azərbaycan Prezidentinin nitqinə dəfələrlə yer ayırması, o cümlədən dövlət başçımızın Vaşinqtona dəvət edilərək yüksək səviyyədə qarşılanması məhz cənab İlham Əliyevin proqnozlarında nə qədər haqlı olduğunu ortaya qoydu və ABŞ-Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsinin başladığını göstərdi.

Vaşinqtonda baş tutan müzakirələr, imzalanan sənədlər göstərdi ki, cənab İlham Əliyev müharibənin qalibi olmaqla yanaşı, həm də sülh gündəliyinin təşəbbüskarı kimi prosesin bütün mərhələsində Azərbaycan dövlətinin və Azərbaycan xalqının maraq və mənafelərini uğurla təmsil edə bildi.

Beləliklə də, cənab İlham Əliyevin hərbi-siyasi qələbələri ilə yaratdığı geosiyasi konfiqurasiyanın zamanı Azərbaycanın lehinə çevirməsi fonunda, nəhayət, üç onillikdən sonra real sülh istiqamətində səmərəli addımlar müşahidə edilməyə başladı.

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ-nin Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Bəyannamə qeyd edilən tendensiyanın məntiqi sonu və Ermənistanın rəsmən Azərbaycanın bütün şərtlərini qəbul etməsi demək idi. Beləliklə, Vaşinqtondan səslənən və imzalanan həmin bəyanat müharibədə qalib gəlmiş Prezident İlham Əliyevin sülhü də qazandığını ehtiva edən bir reallıq ortaya qoydu. Çünki bu sənəddə Azərbaycanın israrla tələb etdiyi bütün şərtlərin təmin edilməsi ehtiva olunub. İlk növbədə rəsmi Bakının Minsk qrupunun ləğvi ilə bağlı mövqeyinə uyğun olaraq ATƏT-in Minsk Prosesi və onunla əlaqəli strukturların bağlanmasına dair mövqe ifadə olundu və sülh sazişinin paraflanmasının ardınca Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə birgə müraciəti ünvanlandı.

ATƏT-in Minsk qrupunun buraxılması ilk növbədə cənab İlham Əliyevin liderliyində Azərbaycan Respublikasının yaratdığı yeni reallıq fonunda diktəedici qüvvə kimi imkanlarının və qlobal siyasətə təsir gücünün göstəricisidir. Bilirsiniz ki, Azərbaycan Respublikası Vətən müharibəsi və antiterror tədbirləri ilə Azərbaycan və Ermənistan arasında düyün nöqtəsinə birmənalı şəkildə son qoyaraq yeni geosiyasi konfiqurasiya yaratsa da, ayrı-ayrı güclər ATƏT-in Minsk qrupunun formal varlığı hesabına münaqişənin guya davam etməsi və nəticədə bölgəyə yad qüvvələrin gəlməsi, hansısa formada vasitəçilik rolu barədə vəziyyəti, situasiyanı diktə etmək istəyirdilər. Lakin Prezident İlham Əliyevin milli maraqlar zəminində qətiyyətli davranışı və Vaşinqtonda qlobal güclərin, rəsmi Vaşinqton özü başda olmaqla, bu reallığı qəbul etməsi, Azərbaycan və Ermənistan arasında ATƏT-in Minsk qrupunun buraxılmasına dair müvafiq protokolun imzalanması artıq bütövlükdə qlobal miqyasda Azərbaycanın bu şərtinin qəbullandığını göstərdi. Qeyd olunanlar fonunda əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin Vaşinqtonda, ardınca isə Kopenhagendə qazandığı böyük diplomatik qələbə beynəlxalq diplomatiya tarixində ustad dərsi olmaqla yanaşı, yalnız Cənubi Qafqaz regionu yox, bütövlükdə dünyanın təhlükəsizlik arxitekturasında önəmli rol oynayan bir prosesi başlatmış oldu. Həmçinin bu təmaslarda ifadə olunan açıq birmənalı dəstək möhtərəm Prezidentin Milli Məclisin tribunasından ifadə etdiyi mövqenin ardınca həm də illərlə yad dəyərlərlə bizi çaşdırmaq, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışdıqları saxta proseslərin yerlə yeksan edilməsi idi. Cənab İlham Əliyevin Cənubi Qafqazda hərbi, siyasi və diplomatik yolla nail olduğu status-kvo bu gün dünyanın münaqişələrdən və separatizmdən əziyyət çəkən, sülhə və sabitliyə ehtiyac duyulan regionları üçün əmsala çevriləcək. Bir sözlə, cənab İlham Əliyev tarix yazdı, bu tarixə sahib çıxmaq isə artıq ümummilli məsələ kimi qarşıda ümumxalq vəzifəsinə çevrilib.

Artıq mübahisə mövzusu deyil ki, bu gün əgər Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında beynəlxalq hüququn aliliyi şəraitində ümumbəşəri dəyərləri rəhbər tutaraq dünya xalqları ilə de-fakto sülh, əmin-amanlıq şəraitində yaşamağa başlayıbsa, bu reallıq yalnız bizim yox, bütövlükdə bölgənin sonrakı taleyində, region dövlətlərinin suverenliyinin, müstəqilliyinin qorunması, bütövlükdə əməkdaşlıq mühitinin dərinləşməsi, etimad quruculuğu prosesində mühüm rol oynaya biləcək bir potensialı ortaya qoymaqdadır.

Görünən odur ki, möhtərəm Prezident şəxsi nüfuzu, qətiyyətli mövqeyi və liderlik qabiliyyəti hesabına postmünaqişə dövrünün həssas və mürəkkəb periodunda onillər ərzində reallaşdıra biləcəyi qədər nailiyyətlər əldə etməyi bacardı və bu periodu yeni dövrə keçidi təmin edəcək mükəmməl siyasi mərhələyə çevirə bildi. Üstəlik, cənab İlham Əliyev elə konfiqurasiyaya nail ola bildi ki, hər bir Azərbaycan vətəndaşı özünü bu transformasiyanın bir hissəsi və hərəkətverici qüvvəsi hesab edə biləcək. Bu mənada dönüb ötən dövrə baxanda, ona əmin oluruq ki, gördüyü işlər real imkanlarımızdan artıq olan cənab İlham Əliyev bu dövlət və bu xalq üçün, sözün əsl mənasında, tarixi şansdır. Aydındır ki, dünyanın maliyyə imkanlarının cəm olduğu İsveçrədə, yaxud iqtisadi maraqların müəyyən edildiyi Britaniyada sülh və sabitliyə nail olmaq qətiyyən qəhrəmanlıq deyil, bu sabitliyi zatən maraqlar diktə edəcək. Qəhrəmanlıq Cənubi Qafqaz kimi qütblərin və maraqların toqquşduğu coğrafiyada sülhə nail olmaqdır. Qüdrət sülhə, ədalətə, haqqa və hətta özünə inamını itirmiş cəmiyyətləri təkrar həyata bağlamaqdır. Bu mənada, yeni reallıqda cənab İlham Əliyev artıq yalnız bizim ölkədə yox, bütövlükdə regionda milyonlarla insanın yeganə ümid yeridir.

*Bəhruz MƏHƏRRƏMOV,*
*Milli Məclisin deputatı*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Qələbəmizin və inkişafımızın memarı

**Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycanın quruculuq və intibah salnaməsinə misilsiz uğurlar yazan, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə tarixinin ən qüdrətli mərhələsinə çatdıran, siyasətdə rəqibi olmayan möhtərəm dünya Lideridir. Onun ölkəmizə rəhbərlik etdiyi 22 il ərzində Azərbaycan mükəmməl inkişaf yolu keçməklə, iqtisadi-sosial intibaha imza atıb, bölgənin lokomotivinə və söz sahibinə çevrilib, dünya birliyində öz layiqli yerini tutmağa müvəffəq olub.**



Zamanında dünyanın ən nüfuzlu təhsil ocaqlarından biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirərək beş ildən artıq bu ali təhsil müəssisəsində dərs demiş İlham Əliyev gənc yaşlarından siyasət və diplomatiya elminin dərinliklərini mənimsəyərək yüksəksəviyyəli kadr kimi yetişmişdir. Onun üçün milli dövlət və azərbaycançılıq amalı hər şeydən üstün olmuşdur. O, müstəqil Azərbaycan uğrunda ən çətin sınaqlarda, mübarizələrdə, SSRİ rəhbərliyinin Ulu Öndərə qarşı təqiblərinin kritik həddə çatdığı dövrlərdə Heydər Əliyevin ən yaxın silahdaşına və sirdaşına çevrilmişdir. İlham Əliyev layiqli övlad və mübarizə yoldaşı kimi Heydər Əliyevi heç vaxt tənha qoymamış, azadlıq və milli ideya yolunda onunla birgə möhkəm iradə nümayiş etdirmişdir.

Müstəqil Azərbaycanın təhlükələrdən qurtuluşunda da Ümummilli Liderlə birgə addımlayan İlham Əliyev dahi şəxsiyyətin yanında idarəetmənin bütün incəliklərini və dövlət intizamını dərindən mənimsəmişdir. O, gənc yaşlarında Dövlət Neft Şirkətində məsul vəzifədə çalışdığı dövrdə Azərbaycanın milli dövlət maraqlarının əzmkar müdafiəçisi olmuşdur. İlham Əliyev Azərbaycanın enerji manifestinə çevrilən "Əsrin müqaviləsi" ilə bağlı çətin və gərgin danışıqlarda qəti əzmkarlıq nümayiş etdirərək müqavilənin milli iqtisadi maraqlarımıza uyğun imzalanmasına nail olmuşdur.

İlham Əliyevin fitri siyasi zəkası onun 1999-cu ildə Yeni Azərbaycan Partiyasının (YAP) keçirilən I qurultayında sədrin müavini postuna seçilməsini təmin edib. 2001-ci ildə keçirilən II qurultayda isə sədrin birinci müavini seçilən, 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına başçılıq edən İlham Əliyev təcrübəli və peşəkar siyasi xadim kimi cəmiyyətdə və dünya miqyasında böyük nüfuz qazana bilmişdir. O, Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi mötəbər siyasi tribunadan cəsarətli çıxışları ilə Ermənistanın işğalçı və təcavüzkar simasını Avropa Şurasında ifşa etmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti barədə erməni lobbisinin güclü təsiri altında olan Qərb dünyasında aydın və obyektiv rəy formalaşdırmağı bacarmışdır.

İlham Əliyev artıq 2000-ci ildə beynəlxalq siyasi münasibətlər sistemində böyük siyasətə hazır bir şəxs kimi siyasi liderlər elitasının layiqli üzvü olaraq qəbul edilirdi. Onun 2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası (AŞPA) sədrinin müavini, təşkilatın büro üzvü seçilməsi, habelə AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif edilməsi güclü siyasi qüdrətinin və bacarığının göstəricisi idi.

Xalqımız 2003-cü il oktyabrın 15-də Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu dəstəkləyərək İlham Əliyevi Prezident seçməklə ölkəmizin inkişafında yeni bir mərhələnin əsasını qoydu. Ali vəzifəsində ilk gündən xalqa xidmət etmək, hər bir vətəndaşın Prezidenti olmaq missiyasını ləyaqətlə icra etməyə başladı. Çoxşaxəli iqtisadi islahatların konsepti müəyyənləşdi, ən qabaqcıl modellər tətbiq edildi. Dövlət başçısının 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkənin həyatında köklü dəyişikliklərə yol açdı.

Azərbaycan Prezidentinin inanılmaz enerji diplomatiyası sayəsində regionun ən nəhəng neft arteriyası olan Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşdü, Avrasiya coğrafiyasının enerji xəritəsi dəyişdi. İki il sonra - 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi isə nəhəng bir enerji habı formalaşdırdı. 2013-cü ildə ilk süni peykini orbitə çıxaran Azərbaycan dünya kosmos ailəsinin üzvünə çevrildi, texnoloji sənaye inqilabı alyansında yer aldı.

Bu müdrik diplomatiya Azərbaycanın qlobal dünya ilə inteqrasiyasını möhkəmləndirdi, ölkənin iqtisadi gücündən, maliyyə potensialından məharətlə və düzgün istifadə edərək qazanılmış dividendi xarici siyasətdəki hədəflərə, diplomatik hücum strategiyasına yönəltdi.

Prezidentin ən ali amalı torpaqlarımızın erməni işğalından azad edilməsi idi. O, bu taleyüklü məsələyə toxunarkən qeyd edirdi ki, "biz Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik, iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə yönəldəcəyik. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Prezident İlham Əliyev bütün imkan və fürsətləri birnömrəli müqəddəs andın gerçəkləşməsinə sərf etdi, 1999-cu ildə yaradılan dayanıqlı maliyyə xəzinəsi olan Dövlət Neft Fondunun vəsaitlərini həm də müdafiə sənayesinin formalaşmasına, əsl Ali Sərkərdə sərrastlığı ilə ardıcıl şəkildə nümunəvi və peşəkar ordu quruculuğuna yönəltdi. Eyni zamanda Azərbaycanın qlobal mühitdə artan yaxın tərəfdaşları, strateji müttəfiqləri ilə qurulan düzgün xətt Qarabağla bağlı beynəlxalq sənədlərin və qətnamələrin qəbul edilməsində mühüm rol oynadı, tarixi Zəfərə gedən yolda hüquqi-siyasi üstünlüklər qazandırdı.

Azərbaycanın dayanmadan artan təşəbbüskarlıq və regional liderlik qabiliyyəti yeni transnəqliyyat və transenerji layihələrinin ərsəyə gəlməsini təmin etdi. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi Şərq-Qərb coğrafiyasında yeni İpək yolunun irəliləməsi üçün çığır açdı, "Şimal-Cənub" tranzit qovşağını bölgə ölkələri ilə əlaqələndirdi, Asiya və Avropa arasında körpü rolunu oynayan Orta dəhliz landşaftını qurdu.

2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin önəmli hissəsi olan TANAP istifadəyə verildi, 2020-ci il dekabrın 31-də Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəmərinin işə düşməsi ilə Avropa İttifaqı (Aİ) üçün yeni enerji qapısı açıldı.

2022-ci il iyulun 18-də ölkəmizə səfər edən Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenlə Prezident İlham Əliyev arasında keçirilən görüş çərçivəsində "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması Aİ-yə təbii qaz nəqlinin artırılması və Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısı kimi potensial nəql imkanlarını genişləndirməsinə zəmin yaratdı.

Hazırda ölkəmiz 14 ölkəyə qaz ixrac edir ki, onların 10-u Avropa İttifaqına üzv dövlətlərdir. 2024-cü ildə Aİ ölkələrinə nəql edilən qazın həcmi 13 milyard kubmetr təşkil edib, cari ildə bu rəqəm bir qədər də artıb. 2026-cı ildə isə Albaniya və digər ölkələrə qaz nəqli nəzərdə tutulur ki, nəticədə Azərbaycanın ixracının həcmi artacaq və coğrafiyası daha da böyüyəcək. Beləliklə, Pan-Avropa enerji klubunda aparıcı yer tutan Azərbaycan Aİ regionunda öz təminatçı mövqeyini daha da gücləndirəcək.

Prezident İlham Əliyevin dərin zəkası və strateji düşüncəsinin nəticəsi olaraq Azərbaycan Respublikasının dünyanın 30 yaxın aparıcı ölkəsi ilə, ö cümlədən dördü müttəfiqlik münasibətləri olmaqla rəsmi strateji tərəfdaşlıq əlaqələri mövcuddur. 2025-ci ildə iki qlobal güclə qurulan əlaqələri isə xüsusilə qeyd etmək lazımdır. Çin Xalq Respublikası ilə cari il aprelin 23-də hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın və avqustun 8-də Amerika Birləşmiş Ştatları ilə Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması dövlət başçımızın unikal xarici siyasətinin bariz nümunəsidir.

Ölkəmiz həmçinin "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır. Azərbaycan 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməklə, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik statusu qazanmaqla qlobal miqyasda etimad və etibar ünvanı olduğunu təsdiqləmişdir.

Prezident İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı təşviq edən təşəbbüskarlığının nəticəsi olaraq 2013-cü il oktyabrın 28-də BMT tarixində ilk dəfə olaraq "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclas, Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirilmiş, habelə 2021-ci il noyabrın 18-də "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilmişdir.

Azərbaycanın digər bir təşəbbüskarlığı və yaratdığı həmrəylik platformasının uğuru İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal və nüfuzlu üzvlərindən biri kimi qurumun konfranslarına yüksəksəviyyəli evsahibliyi etməsidir. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması, İƏT-in möhtəşəm idman hadisəsi olan IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, 2024-cü ildə Şuşa şəhərinin "İslam mədəniyyətinin paytaxtı" seçilməsi Azərbaycanın həmrəylik diplomatiyasının sarsılmaz uğurlarıdır. Ölkəmizin 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına sədrliyi ilə bağlı qərar isə təşkilata üzv dövlətlərin Azərbaycana yüksək etimadının göstəricisidir.

Prezident İlham Əliyev həm də Azərbaycan siyasətində demokratik islahatların təşəbbüskarı və təminatçısıdır. O, siyasi mühitə yeni münbit və sağlam ab-hava, fərqli fəaliyyət nümunəsi gətirdi, siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq və milli siyasi etika nümunəsi təqdim etdi. 2018-ci il Prezident və 2020-ci il parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoydu. 2020-ci ildə respublikamızda yeni siyasi konfiqurasiyanın qurulması, çoxpartiyalı sistemin daha da möhkəmləndirilməsi və digər siyasi islahatlar siyasi dialoqu və əməkdaşlıq mühitini təşviq etdi.

Siyasi partiyaların fəaliyyəti ölkənin 160-a yaxın mərkəzi və yerli icra hakimiyyəti orqanı və digər dövlət qurumları ilə əlaqələndirildi, 12 yeni siyasi partiyanın dövlət qeydiyyatından keçməsi təmin olundu, "Siyasi partiyalar haqqında" yeni qanun qəbul edildi, siyasi partiyalara dövlət maliyyə yardımının həcmi hər il artırıldı. Milli Məclisdə təmsil olunmayan siyasi partiyalar da 2024-cü ilin IV rübündən etibarən dövlətdən maliyyə yardımı almağa başladı. Siyasi partiyaların ümummilli məsələlərdə həmrəyliyi daha da möhkəmləndi.

Azərbaycanın dövlət başçısının ötən illər ərzində hər gün daha da gücləndirdiyi ordu quruculuğu ən yüksək səviyyəyə çatdırılmaqla dünya hərb rəqabətində öz gücünü sübut edən yeni növ hərbi birləşmələrin və xüsusi təyinatlı bölmələrin rəşadətinin artmasını təmin edərək qələbəni anbaan yaxınlaşdırdı.

Azərbaycanın işğalla heç zaman barışmayacağını bütün platformalarda qətiyyətlə bəyan edən və "Qarabağ Azərbaycandır" ümummilli hərəkatına başlayan Ali Baş Komandanın yaratdığı Zəfər Ordusu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təmas xətti boyu təxribatlarına qarşı əks-hücum əməliyyatı başlatdı. 44 gün ərzində bir dəfə də belə geriyə addım atmayan və düşməni təşvişə salan Silahlı Qüvvələrimiz noyabrın 9-dək beş şəhər, dörd qəsəbə və 286 kəndi işğaldan azad etdi. Ağır məğlubiyyətlə barışmalı olan İrəvan kapitulyasiya aktını qəbul etdi və noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq, hərbi əməliyyatlar aparılmadan və itki verilmədən noyabrın 20-də Ağdam rayonu, 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü.

Prezident İlham Əliyevin müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verməsi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırması da Zəfərin əldə edilməsində siyasi diplomatiya blokundakı uğurların nümayişi idi. Bu müsahibələr XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası, qətiyyətin və prinsipiallığın nümayişi idi.

Qələbənin əbədiləşdirilməsi Prezident İlham Əliyevin xüsusi diqqətində olmaqla, "Zəfər" və "Qarabağ" ordenlərinin, 15 yeni medalın təsis olunması ilə simvolizə edildi, müharibə iştirakçıları müxtəlif orden və medallarla təltif olundular. Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə Zəfər Gününün təsis edilməsi və noyabrın 8-nin Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi xalqımızın qürurverici tarixinin daha bir rəmzinə çevrildi.

Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında Zəfər paradının keçirilməsi isə dünyada möhtəşəm görüntü ilə müşayiət edildi, paradda Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı Türkiyə və Azərbaycan qardaşlığının sarsılmazlığını əks etdirən ən mühüm hadisə kimi tarixə yazıldı.

Zəfərin daxili ictimai-siyasi mühitə gətirdiyi ən mühüm hadisə 2024-cü il fevralın 7-də keçirilən seçkilər oldu. Zəfər seçkisi kimi müasir siyasi tariximizdə həkk edilən bu möhtəşəm hadisənin özəlliyi ondan ibarət idi ki, seçkilər ilk dəfə 86,6 min kv.km ərazimizin bütün nöqtələrində baş tutdu. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə Xankəndi şəhərindəki 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verən Prezident İlham Əliyev bildirdi ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. "Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar.... Orada verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Cənab Prezidentin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edilib və sənədə əsasən hər il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd olunur. Bu tarixi günün növbəti aktı isə humanizm rəmzi kimi "Konstitusiya və Suverenlik İli"ndə gerçəkləşən növbəti Amnistiya aktı oldu. Bu akt 20 min nəfərə şamil olunmaqla müstəqillik tarixinin ən böyük amnistiyası deməkdir.

Dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncamına əsasən, azad ərazilərdə bərpa və quruculuq işləri, məskunlaşma tədbirləri də fasiləsiz şəkildə həyata keçirilməkdədir.

2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına 25 milyard manatdan çox vəsait ayrılıb. Həmin vəsaitlər hesabına "Böyük Qayıdışa dair I Dövlət Proqram"ının 79 faizi tam icra edilib.

Beş il ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Qarabağda və Şərqi Zəngəzurda aramsız aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, üç beynəlxalq hava limanı istifadəyə verilib, 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, biri isə qismən icra edilib. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, üç körpü istismara verilib.

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı olub. Bölgədə 38 su-elektrik stansiyası, dörd su anbarı, 14 elektrik yarımstansiyası istismara verilib, altı magistral qaz xətti, 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib. Səkkiz şəhərə, 20 kəndə və bir qəsəbəyə qazın verilməsi təmin edilib. Bölgədə bir xəstəxana, 19 ümumi, yeddi məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb.

İşğaldan azad edilmiş ərazilərin məskunlaşdırılması ilə bağlı tədbirlər də uğurla davam etdirilir.

Bölgədə nəhəng sənaye arxitekturası qurulur, istehsalın sütunlarına çevrilir. Ağdam Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası" və "Laçın Aqro-Sənaye Parkı"nda yüzlərlə rezidentin fəaliyyəti təmin edilib, müəssisələrdə istehsal olunan məhsulların ixracına başlanılıb.

Dövlət başçısının 2025-ci il 30 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanması barədə hökumət üzvlərinə müvafiq tapşırıq verilib və bu istiqamətdə mühüm işlər görülməkdədir.

Prezident İlham Əliyevin *"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"* fikri böyük bir sosial zəkanın və baxışın təcəssümü kimi 22 illik fəaliyyətində daim sosial siyasətin aparıcı xətt tutduğunu təsdiqləyir. Məhz bu unikal siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı son 22 il ərzində nominal ifadədə 14,8 dəfə böyüyərək ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 32 dəfə artaraq 1,2 milyard manatdan 39,9 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları 2003-cü ildəki 1,8 milyard dollardan hazırda 82,5 milyard dollara çatmaqla 46 dəfə artıb. Bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-ə, xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib.

Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir, regionda əlavə dəyərin ümumi həcmi 108 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür. Həmçinin, maliyyə-büdcə ehtiyatlarının böyük əksəriyyəti Azərbaycanın payına düşür. 2025-ci il üzrə Cənubi Qafqaz ölkələrinin birlikdə büdcə resursları 40,5 milyard dollar təşkil edir ki, onun 24 milyard dolları və ya 61,4 faizi Azərbaycanın, qalan 39 faizi digər iki ölkənin sərəncamındadır. Regiondakı strateji valyuta ehtiyatlarının ümumi həcmi isə 100 milyard dollara bərabərdir, onun altı milyard dolları Ermənistanın, 11 milyard dolları Gürcüstanın, geri qalanı isə Azərbaycanın payına düşür, yəni toplam ehtiyatların 83 faizə yaxını Azərbaycanın sərəncamındadır.

Ölkəmizdə iqtisadiyyata 344,4 milyard dollar investisiya qoyulub, onun əhəmiyyətli hissəsi və ya 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib.

Bu xüsusda xatırladaq ki, 2018-2025-ci illərdə dörd milyondan çox vətəndaşı əhatə edən beş sosial islahat paketi icra olunub, pensiya, əməkhaqları, müavinət və təqaüdlər, ünvanlı sosial yardımın məbləğləri bir neçə dəfə artırılıb. Bu sosial təminat üzrə ümumilikdə büdcədən 7,6 milyard manat vəsait xərclənib.

Cənab Prezidentin hər zaman xüsusi diqqətində olan və davamlı qayğı ilə əhatə edilən şəhid ailələri və müharibə iştirakçılarına ödənilən Prezidentin aylıq təqaüdləri 15-20 faiz artırılıb. Postmüharibə dövründə şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və veteranlara 6900 mənzil və 567 avtomobil verilib, 106 min şəxsə 120 min aylıq sosial ödəniş təyin edilib, 27,8 min şəxsin məşğulluğu təmin edilib, 25,5 min şəxsə birdəfəlik ödəniş verilib.

Prezident İlham Əliyev olduqca sadə və xalqa bağlı şəxs kimi vətəndaşların yanında olmağı öz mənalı həyat tərzinə çevirib. Ad günündə müxtəlif sosial obyektlərin açılışında iştirakı, şəhid ailələri, keçmiş məcburi köçkünlər və qazilərlə mütəmadi görüşləri onun sosiallığının xarakterini nümayiş etdirir. 50 illik yubileyini keçmiş məcburi köçkünlərlə bərabər Ağcabədidə, sonrakı illərdə Şuşa və Ağdamda, 60 illik yubileyini isə Şuşada keçirməsi cənab Prezidentin dövlət və xalq, milli maraqlar naminə bütün həyatını sərf etdiyini göstərir.

Azərbaycan 2024-cü ildə beynəlxalq iqlim ailəsinə öz nümunəvi təşəbbüskarlığını bir daha sübut etdi, 80 dövlət və hökumət başçısının iştirakı ilə 76 mindən çox qonağın qatıldığı COP29 sammiti ən yüksək təşkilatçılıq qabiliyyəti ilə keçirildi. Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaşlığının və vacib siyasi aktor olmasının daha bir nümunəsi 2024-cü il 19 dekabr tarixində Qahirədə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısında bu mötəbər təsisata üzv qəbul edilməsidir. BMT-nin Məskunlaşma Proqramının İcraiyyə Şurasının Keniyada keçirilən 3-cü sessiyasında 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 2026-cı ildə Bakı şəhərində keçiriləcəyi barədə verilən qərar isə ölkəmizə və onun Liderinə göstərilən etimadın bariz nümunəsidir.

Azərbaycan dövləti postpandemiya və postkonflikt dövrlərdə keyfiyyətcə yeni olan müasir inkişaf mərhələsinə daxil olub. "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026?2029-cu illər üçün Strategiya" sənədləri texnoloji inkişafa və rəqəmsal tərəqqiyə çatmağı hədəfləyir.

Azərbaycan həm də yeni siyasi çağırışlar fonunda Cənubi Qafqazın sülh və rifah körpüsünü inşa edir, digər coğrafiyalarla geniş inteqrasiyasının müasir modelini qurur. 2025-ci il 8 avqust tarixində Prezident İlham Əliyevin ABŞ-yə səfəri zamanı Azərbaycan, ABŞ və Ermənistan liderlərinin sammitinin keçirilməsi və Birgə Bəyannamənin imzalanması regionda geniş əməkdaşlıq və rifah quruculuğu üçün dərin sütunlar formalaşdırmaqla, nəqliyyat kommunikasiyalarının açılmasına zəmin yaratmaqdadır. Razılaşmaya uyğun olaraq, Zəngəzur dəhlizinin bir parçası olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun yaradılması istiqamətində praktiki işlər həyata keçirilir. Münaqişənin köhnə qalıqları olan Minsk qrupu və onun əlaqədar strukturlarının ləğvi yeni münbit siyasi-iqtisadi bağlantıları təmin edəcək humanitar arxitektura formalaşdırır. Yeni İpək yolu magistralının əsas qovşağı sayılan Zəngəzur dəhlizinin reallaşması ilə Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığın qarantına çevriləcək.

Tarixi Qələbə Azərbaycanın regionda yaratdığı yeni reallıqlar fonunda Qərbi Azərbaycan mövzusunu da ön plana çıxardı. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2022-ci ildə Qərbi Azərbaycan İcmasının yenidən təşkil edilməsi və fəaliyyəti ictimai-siyasi mühitdə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmaqdadır. Müxtəlif dövlət qurumlarında Qərbi Azərbaycan məsələsi ilə bağlı qəbul edilən qərarlar, ilk dəfə Milli Məclisdə yaradılmış Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu və digər proseslər bu məsələnin miqyasını daha da genişləndirib. Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsində Asiya Parlament Assambleyasının, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, TürkPA-nın, İslam Əməkdaşlıq Təşkilatının rəsmi sənəd və qətnamələrinə Qərbi Azərbaycan məsələsi daxil edilmiş, məsələ BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleya və İqtisadi və Sosial Şuranın 11 sənədində öz əksini tapıb.

Azərbaycan Prezidenti dünya miqyaslı siyasi lider, böyük şəxsiyyətdir. Dünya liderləri onunla hesablaşır, onun böyük siyasi qüdrətini etiraf edirlər. ABŞ-nin Prezidenti Donald Trampın dəfərlərlə "İlham Əliyev böyük siyasətçidir, böyük şəxsiyyətdir" fikri ən ali etiraflardan biridir.

Onun siyasi obrazını zənginləşdirən ən mühüm amillərdən biri də dünyanın nüfuzlu təşkilatlarının və çoxsaylı dövlətinin orden və medalları, fəxri adları, idman təşkilatlarının mükafatları ilə təltif olunmasıdır. Onları saymaqla bitirmək olmaz, ancaq İlham Əliyev üçün ən ali və müqəddəs təltif "Heydər Əliyev" ordenidir. Bu, onun həyatının və siyasi fəaliyyətinin simvolu, ən böyük uğur salnaməsinin rəmzidir.

***Ramid NAMAZOV,***
***Milli Məclisin deputatı***



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş siyasət, düzgün taktika

# Müasir Azərbaycanın inkişaf və güc strategiyası

**"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



Bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayan Azərbaycan dövlətinin möhkəmlənməsi Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və strateji siyasətlə bağlıdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzunmüddətli inkişaf kursunu əzmlə davam etdirərək Azərbaycana böyük nailiyyətlər qazandıran cənab İlham Əliyevin rəhbərliyi altında xalqımız ən mühüm milli hədəflərinə çatmış, ölkəmizdə daxili sabitliyin təmin edilməsi ilə yanaşı, sosial rifahın yüksəldilməsi, regional və qlobal miqyasda mövqelərin gücləndirilməsi istiqamətində misilsiz uğurlar əldə olunmuşdur. Azərbaycan Prezidentinin fəaliyyəti milli maraqlara söykənən, uzunmüddətli inkişafı hədəfləyən kompleks dövlət idarəçiliyi modeli kimi səciyyələnir və bu model artıq müasir dünyamızın bir çox dövlət rəhbəri üçün mükəmməl nümunəyə çevrilib.

Öncə xüsusi olaraq vurğulanmalıdır ki, dövlətimizin başçısı müasir dünyamızdakı qloballaşmadan, yeni geosiyasi reallıqlardan irəli gələn mənzərənin tələblərinə cavab verən siyasi xəttin daşıyıcısıdır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, dəmir məntiq və möhkəm iradə - bütün bunlar Prezident İlham Əliyevin siyasi obrazını tamamlayan mühüm keyfiyyətlərdir.

Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyin qorunub saxlanması naminə nümayiş etdirdiyi prinsipiallıq, köklü islahatların həyata keçirilməsindən ötrü ortaya qoyduğu qətiyyət, ölkəmizə qarşı yönələn xarici təzyiqlərə münasibətdə əzmkar mövqe, qlobal təşəbbüslərin irəli sürülməsi və icrasında milli maraqlarımızla bağlı göstərdiyi iradə və təmkin cənab İlham Əliyevin öz çevik və optimal qərarları ilə istənilən çətin situasiyadan ölkəni böyük hünərlə çıxara bilmək bacarığını göstərir. Ötən il Prezident İlham Əliyevin Milli Məclisdəki andiçmə mərasimi milli dövlətçilik ənənələrimizin əlamətdar anlarından biri kimi tarixə yazıldı. Ölkə rəhbərinin çıxışı Azərbaycanın artıq daxil olduğu yeni strateji dövrün ümumi mənzərəsini canlandırdı, əsas hədəflərini də diqqətə çatdırdı. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, habelə əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş halda, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə daxil oldu. "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub" deyən Azərbaycan Prezidenti buna böyük əminliyini ifadə etdi: "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan bayrağı ərazimizin hər bir yerində dalğalanacaq".

Nüfuzu, özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Çünki ölkəmizin rəhbəri hər zaman xalqının yanındadır. Dürüst olanı dilə gətirir, doğru qərarlar verir və başqalarına da yolun ən düzünü göstərir. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verir, onunla ciddi məsələlərdə müzakirələr, məsləhətləşmələr aparırlar.

### Milli maraqlara söykənən balans və prinsipiallıq

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət müasir beynəlxalq münasibətlər sistemində milli maraqların qətiyyətlə qorunması və praqmatik diplomatiyanın uğurlu sintezidir. Bu siyasət Azərbaycanın müstəqil dövlət kimi mövqelərini möhkəmləndirməklə yanaşı, ölkəni regional və qlobal miqyasda etibarlı tərəfdaş kimi tanıdır.

Dövlət rəhbərimizin xarici siyasət kursunun əsasını suverenlik, ərazi bütövlüyü və beynəlxalq hüquqa hörmət prinsipləri təşkil edir. Xüsusilə tarixi Zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra yaranmış yeni reallıqlar Azərbaycanın mövqeyini daha da gücləndirib, beynəlxalq münasibətlər sistemində ölkəmizin rolunu artırıb.

Azərbaycanın xarici siyasətində balanslaşdırılmış münasibətlər xüsusi yer tutur. Prezident İlham Əliyev dünya gücləri və qonşu dövlətlərlə münasibətlərdə tərəflərdən birinə qarşı yönəlməyən, qarşılıqlı hörmətə əsaslanan siyasət yürüdür. Həm qonşularla, həm də dünyanın böyük dövlətləri, aparıcı institutları ilə paralel şəkildə inkişaf etdirilən əlaqələr Azərbaycanın çoxşaxəli diplomatiyasının bariz nümunəsidir.

Dövlətimizin başçısının böyük məharətlə yürütdüyü enerji diplomatiyası ölkəmizin xarici siyasətinin mühüm dayaqlarından biridir. "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi strateji layihələr Azərbaycanı Avrasiyanın enerji xəritəsində əsas aktora çevirib. Eyni zamanda "yaşıl enerji" sahəsində beynəlxalq tərəfdaşlıqlar ölkənin gələcək xarici siyasət prioritetlərini formalaşdırır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmiz çoxtərəfli diplomatiya platformalarında da fəal iştirak edir. Qoşulmama Hərəkatına sədrliyi dövründə Bakı qlobal ədalət, suverenlik və inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi istiqamətində prinsipial mövqe nümayiş etdirdi və bu fəaliyyət Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı.

Ölkəmiz Türk Dövlətləri Təşkilatının sədri kimi bu qurumun da inkişafında qlobal güc mərkəzinə çevrilərək beynəlxalq siyasi-iqtisadi proseslərə təsir imkanlarının artırılmasında mühüm rol oynayır.

Azərbaycanın iqtisadi tərəfdaş seçimi prosesində müstəqil qərar qəbul etməsi üzvü olduğu daha bir qurumla münasibətlər kontekstində xüsusi maraq kəsb edir. Söhbət islam dünyasının ən proqressiv iqtisadi platformalarından biri olan D-8-dən gedir. İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Qahirədə keçirilən XI Sammitində Azərbaycanın yekdilliklə quruma üzv seçilməsi müstəqillik tariximizdə beynəlxalq diplomatik uğurlarımızın sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yaddaşlarda qalacaq. Bu hadisə Prezident İlham Əliyevin qətiyyətli və effektiv xarici siyasətinin məntiqi nəticəsi olmaqla bərabər, həm də dövlətimizin çoxtərəfli diplomatiyasının daha bir uğurudur. Azərbaycan müsəlman dövlətləri və islam aləmini təmsil edən beynəlxalq platformalarla sıx təmasdadır. İslam dünyasının nüfuzlu qurumu olan D-8-ə üzvlük həmrəylik, təəssübkeşlik və qarşılıqlı maraqların təmin olunması prinsiplərinə əsaslanan işgüzar əməkdaşlığın göstəricisidir.

Dövlətimizin başçısı hesab edir ki, Azərbaycan həmişə müsəlman aləminin dəyərli üzvü olmuşdur. Əgər İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin açıqlamalarına diqqət yetirsək, görərik ki, bütün dövrlərdə bu təşkilat, - hansı ki, bütün müsəlman ölkələrini birləşdirir, - Azərbaycanla bağlı müsbət fikirlər söyləmiş, ölkəmizə həmişə dəstək vermişdir: "Biz bütün beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də daim müsəlman ölkələrinin maraqlarını müdafiə edirik. Biz bütün təşkilatlarda, əgər hansısa təşkilatda rəhbər vəzifəyə seçim keçirilirsə və orada müsəlman ölkəsinin nümayəndəsi varsa, mütləq avtomatik olaraq, o nümayəndəyə səsimizi veririk... Yəni bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur. Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır", - Azərbaycan Prezidenti müsahibəsində xüsusi vurğulamışdır.

Humanitar və mədəni diplomatiya da cənab İlham Əliyevin apardığı xarici siyasətin ayrılmaz hissəsidir. Multikulturalizm, dinlərarası dialoq və beynəlxalq humanitar forumlar Azərbaycanın "yumşaq güc" potensialını gücləndirərək ölkənin dünyaya açıq və etibarlı tərəfdaş imicini möhkəmləndirir. Bu siyasətin uğurlarında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu da müstəsnadır.

Prezident İlham Əliyevin xarici siyasəti dəyişən qlobal şərtlərə çevik uyğunlaşan, lakin əsas prinsiplərindən geri çəkilməyən strateji xətdir. Bu siyasət Azərbaycanı beynəlxalq proseslərin passiv iştirakçısından fəal və təşəbbüskar aktora çevirərək ölkənin uzunmüddətli təhlükəsizliyinə və inkişafına xidmət edir.

### Müasir dünyanın çağırışları, əməkdaşlıq və yeni geosiyasi reallıqlar

Azərbaycan Prezidentinin həyata keçirdiyi regional siyasət son illər Cənubi Qafqazda və daha geniş Avrasiya məkanında yeni siyasi və iqtisadi reallıqlar formalaşdırıb. Bu siyasətin əsas mahiyyəti milli maraqlara söykənən, eyni zamanda regional sabitlik və əməkdaşlığı təşviq edən balanslı yanaşmadan ibarətdir.

Azərbaycan qalib dövlət olaraq bu gün regionda sülhün də əsas təşəbbüskarı kimi çıxış edir və öz niyyətinə addım-addım nail olur. Artıq Ermənistanla dayanıqlı sülhün əldə edilməsi, bununla da regionumuzun gələcək təhlükəsizliyi üçün son əsrlərin ən böyük təhdidlərindən birinin tam aradan qalxması çox realdır.

Ölkəmiz bu gün Cənubi Qafqazda nəqliyyat və enerji qovşağı kimi çıxış edir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır, region dövlətlərini qarşıdurmaya deyil, əməkdaşlığa cəlb edən real platformalar yaradır. Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsü də məhz bu baxımdan yalnız Azərbaycanın deyil, bütövlükdə regionun iqtisadi inkişafına xidmət edən layihə kimi qiymətləndirilir.

Prezident İlham Əliyevin regional siyasətində enerji diplomatiyası xüsusi yer tutur. "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş statusunu möhkəmləndirib. Eyni zamanda "yaşıl enerji" istiqamətində atılan addımlar - Xəzər dənizinin külək potensialı, bərpaolunan enerji üzrə beynəlxalq əməkdaşlıq - Azərbaycanın regional gündəliyini gələcəyə yönəldir.

Diqqətçəkən məqamlardan biri də Prezident İlham Əliyevin regionda vasitəçilərə ehtiyac olmayan dialoq modelini təşviq etməsidir. Rəsmi Bakı dəfələrlə bəyan edib və bu gün də öz mövqeyində qərarlıdır ki, Cənubi Qafqaz ölkələri problemlərini kənar müdaxilə olmadan, birbaşa danışıqlar yolu ilə həll etməlidir. Bu yanaşma Azərbaycanın özünəinamının və regional liderlik rolunun göstəricisidir.

Prezident İlham Əliyevin apardığı regional siyasət gücə deyil, güc və diplomatiyanın vəhdətinə söykənən, praqmatik və uzaqgörən siyasətdir. Bu siyasət Azərbaycanın mövqelərini möhkəmləndirməklə yanaşı, Cənubi Qafqazda uzunmüddətli sülh və əməkdaşlıq üçün real zəmin yaradır. Bugünkü regional mənzərədə ölkəmiz artıq proseslərin obyektinə yox, gündəliyi müəyyən edən subyektə çevrilib.

### Düşünülmüş siyasət, islahatlar və inkişaf xətti

Prezident İlham Əliyevin həyata keçirdiyi daxili siyasət də böyük nailiyyətlərlə müşayiət olunur və ölkədə siyasi sabitliyin möhkəmləndirilməsi, sosial rifahın yüksəldilməsi, institusional islahatların dərinləşdirilməsi ilə səciyyələnir. Bu siyasət dövlət idarəçiliyində effektivliyi artırmaqla yanaşı, vətəndaş mərkəzli yanaşmanı əsas prinsip kimi önə çıxarır.

Dövlətimizin başçısının daxili siyasət kursunun əsasında güclü dövlət - rifahlı cəmiyyət modeli dayanır. Məhz bu yanaşma nəticəsində iqtisadi artım sosial proqramlarla paralel şəkildə aparılır, əldə olunan resurslar insan kapitalının inkişafına yönəldilir. Son illərdə minimum əməkhaqqının və pensiyaların mərhələli şəkildə artırılması, sosial müavinətlərin genişləndirilməsi əhalinin həssas təbəqələrinin müdafiəsini gücləndirib.

Daxili siyasətin mühüm istiqamətlərindən biri idarəetmə və kadr islahatlarıdır. Prezident İlham Əliyev dövlət idarəçiliyində çevikliyin, peşəkarlığın artırılması məqsədilə gənc, müasir düşüncəli kadrları irəli çəkir. Struktur islahatları, elektron xidmətlərin genişləndirilməsi və digər effektiv şəffaflıq mexanizmləri vətəndaş-dövlət münasibətlərində yeni keyfiyyət mərhələsi yaradıb.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi Prezidentin daxili siyasətində xüsusi yer tutur. Qeyri-neft sektorunun inkişafı, sənaye parkları və aqroparkların yaradılması, regionların sosial-iqtisadi inkişaf proqramları ölkə daxilində tarazlı inkişafı təmin edir. Regionlarda infrastruktur layihələrinin icrası iş yerlərinin açılmasına, əhalinin məşğulluğuna və sosial rifahının yüksəlməsinə xidmət edir.

Bu gün daxili siyasətin əsas prioritetlərindən biri də işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Bu istiqamətdə aparılan ardıcıl və planlı işlər sayəsində Qarabağ və Şərqi Zəngəzur müasir inkişaf modelinə uyğun şəkildə yenidən qurulur. "Böyük qayıdış" proqramı ardıcıl olaraq həyata keçirilir, keçmiş məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar.

Prezident İlham Əliyevin daxili siyasətində ictimai həmrəylik və milli birlik xüsusi əhəmiyyət daşıyır. Multikulturalizm və tolerantlıq dəyərlərinin qorunması, milli-mənəvi irsin təbliği cəmiyyətdə sabitliyin sosial əsaslarını möhkəmləndirir. Dövlətin milli ideologiyası müasirliklə ənənənin uzlaşdırılmasına söykənir. Bu gün aparılan daxili siyasət də qısamüddətli qərarlara deyil, uzunmüddətli inkişaf strategiyasına əsaslanır. Bu siyasət Azərbaycanı regional miqyasda güclü dövlətə çevirməklə yanaşı, ölkə daxilində sosial sabitlik, davamlı iqtisadi inkişaf və vətəndaş rifahının təmin olunmasına xidmət edir.

### Vətəndaş rifahına yönəlmiş dövlət xətti

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi imkanları genişləndikcə bu imkanlar vətəndaşın sosial rifahına yönəldilir. Cənab İlham Əliyev bu gün Azərbaycan nümunəsində dünyanın ən mükəmməl sosial rifah dövlətlərindən birini qurur. Ölkə rəhbərimizin həyata keçirdiyi sosial siyasət Azərbaycanda aparılan ümumi inkişaf strategiyasının əsas tərkib hissəsidir. Bu siyasətin başlıca məqsədi iqtisadi artımın nəticələrini birbaşa vətəndaşların rifahına yönəltməklə yanaşı, eyni zamanda sosial ədaləti və cəmiyyətin dayanıqlı inkişafını təmin etməkdir.

Prezident İlham Əliyevin sosial siyasət konsepsiyasının mərkəzində insan amili durur. Son illərdə əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin dəfələrlə artırılması dövlətin sosial öhdəliklərinə sadiqliyinin göstəricisidir. Xüsusilə aztəminatlı ailələr, şəhid ailələri, müharibə veteranları və sağlamlıq imkanları məhdud şəxslər üçün nəzərdə tutulan sosial paketlər əhalinin həssas təbəqələrinin müdafiəsini xeyli gücləndirib.

Sosial siyasətin mühüm istiqamətlərindən biri məşğulluğun artırılması və layiqli əmək şəraitinin yaradılmasıdır. Özünüməşğulluq proqramları, peşə hazırlığı layihələri və kiçik sahibkarlığın dəstəklənməsi minlərlə vətəndaşın daimi gəlir mənbəyi əldə etməsinə imkan yaradıb. Bu yanaşma sosial yardımı passiv asılılıqdan aktiv məşğulluğa keçid modeli kimi xarakterizə edir.

Prezident İlham Əliyevin sosial siyasətində təhsil və səhiyyə sahələri xüsusi yer tutur. Yeni məktəblərin və tibb müəssisələrinin tikintisi, mövcud infrastrukturun yenilənməsi, müəllim və həkimlərin sosial müdafiəsinin gücləndirilməsi insan kapitalının inkişafına xidmət edir. Dövlət proqramları çərçivəsində regionlarda bu xidmətlərin əlçatanlığının artırılması sosial bərabərliyin təmin olunmasına yönəlib.

Vətən müharibəsindən sonra formalaşan sosial gündəlikdə şəhid ailələri və qazilərin sosial təminatı ən mühüm prioritetlərdən biri kimi ön plana çıxıb. Mənzil və avtomobillə təminat, tibbi-reabilitasiya xidmətləri, məşğulluq imkanlarının genişləndirilməsi bu kateqoriyadan olan vətəndaşlara dövlət qayğısının real ifadəsidir.

Regionların sosial-iqtisadi inkişafı da Prezidentin sosial siyasətinin əsas sütunlarından biridir. İnfrastruktur layihələri, yol, su, qaz və elektrik təminatının yaxşılaşdırılması regionlarda yaşayış keyfiyyətini yüksəldir, paytaxtla bölgələr arasında sosial fərqlərin azalmasına şərait yaradır.

Prezident İlham Əliyevin apardığı sosial siyasət dayanıqlı, ünvanlı və sosial ədalətə əsaslanan dövlət modelini formalaşdırır. Bu siyasət yalnız bugünkü problemlərin həllinə deyil, gələcək üçün güclü sosial baza yaradılmasına xidmət edərək Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının mühüm dayağı kimi çıxış edir.

Nəticə etibarilə Prezident İlham Əliyevin fəaliyyəti müasir Azərbaycanın güclü, müstəqil və perspektivli dövlət kimi formalaşmasını təmin edən əsas amillərdən biridir. Daxili sabitlik, sosial ədalət, iqtisadi inkişaf, eləcə də tarazlı və prinsipial xarici siyasət bir-birini tamamlayan vahid strateji xətt təşkil edir. Bu xətt Azərbaycanın yalnız bugünkü çağırışlara cavab verməsinə deyil, həm də gələcək nəsillər üçün dayanıqlı inkişaf təməli yaratmasına xidmət edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan milli maraqlara söykənən, qlobal proseslərdə fəal mövqe tutan, vətəndaş rifahını əsas prioritet kimi müəyyən edən dövlət modeli ilə inkişaf yolunu inamla davam etdirir. Əsas niyyət, əsas məqsəd Cənubi Qafqazı sülh, əməkdaşlıq, davamlı inkişaf məkanına çevirməkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2026-cı il üçün pul siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və çoxşaxəli siyasət nəticəsində 2025-ci ildə də ölkəmiz siyasi və sosial-iqtisadi sferalarda ciddi uğurlara nail olmuşdur. İl ərzində ölkədə makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım davam etmiş və Azərbaycanın beynəlxalq kredit reytinqi yaxşılaşmışdır.*

*Azərbaycan Respublikası Mərkəzi Bankı 2025-ci ildə də öz fəaliyyətini başlıca mandatı olan qiymət sabitliyinə yönəltmişdir. Hesabat ilində illik inflyasiya hədəf diapazonunda (4±2%) olmuşdur. Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi istiqamətində islahatlar davam etdirilmişdir. Nəticədə pul siyasətinin faiz kanalının ötürücülüyü aktivləşməyə başlamışdır.*

*2026-cı ildə də Mərkəzi Bankın pul siyasətinin başlıca hədəfi inflyasiyanın hədəf diapazonunda saxlanılması olacaqdır. Bu məqsədlə qərarlar makroiqtisadi proqnozlar əsasında veriləcək, inflyasiyanın tələbyönümlü və təklifyönümlü risk amilləri daim diqqətdə saxlanılacaqdır. Pul siyasətinin inflyasiyaya təsir potensialının artırılması istiqamətində islahatlar davam etdiriləcəkdir.*

## I. 2025-ci ildə həyata keçirilən pul siyasəti və onun nəticələri

*2025-ci ildə də sabit və aşağı inflyasiya pul siyasətinin əsas məqsədi olmuşdur. Pul siyasəti monetar şərait vasitəsilə təsir göstərməklə inflyasiyanın hədəf daxilində qalmasında mühüm rol oynamışdır.*

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin noyabrında 12 aylıq inflyasiya 5.5% olmuşdur. O cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə illik 7.1%-lik inflyasiya qeydə alınmış, qeyri-qida məhsulları 2.5% bahalaşmışdır. Ödənişli xidmətlər üzrə illik qiymət artımı isə bu dövrdə 5.7% təşkil etmişdir. Tənzimlənən qiymətlərin, həmçinin kənd təsərrüfatı məhsullarının mövsümi xarakter daşıyan qiymət dəyişimi nəzərə alınmadan hesablanan illik baza inflyasiya noyabrda 4.8% təşkil etmişdir.

Cari ildə inflyasiyaya bir sıra təklif və tələb amilləri təsir etmişdir. Xarici mənşəli xərc amillərinin inflyasiyanın dinamikasına təsiri əhəmiyyətli olmuşdur. Qiymətləndirmələrə görə 2025-ci ilin noyabr ayında ölkədə illik inflyasiyaya ticarət tərəfdaşlarındakı inflyasiya 2.87 faiz bəndi, nominal effektiv məzənnə isə 0.38 faiz bəndi artırıcı təsir etmişdir. Dövr ərzində daxili təklif (kənd təsərrüfatı istehsalçı qiymətləri və s.) və tələb (ev təsərrüfatlarının istehlakı, dövlət istehlakı və s.) amillərinin də inflyasiyaya təsiri ümumilikdə artırıcı olmuşdur.

Valyuta bazarındakı sabitlik ölkədə qiymət sabitliyinin təmin olunmasında həlledici rol oynamışdır. 2025-ci ilin ötən dövründə nağd və nağdsız seqmentlər üzrə ümumilikdə valyuta bazarında təklif tələbi üstələmişdir. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsi son 12 ayda 2.1 faiz bəndi azalaraq 2025-ci ilin noyabrında 29%-ə enmişdir. Əlverişli xarici sektor göstəriciləri valyuta bazarında tarazlığı dəstəkləmişdir. Tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 2025-ci ilin 9 ayında 3 mlrd. ABŞ dolları və ya ÜDM-in 5.4%-i səviyyəsində olmuşdur. Bu şəraitdə ölkənin strateji valyuta ehtiyatları 11 ayda 17.7% artaraq 83.6 mlrd. ABŞ dollarına çatmışdır. O cümlədən Mərkəzi Bankın valyuta ehtiyatları 4.3% artaraq 11.4 mlrd. ABŞ dollarına yüksəlmişdir.

2025-ci ildə pul siyasətinə dair qərarlar makroiqtisadi proqnozlar, inflyasiyanın risk amillərində baş verən dəyişikliklər, valyuta bazarındakı vəziyyət və xarici ölkələrdə faizlərin azaldılması üzrə gözləntilər nəzərə alınmaqla verilmişdir. Dövr ərzində faiz dəhlizi parametrləri öncədən nəzərdə tutulmuş qrafik üzrə 8 dəfə müzakirə edilmişdir. Mərkəzi Bankın İdarə Heyətinin pul siyasətinə həsr edilmiş 6 iclasında uçot dərəcəsinin sabit saxlanılması, 2 iclasında isə azaldılması barədə qərar qəbul edilmişdir. Ümumilikdə cari il ərzində pul siyasəti yumşaldılmış, uçot dərəcəsi 7.25%-dən 6.75%-ə, faiz dəhlizinin yuxarı həddi 8.25%-dən 7.75%-ə, dəhlizin aşağı həddi isə 6.25%-dən 5.75%-ə endirilmişdir. Hazırda uçot dərəcəsi son 4 ilin minimum səviyyəsindədir və neytral faiz dərəcəsinə yaxındır.

2025-ci il ərzində pul siyasəti alətləri pul bazarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyi nəzərə alınmaqla tətbiq edilmişdir. Bu əməliyyatlar təminatsız pul bazarında faizlərin Mərkəzi Bankın faiz dəhlizinin dəyişiminə adekvat reaksiya verməsini təmin etmişdir. Son aylarda uçot dərəcəsi ilə pul siyasətinin yardımçı əməliyyat hədəfi olan təminatsız pul bazarında 1 günlük əməliyyatlar üzrə orta faiz dərəcəsi - AZIR arasında fərq minimuma enmişdir. AZIR indeksinin orta günlük səviyyəsi oktyabrda 6.89%, noyabrda 6.91%, dekabrın ötən dövründə isə 6.84% olub. Ümumilikdə 11 ay ərzində uçot faiz dərəcəsi ilə AZIR indeksi arasındakı standart kənarlaşma 0.29 faiz bəndi (o cümlədən son 3 ayda 0.04 faiz bəndi) olub ki, bu da beynəlxalq təcrübə baxımından məqbul hesab edilir. Hesabat dövründə uçot dərəcəsinin AZIR vasitəsilə digər faizlərə təsir göstərməsi də müşahidə edilmişdir. Belə ki, iyul ayında uçot dərəcəsinin azaldılması qiymətli kağızlar bazarında gəlirliliyin, eləcə də yeni depozit və kredit faizlərinin azalması ilə müşayiət olunmuşdur.

Hesabat dövründə banklararası bazarın həm təminatsız, həm də təminatlı sektorunda aktivlik yüksək olaraq qalmışdır. 11 ayda Blumberq platformasında banklar arasında milli valyutada 61.8 mlrd. manat məbləğində 3482 əqd bağlanmışdır. Bu dövrdə banklararası repo bazarında 3.0 mlrd. manat həcmində 287 əqd bağlanmışdır.

Cari ilin aprel ayından başlayaraq Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabı qalığı kommersiya banklarında depozit şəklində yerləşdirmişdir ki, bu da bank sektorunda likvidliyin avtonom amillər hesabına artımına səbəb olmuşdur. Bu şəraitdə AZIR-ı uçot dərəcəsinə yaxın idarə etmək üçün 7 günlük depozit əməliyyatından başlıca açıq bazar əməliyyatı kimi istifadə edilmişdir. 30 noyabr 2025-ci il tarixinə açıq bazar əməliyyatları üzrə sterilizasiya portfelinin tərkibində 7 günlük depozit portfelinin payı 87% olmuşdur.

Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi işləri hesabat dövründə də davam etdirilmişdir. Belə ki, qısamüddətli likvidliyi daha effektiv idarə etmək üçün daimi imkan depozit və daimi imkan əks-repo əməliyyatlarının müddəti 1 günlükdən 1 gecəliyə dəyişdirilmiş, not hərraclarında minimum iştirakçı sayına qoyulan tələb aradan qaldırılmış, sterilizasiyayönümlü açıq bazar əməliyyatı olan 7 günlük repo 7 günlük depozitlə əvəz edilmişdir.

Dövr ərzində Mərkəzi Bank banklararası pul bazarında gedən prosesləri və qabaqcıl beynəlxalq təcrübəni təhlil etmişdir. Təhlillərin nəticələrini nəzərə alaraq Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) ekspertləri ilə sıx əməkdaşlıq çərçivəsində 2025-ci ilin mayında AZIR indeksinin hesablanmasının daha təkmil qaydaları təsdiq edilmişdir. Bu qayda AZIR-ın istinad dərəcəsi kimi maliyyə bazarı iştirakçıları tərəfindən davamlı istifadəsinə xidmət edir.

Cari ildə AYİB tərəfindən milli valyutada AZIR indeksinə bağlı üzən faizli istiqrazların yerləşməsinə başlanılmışdır. Bu çərçivədə 50 mln. manat həcmində ilk tranş açıq təklif üsulu ilə uğurla yerləşdirilib. Bu, Azərbaycanın maliyyə bazarı üçün böyük nailiyyət olmaqla yanaşı, həm də AZIR indeksinin etibarlı istinad faizi kimi istifadəsinin göstəricisidir.

Pul siyasətinin ötürücülüyünün gücləndirilməsi, xüsusilə də pul bazarlarının inkişafı istiqamətində islahatlar 2025-ci ildə ölkənin beynəlxalq kredit reytinqinin yüksəlməsinə də töhfə vermişdir.

Ötən illərdə olduğu kimi, cari ildə də Mərkəzi Bankda təhlil və proqnozlaşdırma işinin təkmilləşdirilməsi davam etdirilmişdir. Beynəlxalq təcrübə əsasında model çantası zənginləşdirilmiş, mövcud modellər təkmilləşdirilmiş, modellərin proqnoz keyfiyyətinin artırılması istiqamətində metodoloji işlər aparılmışdır. Tədqiqat işlərinin əhatə dairəsi genişləndirilmiş, pul siyasətinin ötürücülüyü üzrə müxtəlif kanallar, o cümlədən faiz kanalı ilə bağlı qiymətləndirmələr dərinləşdirilmişdir.

Pul siyasətinin effektiv kommunikasiyası hesabat dövründə də diqqətdə saxlanılmışdır. Pul siyasəti qərarlarına dair press-relizlər müvafiq analitik şərhlərlə dərc edilmiş, öncədən açıqlanmış tarixlər üzrə mətbuat konfransları keçirilmişdir. Canlı yayımlanan mətbuat konfranslarında əsas makroiqtisadi göstəricilərin proqnozları və faktiki inflyasiyanın amillər üzrə bölgüsü açıqlanmışdır. Qərarlar barədə Mərkəzi Bankın rəsmi internet səhifəsi ilə yanaşı, sosial şəbəkələrdə infoqrafika formasında paylaşımlar da edilmişdir. 2025-ci ildə Pul siyasəti icmalı rüblük əsasda dərc olunmuş, gəlirlilik əyrisinin həftəlik əsasda qiymətləndirilməsi və yayımlanması təmin edilmişdir. Sahələrarası maliyyə axınlarının təhlilinə dair rüblük hesabatlar, interaktiv statistik bölmə, yerinə yetirilmiş tədqiqat işləri, proqnoz modellər barədə sənəd rəsmi saytda yerləşdirilmişdir. Maliyyə sektorunun nümayəndələri, eləcə də müstəqil iqtisadçı ekspertlərlə görüşlərdə pul siyasəti qərarları ilə bağlı müzakirələr aparılmışdır. Media nümayəndələri və əhalinin müxtəlif hədəf qrupları üçün maarifləndirici tədbirlər davam etdirilmişdir. Bu təşəbbüslər pul siyasətinin mahiyyəti və alətlərinin işləmə mexanizmi barədə ictimaiyyətin məlumatlılığının artırılmasına və Mərkəzi Bankın kommunikasiya effektivliyinin gücləndirilməsinə mühüm töhfə vermişdir.

2025-ci ildə fiskal və pul siyasətləri arasında koordinasiya makroiqtisadi sabitliyin qorunmasına əhəmiyyətli töhfə vermişdir. Məsuliyyətli fiskal siyasət qiymət sabitliyinin təmin olunmasında mühüm rol oynamış, hər iki siyasət istiqamətinin məqsədləri bir-birini tamamlamışdır. Fiskal qaydalara sadiqlik və fiskal siyasət parametrlərinin əvvəlcədən elan edilməsi Mərkəzi Bankın pul siyasəti qərarlarının vaxtında və adekvat qəbul edilməsinə şərait yaratmışdır.

## II. 2026-cı ildə pul siyasəti

### 2.1. 2026-cı ildə pul siyasətinin məqsədi və çərçivəsi

*2026-cı ildə Mərkəzi Bankın pul siyasəti "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda müəyyən edilmiş makroiqtisadi sabitlik və dayanıqlılıq prioritetlərinin reallaşmasına yönəldiləcəkdir. Əsas məqsəd inflyasiyanın hədəf daxilində saxlanılması olacaqdır. Pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi istiqamətində də islahatlar davam etdiriləcəkdir.*

Pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4±2% səviyyəsində saxlamaqdan ibarət olacaqdır. Əvvəlki illərdə olduğu kimi, növbəti ildə də hədəf göstəricisi Dövlət Statistika Komitəsi tərəfindən hesablanan istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi olacaqdır.

İnflyasiyanın hədəf daxilində idarə edilməsi davamlı iqtisadi artımın vacib şərtlərindən biridir. Bu ev təsərrüfatlarının, həmçinin şirkətlərin gəlir və əmanətlərinin qorunması üçün vacibdir. Sabit və aşağı inflyasiya milli valyutaya inamı və onun alıcılıq qabiliyyətini artırır, bununla da iqtisadiyyatda xarici valyuta ilə ifadə olunmuş aktiv və öhdəliklərin payını azaltmağa kömək edir. Bütün bunlar iqtisadiyyatın xarici mühitdəki dəyişikliklərə davamlılığını artırır.

Mərkəzi Bankın son (oktyabr 2025) proqnozlarına görə, 2026-cı ildə illik inflyasiyanın 5.7% olacağı gözlənilir ki, bu da hədəf diapazonu daxilindədir. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və beynəlxalq reytinq agentliklərinin proqnozları da inflyasiyanın növbəti ildə əsasən bu diapazonda qalacağını göstərir.

Mərkəzi Bank 2026-cı ildə də inflyasiya amillərinin hərtərəfli təhlili əsasında özünün inflyasiya proqnozlarını hər rüb yeniləyəcəkdir. Eyni zamanda əhali və müəssisələr arasında keçirilən sorğular əsasında ev təsərrüfatlarının və biznes subyektlərinin inflyasiya gözləntilərinin qiymətləndirilməsi davam etdiriləcəkdir.

Mərkəzi Bank növbəti ildə də pul siyasətinə dair qərarlar verərkən ölkə iqtisadiyyatına və inflyasiyaya təsir göstərə biləcək daxili və xarici amilləri, habelə riskləri hərtərəfli qiymətləndirəcəkdir. Ümumilikdə, son illərdə inflyasiyanın risk balansında xarici amillərin payı əhəmiyyətli artmışdır. Ortamüddətli dövrdə bu amillərin payının yüksək olaraq qalacağı gözlənilir. Geosiyasi gərginliklər və qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarları ilə bağlı qeyri-müəyyənlikləri hələ də yüksək səviyyədə saxlayır. Əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Bu risk ticarət tərəfdaşlarında inflyasiya prosesləri və nominal effektiv məzənnənin dinamikasından asılı olacaqdır. Daxili risk faktorları isə əsasən təklif – xərc amilləri hesabına formalaşmaqdadır. Ortamüddətli dövr üzrə konservativ makrofiskal çərçivə və kredit qoyuluşları üzrə gözlənilən artım templəri məcmu tələbin izafi artımı riskini azaldır.

Mərkəzi Bank daxili və xarici qeyri-müəyyənlikləri nəzərə alaraq makroiqtisadi proqnozları baza ssenari ilə yanaşı, alternativ ssenarilər üzrə hazırlanması təcrübəsini davam etdirəcəkdir. Bu da inflyasiya risklərinin reallaşdığı təqdirdə çevik siyasət reaksiyasını təmin edəcəkdir.

Növbəti ildə pul siyasəti mövcud rejim çərçivəsində həyata keçiriləcəkdir. Məzənnə sabitliyi qiymət sabitliyinin başlıca lövbəri kimi çıxış edəcəkdir. Proqnozlara görə növbəti ildə tədiyə balansının cari əməliyyatlar hesabının profisitli olması valyuta bazarında tarazlığı dəstəkləyəcəkdir. Baza ssenari üzrə proqnozlara görə, 2026-cı ildə cari əməliyyatlar hesabının profisiti 3 mlrd. ABŞ dolları səviyyəsində olmaqla ÜDM-in 3.7%-i səviyyəsində gözlənilir. Mərkəzi Bank növbəti ildə də özünün valyuta ehtiyatlarının kifayətlilik meyarlarına uyğun saxlanılmasını və onun idarə edilməsinin təkmilləşdirilməsini diqqətdə saxlayacaqdır.

Pul siyasəti alətlərinin tətbiqi zamanı maliyyə bazarlarında baş verən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınacaqdır. Alətlərin istifadəsi pul siyasətindən kənar amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına xidmət edəcəkdir.

Mərkəzi Bankda təhlil və proqnozlaşdırma potensialının artırılması 2026-cı ildə də diqqətdə saxlanılacaqdır. Proqnozlaşdırma və siyasət təhlili sistemi çərçivəsində model aparatı qabaqcıl beynəlxalq təcrübələr əsasında mütəmadi təkmilləşdiriləcək, tədqiqatların əhatə dairəsi və analitik dərinliyi artırılacaqdır. Pul siyasəti qərarlarının qəbulunda nəzəri əsaslara söykənən və ekonometrik baxımdan adekvat model nəticələrindən istifadə artırılacaqdır. Böyük verilənlərin daha səmərəli təhlili, maşın öyrənməsi yanaşmalarının tətbiqinin genişləndirilməsi Mərkəzi Bankın prioritet istiqamətlərindən biri olacaqdır.

İqtisadi subyektlərin gözləntilərinə və davranışlarına təsir etmək üçün pul siyasətinin effektiv kommunikasiyası növbəti ildə də diqqət mərkəzində olacaqdır. Kommunikasiya fəaliyyətləri makroiqtisadi sabitliyin gücləndirilməsinə, hesabatlılığın artırılmasına, pul siyasətinin ictimaiyyət tərəfindən daha yaxşı anlaşılmasına, Mərkəzi Banka inamın möhkəmləndirilməsinə və şəffaflığın təmin edilməsinə xidmət edəcəkdir. Kommunikasiyada başlıca hədəf qrupları maliyyə bazarı iştirakçıları, media, akademik dairələr, iqtisadçı ekspertlər, sahibkarlar, hökumət və geniş ictimaiyyət olacaqdır. 2026-cı ildə öncədən ictimaiyyətə açıqlanmış qrafikə uyğun olaraq Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri dərc ediləcək və müntəzəm mətbuat konfransları keçiriləcəkdir. Rüblük əsasda analitik icmalların açıqlanması davam etdiriləcəkdir. İctimaiyyətin məlumatlılığının və maliyyə savadlılığının artırılması istiqamətində sosial media platformalarında pul siyasətinin işləmə mexanizmini və tətbiq olunan alətləri izah edən qısa açıqlamalar paylaşılacaqdır.

Mərkəzi Bank makroiqtisadi proqnozlarını və faiz dərəcələri üzrə qərarlarını formalaşdırarkən planlaşdırılan fiskal siyasət parametrlərini nəzərə alacaqdır. İqtisadi Şura qarşıdakı ildə də təşkilatlararası makroiqtisadi koordinasiyanın təmin edilməsində əsas və vacib rol oynayacaqdır.

Pul siyasətinin Mərkəzi Bankın digər fəaliyyət istiqamətləri, xüsusən makroprudensial siyasətlə uzlaşdırılması davam etdiriləcəkdir. Bu uzlaşdırma qurumun daxili kollegial orqanları, o cümlədən Pul Siyasəti və Maliyyə Sabitliyi Komitəsi vasitəsilə həyata keçiriləcəkdir. Ölkədə maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, nağdsız ödənişlərin genişləndirilməsi növbəti ildə də pul siyasətinin effektivliyinə və maliyyə sisteminin dayanıqlılığına müsbət təsir edən amillər olacaqdır.

İqlim dəyişikliklərinin makroiqtisadi təsirləri və "yaşıl maliyyə təşəbbüsləri"nin dəstəklənməsi məsələləri diqqətdə saxlanılacaqdır. İqlim dəyişikliklərinin inflyasiya dinamikasına, iqtisadi artıma və maliyyə sektoruna birbaşa və dolayı təsirləri üzrə qiymətləndirmələr davam etdiriləcəkdir.

Mərkəzi Bankın rəqəmsal valyutasının tətbiqi üzrə siyasət məqsədlərinin müəyyən edilməsi və müvafiq yol xəritəsinin hazırlanması üzərində işlər davam etdiriləcəkdir. Bu işlərə prioritet istifadə istiqamətlərinin müəyyənləşdirilməsi, potensial risk və faydaların qiymətləndirilməsi, eləcə də maliyyə sektoru üzrə daha geniş strategiyaya uyğunlaşdırılmış mərhələli tətbiq planının hazırlanması daxildir.

### 2.2. 2026-cı ildə pul siyasətinin əməliyyat hədəfləri və alətləri

*2026-cı ildə Mərkəzi Bank pul siyasətinin hədəflərinə nail olmaq üçün sərəncamında olan bütün alətlərdən çevik və adekvat istifadə edəcəkdir. Pul siyasəti qərarlarının real iqtisadiyyata ötürücülüyünün artırılması məqsədilə köməkçi pul siyasəti lövbərinin (AZIR) təsirlərinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.*

2026-cı ildə də qiymət sabitliyinin başlıca lövbəri olan manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən ediləcəkdir. Mərkəzi Bankda Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) valyuta satışları üzrə hərracların keçirilməsi davam etdiriləcəkdir. Mərkəzi Bank və fiskal orqanlar (ARDNF və Maliyyə Nazirliyi) arasında effektiv koordinasiya valyuta bazarının tarazlı fəaliyyətinə dəstək verəcəkdir.

2026-cı ildə də monetar şəraitin formalaşmasında faiz dəhlizi mühüm rol oynamaqda davam edəcək və pul bazarında qısamüddətli faizlər pul siyasətinin yardımçı əməliyyat hədəfi olaraq istifadə ediləcəkdir. Banklararası pul bazarındakı faizlərin Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət etməsi üçün Mərkəzi Bank arsenalındakı bütün alətlərdən adekvat və çevik şəkildə istifadə edəcəkdir. Təminatsız bazarda əqdlər üzrə orta çəkili faiz göstəricisi olan AZIR indeksinin kəskin dəyişkənliyinə yol verilməyəcək və onun Mərkəzi Bankın uçot dərəcəsinə yaxın səviyyədə hərəkətinə xüsusi diqqət yetiriləcəkdir. Bu məqsədlə daimi imkan alətləri və açıq bazar əməliyyatları fəal şəkildə tətbiq ediləcəkdir.

Daimi imkan alətləri növbəti ildə də banklararası pul bazarında faizlərin faiz dəhlizi daxilində formalaşmasını təmin edəcəkdir. Daimi imkan aləti olaraq gecəlik depozit və gecəlik əks-repo əməliyyatlarından istifadə ediləcəkdir. Bu alətlər üzrə faiz dərəcələri müvafiq olaraq faiz dəhlizinin aşağı və yuxarı hədlərinə bərabər olacaqdır.

Açıq bazar əməliyyatları olaraq sterilizasiya məqsədli müxtəlif müddətli not, habelə 7 günlük əməliyyatlar üzrə hərraclar keçiriləcəkdir. Bu alətlər üzrə faiz dərəcələri Mərkəzi Bankın İdarə Heyətinin müəyyən etdiyi qaydada formalaşacaqdır. Əvvəlki illərdə olduğu kimi növbəti ildə də alətlərin tətbiq olunma qaydaları maliyyə bazarı iştirakçılarına öncədən açıqlanacaqdır. Açıq bazar əməliyyatlarının istiqaməti (sterilizasiya və ya emissiya) bank sisteminin likvidlik mövqeyindən asılı olaraq müəyyənləşdiriləcəkdir. Açıq bazar əməliyyatlarının kəmiyyət parametrlərinə və müddətlərinə dair qərarlar bank sisteminin likvidlik mövqeyindən (izafi likvidlik və likvidlik çatışmamazlığı) asılı olaraq operativ şəkildə veriləcəkdir. Bu qərarlar əməliyyatlar keçirilməzdən öncə müvafiq bazar iştirakçılarına kommunikasiya ediləcəkdir.

Növbəti ildə də bank sisteminin likvidlik mövqeyinin müntəzəm monitorinqi və proqnozlaşdırılması davam etdiriləcəkdir. Likvidliyin monitorinqi və proqnozlaşdırılması sahəsində fiskal orqanlarla informasiya mübadiləsinin daha da gücləndirilməsi nəzərdə tutulur.

Pul siyasəti alətlərinin təkmilləşdirilməsi və pul bazarının inkişafı istiqamətində tədbirlər 2026-cı ildə də davam etdiriləcəkdir. Bu zaman beynəlxalq maliyyə təşkilatları və bank ictimaiyyəti ilə məsləhətləşmələr davam etdiriləcəkdir. Qeyd olunan istiqamətdə islahatlar ölkədə maliyyə alətlərinin diversifikasiyasını, bazar likvidliyinin artmasını və ölkə iqtisadiyyatının dayanıqlı maliyyələşməsini daha da gücləndirəcəkdir.

## Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki

2026-cı ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

4 fevral
2 aprel
6 may
24 iyun
5 avqust
23 sentyabr
4 noyabr
23 dekabr

2026-cı ilin 4 fevral, 6 may, 5 avqust və 4 noyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaq, həmçinin həmin günlərdə ekspertlərlə görüşlər keçiriləcəkdir. Qərarlar elan olunduqdan sonrakı iş günündə qüvvəyə minəcəkdir.

# Azərbaycan Din Xadimlərinin II Forumunun açılış mərasimi olub

**Dekabrın 24-də Bakıda Azərbaycan Din Xadimlərinin II Forumunun açılış mərasimi keçirilib.**





AZƏRTAC xəbər verir ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində təşkil edilən forum "Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı" mövzusuna həsr olunub.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Vətən müharibəsində qazanılan Qələbənin beşinci ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Forumda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, Vətənimiz tarixən müxtəlif sivilizasiyaların qovuşduğu, fərqli etnosların və dinlərin bir ailə kimi, qarşılıqlı hörmət və sevgi şəraitində yaşadığı nadir mənəviyyat mərkəzlərindən biri olub. Bu coğrafiyada tolerantlıq hər bir azərbaycanlının mənəvi dünyasına həkk olunmuş həyat tərzidir. Qədim Qafqaz Albaniyasından bizə miras qalan məbədlər, islamın gəlişi ilə mənəvi dünyamızın formalaşmasına güclü təsir göstərən əzəmətli minarələr, sinaqoqlar və kilsələr vahid, bölünməz və zəngin mənəvi irsimizin əsas dayaqlarıdır. O bildirib ki, Azərbaycanın dövlətçilik salnaməsi yalnız siyasi və iqtisadi nailiyyətlərlə deyil, eyni zamanda sarsılmaz mənəvi dayaqlara, inanc və vicdan azadlığına hörmət və sadiqlik prinsiplərinə söykənən zəngin dəyərlər sistemi ilə səciyyələnir.

Türkiyə Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş qeyd edib ki, tarix boyu bəşəriyyət daim sülh və etimad axtarışında olub: "Bu səbəbdən Uca Allah, ilk insandan başlayaraq bu axtarışa rəhbərlik edəcək elçilər göndərib. İnsanın həm özü ilə, həm də ətrafındakı bütün varlıqlarla münasibətlərinin bu nizam çərçivəsində qorunması tövsiyə edilib. Yer üzündə sülh və etimad mühitinin bərqərar olması isə yalnız əsas hüquq və azadlıqların təmin edilməsi ilə mümkündür". Onun sözlərinə görə, islam dini bütün insanların fitrətdən gələn hüquq və azadlıqlarını - din, dil, irq və cinsiyyət fərqi qoymadan toxunulmaz qəbul edib. Bu hüquqlara yönələn ədalətsiz müdaxilələrə qarşı isə dini, hüquqi və mənəvi çərçivədə qəti prinsiplər müəyyən edib.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva qeyd edib ki, multikulturalizm və tolerantlıq azərbaycanlıların tarixən formalaşmış həyat tərzi olmaqla, bu gün milli kimliyindən, dilindən və dinindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. O vurğulayıb ki, Azərbaycan tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müsbət təcrübələri təbliğ etməklə yanaşı, dini konfessiyaların nümayəndələrinin bir araya gəlməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. S.Əliyeva diqqətə çatdırıb ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycan Konstitusiyasının insan hüquq və azadlıqlarının ali təminatçısı kimi rolunu bir daha ön plana çıxarıb. Onun sözlərinə görə, Konstitusiyada dünyəvi dövlət prinsipləri, vicdan azadlığı, dini etiqadların qanun qarşısında bərabərliyi və ayrı-seçkiliyin yolverilməzliyi aydın şəkildə təsbit olunub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, Azərbaycan tarixən müxtəlif dinlərin və mədəniyyətlərin sülh, qarşılıqlı hörmət və etimad şəraitində birgə yaşadığı unikal məkan olub. O bildirib ki, bu forum müəyyən olunmuş mövzu üzrə müzakirə platforması olmaqla yanaşı, Azərbaycan cəmiyyətinin mənəvi dayaqlarını, ailə dəyərlərini və insan amilini qorumağa yönəlmiş ortaq məsuliyyətimizin ifadəsidir. "Prezident İlham Əliyevin müəyyən etdiyi dövlət siyasətinin mərkəzində məhz güclü ailə, sağlam mənəviyyat və sosial ədalət dayanır. Azərbaycan Respublikası artıq 30 illiyini qeyd etdiyimiz Konstitusiyamızda da əksini tapdığı kimi dünyəvi dövlətdir. Lakin bu dünyəvilik milli-mənəvi dəyərlərdən uzaqlaşma demək deyil, əksinə, din və dövlət münasibətlərinin balanslı, konstitusion əsaslar üzərində qurulması cəmiyyətimizin sabitliyini, multikultural harmoniyasını və insan ləyaqətinə hörmətini təmin edir", - deyə Dövlət Komitəsinin sədri qeyd edib.

Qazaxıstan Respublikası Parlamenti Senatının üzvü Yernur Aitkenov nəzərə çatdırıb ki, ölkəsində Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsinə və ardıcıl inkişafa yönəlmiş genişmiqyaslı islahatlar böyük diqqət və maraqla izlənilir. Müstəqilliyin ilk illərindən etibarən Qazaxıstan Azərbaycanla həqiqi dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafına əhəmiyyət verib. Bugünkü tədbirin xüsusi əhəmiyyət daşıdığını qeyd edən Yernur Aitkenov bunun əməkdaşlıq üçün yeni üfüqlər açdığını və dinlərarası razılaşmanın təmin edilməsi sahəsində beynəlxalq təcrübənin zənginləşdirilməsinə töhfə verdiyini bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini müfti Hacı Salman deyib ki, əgər biz Azərbaycandakı tolerantlıq ənənələrini qorumaq istəyiriksə, yad təriqətlərin təsirinə qarşı güclərimizi birləşdirməliyik. Bu təriqətlər bizi öz dini dəyərlərimizə yadlaşdırır. Onun sözlərinə görə, bu gün yad təriqətlər fərqli formalarda və yeni fikirlər altında gəlsələr də, məqsədləri dəyişmir. Buna görə də cəmiyyət olaraq birgə fəaliyyət göstərməyimiz çox önəmlidir.

Qeyd edək ki, forumun əsas məqsədi dünyəvilik və vicdan azadlığı kimi təməl konstitusion dəyərlərin təbliği, din xadimlərinin hüquq və vəzifələri, peşəkar inkişafı, dövlət-din münasibətlərinin hüquqi, mədəni aspektləri, eləcə də multikultural, tolerant mühitin daha da möhkəmləndirilməsi ilə bağlı məsələlərin müzakirəsidir.

# Azərbaycan Din Xadimlərinin II Forumu işini yekunlaşdırıb

**Dekabrın 24-də Bakıda "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən "Azərbaycanda dövlət-din münasibətlərinin konstitusion prinsipləri: dünyəvilik və vicdan azadlığı" mövzusunda Azərbaycan Din Xadimlərinin II Forumu işini yekunlaşdırıb.**



AZƏRTAC xəbər verir ki, dünyəvilik və vicdan azadlığı kimi təməl konstitusion dəyərlərin təbliği, din xadimlərinin hüquq və vəzifələri, peşəkar inkişafı, dövlət-din münasibətlərinin hüquqi, mədəni aspektləri, eləcə də multikultural, tolerant mühitin daha da möhkəmləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi məqsədilə təşkil edilən forumda respublikamızın müxtəlif bölgələrindən fərqli dinlərə mənsub 100-dən çox din xadimi, müvafiq dövlət qurumlarının nümayəndələri, dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssislərlə yanaşı, Türkiyə, Özbəkistan və Qazaxıstanın dini sahədə səlahiyyətli dövlət qurumlarının rəhbər şəxsləri iştirak ediblər. Forumda "Multikultural dəyərlər sistemi: dövlət-din münasibətlərinin hüquqi və mədəni aspektləri", "Rəqəmsal informasiya mühitində dini təhsil və maarifçilik strategiyaları", "Qlobal təsirlər fonunda gənclərin maarifləndirilməsi: müasir metod və innovativ yanaşmalar" və "Qadınların sosial və mənəvi inkişafında dini icmaların rolu" mövzularında panel müzakirələri aparılıb.

Forumun sonunda panellərin moderatorlarının iştirakı ilə müzakirələrə yekun vurulub. Birinci panelin moderatoru Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, çıxışlarda əsasən dövlət-din münasibətlərinin mədəni aspektlərinə diqqət çəkilib. Azərbaycanda bütün dinlərin mədəni irsinə göstərilən dövlət qayğısı və müxtəlif dini abidələrin bərpası istiqamətində görülən işlər məmnunluqla vurğulanıb. Xüsusilə Azərbaycanın mədəniyyətlərarası dialoqun qurulmasında oynadığı aparıcı rolun əhəmiyyəti yüksək qiymətləndirilib.

G.İsmayılov müzakirələrin maraqlı məqamlarından birinin də Azərbaycan və Özbəkistanın dövlət-din münasibətləri modelinin müqayisəli təhlili olduğunu deyib.

İkinci panelin moderatoru Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa din təhsili və maarifçiliklə bağlı aparılan müzakirələr haqqında qısa məlumat verib. Qeyd edib ki, Azərbaycan dövlətinin din siyasətində bütün dinlərə bərabər və ədalətli münasibət göstərilməsi prinsipi özünü aydın şəkildə büruzə verir. Paneldə müasir texnoloji inkişaf fonunda multikultural dəyərlərin qorunması məsələsinin də diqqət mərkəzində olduğunu söyləyən F.Mustafa bildirib ki, informasiya texnologiyalarından qorxmaq deyil, onları mənimsəmək və insanlıq prinsiplərini qorumaq şərtilə lazımi istiqamətlərdə istifadə etmək lazımdır. Bu, müasir multikulturalizmin əsas təməllərindən biridir.

Üçüncü panelin moderatoru Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev qeyd edib ki, müzakirələrdə dini radikalizmə və zərərli ideologiyalara qarşı mübarizənin düşünülmüş mübarizə üsulları və maarifləndirmə vasitəsilə həyata keçirilməsinin vacibliyi daha çox önə çıxıb. Vurğulanıb ki, bu prosesdə din xadimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar çıxışlarında müasir ictimai rəyi mütləq əsas götürməli, cəmiyyətin həssas olduğu məqamları nəzərə almalı və gənclərin düzgün maarifləndirilməsi istiqamətində daha aktiv fəaliyyət göstərməlidirlər.

Dördüncü panelin moderatoru Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova müzakirələrdə ailə dəyərlərinin qorunması və qadın hüquqlarının təmin edilməsi istiqamətlərinə diqqət yetirildiyini deyib. Bildirib ki, ailə dəyərlərinin qorunması, nikahın hüquqi əsasları və uşaq tərbiyəsi məsələlərində cəmiyyətin məlumatlılıq səviyyəsini artırmaq məqsədilə praktiki tədbirlərin keçirilməsinə böyük ehtiyac var. Cəmiyyəti narahat edən ən ağrılı məqamlardan olan erkən nikahlar, qızların təhsildən yayınması və boşanmaların sayının artması kimi mənfi tendensiyalar geniş təhlil edilib.

Sonda forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

## 2026-cı ilin yanvar ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7, 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 8 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 9,16,30 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 22 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 26 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 27 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Beşir Qüdrət oğlu | 28 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 30 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Bakı Bəyannaməsi BMT-nin rəsmi sənədi kimi dərc edilib

**Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə 2025-ci il oktyabrın 9-11-də Bakı şəhərində keçirilən "İtkin düşmüş şəxslər məsələsinin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda qəbul edilmiş bəyannamə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi dərc olunub və yayılıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev bununla bağlı BMT-nin Baş katibinə məktub ünvanlayıb. O, məktubun və bəyannamənin yer aldığı əlavənin Baş Assambleyası gündəliyinin 31-ci, 69-cu, 71-ci və 84-cü bəndləri çərçivəsində və Təhlükəsizlik Şurasının sənədi kimi yayılması ilə bağlı müraciət edib.



United Nations A/80/564*-S/2025/797*

General Assembly
Security Council

Distr.: General
8 December 2025

Original: English

General Assembly
Eightieth session
Agenda items 31, 69, 71 and 84

Security Council
Eightieth year

Prevention of armed conflict

Elimination of racism, racial discrimination, xenophobia and related intolerance

Promotion and protection of human rights

The rule of law at the national and international levels

**Letter dated 8 December 2025 from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General**

Upon instructions from the Government of the Republic of Azerbaijan, I have the honour to submit herewith the declaration adopted at the international conference on "Uniting efforts and enhancing cooperation for addressing the issue of missing persons", held from 9 to 11 October 2025 in Baku, Azerbaijan (see annex).

I should be grateful if you would have the present letter and its annex circulated as a document of the General Assembly, under agenda items 31, 69, 71 and 84, and of the Security Council.

(*Signed*) Tofig F. Musayev
Ambassador
Permanent Representative

# Səmada yazılan qəhrəmanlıq dastanı

## AZAL-a məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasından bir il ötür




**Bir il əvvəl- dekabrın 25-i səhəri Azərbaycan xalqı üçün zaman sanki dayanmışdı, AZAL-a məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbəri bir anın içində ölkəni qəmli sükuta qərq etmişdi...**

Kütləvi informasiya vasitələrində, sosial mediada yayımlanan və qəzanın necə baş verməsini anbaan əks etdirən kadrlar faciənin miqyasının böyüklüyünü göstərirdi. Səmadan süzülərək yerə çırpılan nəhəng hava gəmisi bir andaca ikiyə bölünür, alovlara bürünür və göy üzünü qara tüstü bürüyürdü. Və bu dəhşətli mənzərəni izləyən hər kəs eyni sözləri təkrarlayırdı: bu cür qəzadan sağ çıxmaq mümkün deyil.

Amma həmin gün insan iradəsinin nələrə qadir olduğunu gördük, qəza ilə bağlı yayılan yeni görüntülərdə qapqara tüstü arasından həyat işığının göründüyünü izlədik. Parçalanmış təyyarənin quyruq hissəsindən çıxan və titrək addımlarla irəliləyən insanlar - qorxu, ümid və yaşam arasında möcüzənin canlı şahidlərinə çevrilənlər, qəzadan sağ qurtulanlar vardı. Həyat ölümə qalib gəlmişdi.

Bu möcüzənin adı peşəkarlıq idi, fədakarlıq idi, son nəfəsədək vəzifə borcuna sədaqət idi. Ölüm-dirim savaşında geri çəkilməyən, səmada insan talelərini çiyinlərində daşıyan pilotlar İqor Kşnyakin, Aleksandr Kalyaninov və bələdçi Hökumə Əliyeva son ana qədər mübarizə sükanını buraxmamışdılar. Qəhrəman pilotlar öz həyatları bahasına başqalarına yaşamaq şansı vermişdilər.

Həmin tarixdə Bakı-Qroznı reysini həyata keçirən "Azərbaycan Hava Yolları"na məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin labüd qəzadan qaçışının olmadığını anlayan ekipaj heyəti son ana qədər bütün güclərini səfərbər edərək, qaçılmaz fəlakətin nəticələrini mümkün qədər azaltmaq, sərnişinləri düzgün təlimatlandırmaq, onları həm fiziki, həm də mənəvi baxımdan baş verəcəklərə hazırlamaq üçün əllərindən gələni etdilər. Ən əsası isə insanların qəlbində yaşamaq ümidini sönməyə qoymadılar. Məhz həmin məşum dəqiqələrdə təyyarənin salonunda Hökumə Əliyevanın dilindən səslənən və bu gün də hər birimizin qulağında təkrarlanan - "Hər şey yaxşı olacaq!"- sözləri yaşamla ölüm arasında körpüyə çevrildi. Bu cümlə sərnişinlər üçün, sadəcə, təsəlli deyildi, bu, ümidin özü idi. Azacıq titrək, lakin son dərəcə inamlı səslə deyilən bu sözlər insanları həyata elə möhkəm bağladı ki…

İstər yerli, istərsə də xarici mütəxəssislər birmənalı şəkildə vurğulayırlar ki, həmin dəhşətli qəzada 29 insanın sağ qalması məhz pilotların yüksək peşəkarlığı nəticəsində mümkün olub. Öz işinin əsl ustaları olan İqor Kşnyakin və Aleksandr Kalyaninov təyyarəni münasib yerə endirmək, zərbənin təsirini azaltmaq üçün peşəkarlıq nümayiş etdirib və son vəzifə borclarının öhdəsindən layiqincə gəliblər. İqor Kşnyakin, Aleksandr Kalyaninov və Hökumə Əliyevanın peşəkarlıqları, təmkinləri və polad iradələri sayəsində təyyarədə olan 67 nəfərdən 29 nəfər sağ qalıb.

Prezident İlham Əliyevin sərəncamı ilə həlak olan ekipaj üzvləri - İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov və Hökumə Cəlil qızı Əliyevaya ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Digər ekipaj üzvləri Zülfiqar Əsədov və Aydan Rəhimli 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olunublar.

### Azərbaycan təyyarəsi Rusiya səmasında vurulub

AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə bağlı Qazaxıstan Nəqliyyat Nazirliyinin bu il fevralın 4-də açıqladığı ilkin hesabatda əks olunan dəlillər və faktlar göstərir ki, Azərbaycan təyyarəsi Rusiya səmasında, Qroznı üzərində vurulub.

Amma bu hesabata qədər qəza ilə bağlı faktları, dəlilləri, sübutları dəyərləndirən beynəlxalq və yerli ekspertlərin səsləndirdiyi rəylər, ən əsası qəzaya uğrayan təyyarənin sərnişinlərinin - şahidlərin dedikləri təkzibedilməz şəkildə ortaya qoyurdu ki, sərnişin təyyarəmiz Rusiya səmasında atəşə məruz qalıb.

Təyyarə qəzasının ilk günündən baş verən hadisəyə sərt reaksiya bildirən və onun başvermə səbəblərinin araşdırılmasını birbaşa diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev bu il yanvarın 6-da "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşü zamanı bildirmişdi ki, Qroznı şəhərində "kavyor əməliyyatı", yəni hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib: "Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var".

Prezident İlham Əliyev onu da vurğulamışdı ki, Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur.

Baş verən faciə Azərbaycan-Rusiya münasibətlərində ciddi gərginlik yaratmışdı. Ən ali səviyyədə Azərbaycan tərəfi Rusiyadan törətdiyi əmələ görə üzr istəməyi, kompensasiya ödəməyi və bu faciənin törədilməsində günahı olanların cəzalandırılmasını qətiyyətlə tələb etmişdi. Qəza baş verdikdən bir az sonra Rusiya Prezidenti Vladimir Putin dövlətimizin rəhbərinə zəng vuraraq bununla bağlı üzrxahlığını dilə gətirmişdi, amma digər tələb olunan məsələlər açıq qalmışdı ki, bu da təbii olaraq iki dövlət arasında münasibətlərin soyumasına gətirib çıxarmışdı.

Qəza baş verən gündən AZAL təyyarəsinin Rusiya səmasında vurulması, hətta hansı tip silahla vurulması belə aydın olsa da, Moskva tərəfindən günahın gah pilotlarımızda olduğu deyilir, gah da guya hava gəmisinin quş sürüsü ilə toqquşması, oksigen balonunun partlaması kimi yalanlar ortaya atılırdı. Ancaq faktlar və şahidlər təyyarəmizin məhz Rusiya səmasında vurulduğunu deyirdi.

### Təyyarə atəşə məruz qalıb

Qazaxıstan Nəqliyyat Nazirliyinin ilkin hesabatından da aydın olur ki, Bakıdan Qroznıya J2-8243 reysi üzrə müntəzəm uçuş həyata keçirən "Embraer 190" tipli sərnişin təyyarəsi Rusiyanın hava məkanında, Qroznı hava limanı üzərində GPS siqnallarının itməsi halı ilə üzləşib. AZAL təyyarəsi hava şəraitinin əlverişli olmaması səbəbindən Qroznı üzərində ikinci enişi yerinə yetirə bilmədikdən sonra kapitan Bakıya qayıtmaq barəsində qərar verib. Bu qərarın qəbul edilməsindən sonra Qroznı üzərində CVR-da (Cockpit Voice Recorder-kabina diktofonu) 24 saniyə aralıqla iki dəfə kənar səsin gəlmə faktı qeydiyyata alınıb.

CVR və FDR (Flight Data Recorder - uçuş məlumatları qeydiyyatçısı) məlumatlarının tutuşdurulması nəticəsində müəyyən edilib ki, birinci kənar səsdən 4 saniyə sonra 3-cü hidravlik sistem, 6 saniyə sonra 1-ci hidravlik sistem, 21 saniyə sonra 2-ci hidravlik sistem funksionallığını itirməklə sıradan çıxıb.

Hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədənin olması faktı aşkar olunub və foto, habelə video qeydiyyata alınıb.

O da bildirilir ki, 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer "kavyor əməliyyatı" barədə Qoznıya məlumat verir.

Bütün bunlardan aydın göründüyü kimi, Azərbaycana məxsus təyyarə Qroznı üzərində atəşə məruz qalıb, ardıcıl bir neçə atəş açılıb, hava gəmisinin əsas idarəetmə sistemləri 05:13:32-də sıradan çıxıb, əlaqələndirici dispetçer isə "kavyor əməliyyatı" barədə Qroznıya 8 dəqiqə sonra - 05:21:42-də məlumat verib. Yəni təyyarə ekipajının bu əməliyyat barədə əvvəlcədən xəbər tutması mümkün deyil.

### Qəza Baş Prokurorluq və Nəqliyyat Nazirliyi tərəfindən araşdırılır

Cari il oktyabrın 9-da Tacikistanın paytaxtı Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində dövlətimizin başçısı İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüşün əsas mövzularından biri də 25 dekabr 2024-cü ildə baş vermiş təyyarə qəzası oldu.

Rusiyanın HHM sistemlərinin bu faciəyə səbəb olduğunu etiraf edən Kreml rəhbəri əlavə etdi ki, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Bu il dekabrın 3-də Qazaxıstan Baş nazirinin müavini Kanat Bozumbayev məlumat verib ki, Aktau yaxınlığında AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı istintaq iki hissəyə bölünür. Cinayət tərkibi Baş Prokurorluq, aviasiya hadisəsinin özü isə Nəqliyyat Nazirliyi tərəfindən araşdırılır: "Nəqliyyat Nazirliyi istintaqın son mərhələsindədir. Hazırda lisenziyalar və ya texnologiya sahiblərindən yekun rəy gözləyirik. Prinsip etibarilə, Nəqliyyat Nazirliyi ilə bağlı istintaqı başa çatdırmağa hazır olacağıq. Ola bilsin ki, bu il və ya gələn ilin əvvəlində. Baş Prokurorluğa gəldikdə isə orada da irəliləyiş var".

25 dekabr 2024-cü ildə baş verən qəza, sadəcə, aviasiya hadisəsi deyildi. Bu, səmaya hökm edən insanların yazdığı qəhrəmanlıq dastanı idi. Üzərindən nə qədər zaman keçsə də, o günün ağrısı da, qüruru da xalqımızın yaddaşında yaşayacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Prezidentin enerji strategiyasına həsr olunan "Nur Zəfəri" filmi təqdim edilib

**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Prezident İlham Əliyevin son 22 illik fəaliyyəti nəticəsində elektroenergetika sahəsində əldə olunan nailiyyətlərə həsr edilmiş "Nur Zəfəri" adlı sənədli film hazırlanıb.**



Film "Azərenerji" ASC-nin sifarişi ilə ərsəyə gətirilsə də, təkcə enerjinin istehsalı və ötürülməsi sahəsi ilə yekunlaşmayıb, eyni zamanda bütövlükdə paylayıcı şəbəkənin inkişafı, beynəlxalq enerji layihələri, eləcə də "yaşıl enerji" sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlərlə əhatə olunub. Filmdə Prezident İlham Əliyevin düşünülmüş və ardıcıl enerji strategiyası bütöv şəkildə təqdim edilib. Vurğulanıb ki, dövlət başçısının rəhbərliyi dövründə elektroenergetika sahəsi təkcə bərpa olunmayıb, həm də əsaslı şəkildə yenidən qurularaq müasir, dayanıqlı və innovativ enerji sisteminə çevrilib.

Qeyd olunub ki, 2003-cü ildən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə elektroenergetika sektorunda genişmiqyaslı islahatlara başlanılıb, milli idarəetmə modeli formalaşdırılıb, generasiya və paylayıcı şəbəkələr faktiki olaraq yenidən qurulub. Onlarca yeni elektrik stansiyası inşa edilib, mövcud güclər modernləşdirilib, enerji itkiləri əhəmiyyətli dərəcədə azaldılıb və ölkənin enerji təhlükəsizliyi təmin edilib.

Filmdə Prezident İlham Əliyevin təşəbbüsü ilə paylayıcı şəbəkənin müasir beynəlxalq standartlara uyğunlaşdırılması, Bakı və regionlarda hava elektrik xətlərinin yeraltı kabel xətləri ilə əvəzlənməsi, eləcə də "ağıllı şəhər" konsepsiyasına keçid ardıcıl şəkildə əks olunur. Eyni zamanda azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda qısa müddətdə yaradılan enerji infrastrukturu milli bərpa strategiyasının mühüm tərkib hissəsi kimi təqdim edilir.

Sənədli filmdə "yaşıl enerji" strategiyası, COP29-a evsahibliyi, beynəlxalq enerji layihələri və Azərbaycanın regional enerji liderinə çevrilməsi Prezident İlham Əliyevin uzunmüddətli strateji baxışının nəticəsi kimi dəyərləndirilir. "Nur Zəfəri" filmi elektroenergetika sahəsində əldə olunan uğurları, bu sahədə çalışan energetiklərin fədakar əməyini və müasir Azərbaycanın inkişaf yolunu əks etdirən sənədli ardıcıllıq kimi təqdim olunur.

*Bəhmən MİRZƏYEV,*
*"Azərbaycan"*

# Korrupsiya yuvası anti-Azərbaycan ritorikasından əl çəkmir

**Avropa Parlamenti dekabrın 18-də ölkəmizə qarşı qəbul etdiyi reallıqlardan uzaq, birtərəfli və qərəzli qətnaməsi ilə anti-Azərbaycan ritorikasını bir daha nümayiş etdirdi. Ümumiyyətlə, Azərbaycan 44 günlük müharibə sayəsində suverenliyini, konstitusion quruluşunu təmin etməsinə, Qarabağda separatizm yuvasını dağıtmasına və Cənubi Qafqazda sülh üçün real şərait formalaşdırmasına görə Avropa Parlamentinin "qara siyahı"sına düşüb.**



Sözügedən reallıqları hələ də qəbul edə bilməyən qərəzli qurum buna görə sözün əsl mənasında öz fəaliyyət dairəsinə dair vacib işlərlə məşğul olmaq əvəzinə ölkəmizlə bağlı qərəzli qətnamələr çıxarmaq yolunu tutub. Avropada islamofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud şəkildə pozulması və sair kimi çoxsaylı problemlər hələ də mövcudluğunu qoruyur. Elə ölkəmizlə bağlı sərgilənən bu ikili standartlı davranışın özü də AP-nin islamofob, türkofob siyasətinin aydın təzahürüdür.

Hətta vəziyyət o yerə çatıb ki, İkinci Qarabağ müharibəsindən sonra Aİ-nin korrupsiya yuvasına çevrilmiş bu riyakar qurumu Azərbaycan əleyhinə böhtan və iftiralarla dolu 10-dan çox qətnamə qəbul edib.

### Qərəzli qətnamələr nəyə xidmət edir?

Regional reallıqların təhrif olunduğu, Azərbaycanı hədəf alan bu bədnam qətnamə nə obyektiv faktlara, nə beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Fəaliyyətində guya humanizm dəyərlərini, insan hüquqlarını əsas götürən Avropa Parlamenti ölkəmizə böhtan atır, heç bir əsası olmayan iittihamlar irəli sürür. Ancaq sözdə insan haqlarından ağızdolusu danışan avroparlamentarilər 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən bir milyona yaxın azərbaycanlının hüquqlarının tapdalanmasına heç zaman reaksiya verməyiblər. Həmin zaman azərbaycanlılar yurdlarından didərgin salındı, etnik təmizləməyə, qətliamlara, soyqırımlarına məruz qalıb, qaçqınlıq, məcburi köçkünlük həyatı yaşayıb. Ermənistanın 30 illik işğalı zamanı ərazilərimizə bir milyondan çox mina basdırması həmin yerlərə qayıdışı ləngidir, bu gün də insanlarımız mina partlayışlarının qurbanlarına çevrilirlər. Qarabağ və Şərqi Zəngəzurda törədilən mədəni terror, tarixi, dini abidələrimizin vandallıq aktlarına məruz qalmaları o yerlərə səyahət edən hər kəsi dəhşətə gətirir. Lakin avroparlamentarilər azərbaycanlıların hüquqlarının tapdalanmasına görə ötən onilliklər ərzində bircə dəfə də olsun toplaşıb hansısa müzakirələr aparmayıblar, işğalçıya qarşı qətnamələr qəbul etməyiblər.

Azərbaycan BMT TŞ-nin qətnamələrini öz gücünə həll edərək həm ərazi bütövlüyünü və suverenliyini təmin edib, həm də bölgədə real sülhə rəvac verib.

Bu il avqustun 8-də Vaşinqtonda Ağ Ev rəhbəri Donald Trampın iştirakı ilə əldə olunan razılaşmalar, sülh mətninin paraflanması məhz Azərbaycanın təşəbbüslərinin əyani nəticələridir ki, regionda de-fakto sülhə nail olunmasına gətirib çıxarıb. Cənubi Qafqaz hazırda münaqişə deyil, inkişaf, qarşılıqlı əlaqələr, əməkdaşlıq ünvanı kimi çıxış edir.

Azərbaycanın tranzit yükdaşımalara qoyduğu məhdudiyyətləri aradan qaldırması sayəsində Qazaxıstan və Rusiyadan Ermənistana qatar vasitəsilə artıq bir neçə dəfə taxıl ixrac edilib. Dekabrın 19-da isə Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünə başlanılıb. Bu, 30 ildir özünü regional təcrid vəziyyətinə salan Ermənistanın, ermənilərin qurtuluşu deməkdir və Azərbaycanın humanizm siyasətini nümayiş etdirir. Ancaq Aİ, eyni zamanda Avropa Parlamenti Azərbaycanın bu vacib əhəmiyyətə malik və sülhü dəstəkləyən fəaliyyəti barədə sual doğuracaq formada susmağa üstünlük verirlər.

### Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyət

Bütün bu müsbət tendensiyaların fonunda Avropa İttifaqının və Avropa Parlamentinin sərgilədiyi qərəzli yanaşma diqqət çəkir. Aİ-nin Ermənistan üzərindən gətirib sərhədlərimizə yığdığı dırnaqarası "müşahidə missiyası"nın bölgədə sülhə yox, qarşıdurmaya xidmət edən missiya kimi fəaliyyətini davam etdirməsindən tutmuş dekabrın 2-də imzalanmış və birbaşa Azərbaycanı hədəf alan "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənədə və AP-nin bu günlərdə qəbul etdiyi bədnam qətnaməyə qədər hər bir addım da bunu aydın göstərir.

Xatırladaq ki, dekabrın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüşündə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də Azərbaycan-Ermənistan sülh prosesi baxımından narahatlıq doğuran məqamlara toxunub.

Sahibə Qafarova Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnamələrinə toxunaraq, bu gün regionda mövcud olan reallıqların, Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunmuş irəliləyişin bu qətnamələrin nə dərəcədə qərəzli olmasını bir daha sübut etdiyini deyib.

Avropa Parlamentinin 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar Milli Məclis bəyanat qəbul edib. Bəyanatda bildirilir ki, Milli Məclis Avropa Parlamentinin adıçəkilən qətnaməsini şiddətlə qınayır və bu qərəzli siyasi akta qəti etirazını bildirir: "Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir".

Sənəddə həmçinin deyilir ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən AP bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir: "Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir. Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir".

Milli Məclisin bəyanatında deyilir: "İndi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan-Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər".

Vətən müharibəsindən sonra Azərbaycan əleyhinə böhtan və iftiralarla dolu 10-dan çox qətnamə qəbul edən Avropa Parlamenti bu vasitə ilə ölkəmizə hansısa siyasi təzyiq, təsir göstərmək niyyəti güdür. Ancaq Avropanın korrupsiya yuvasına çevrilmiş bu qurumunun qərəzli fəaliyyəti Azərbaycanı beynəlxalq hüquqa dayanan və özündə sülhü və əməkdaşlığı ehtiva edən yolundan döndərə bilməz.

*Y.MUSAYEVA,*
*"Azərbaycan"*




# Xocavəndin Sos, Cəbrayılın Horovlu kəndlərinə çatan ailələrə evlərinin açarları təqdim olunub

**İşğaldan azad olunan Xocavənd rayonunun Sos kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.**









AZƏRTAC xəbər verir ki, Sos kəndi 24 ailə olmaqla, 99 nəfərə qucaq açıb.

Yaşayış məntəqəsində sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və kommunikasiya xətləri bərpa edilib.

Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurda qovuşub və yaradılan gözəlliyi seyr ediblər.

Həmin ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Kəndə çatan ailələrə evlərinin açarları təqdim olunub. Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar.

* * *

İşğaldan azad olunan Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

Horovlu kəndi 19 ailə olmaqla 70 nəfərə qucaq açıb.

Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.






Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi ilə - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binası, 220 yerlik körpələr evi-uşaq bağçası, ikimərtəbəli inzibati bina, bazar kompleksi, çoxfunksiyalı iaşə obyektləri, tibb məntəqəsi və idman-sağlamlıq mərkəzi tikilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# İdman

## Dubayda Qlobal İdman Sammiti keçiriləcək




**Dekabrın 29-dan 30-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Qlobal İdman Sammiti keçiriləcək. "İdman vasitəsilə dünyanı birləşdirək" şüarı altında təşkil olunacaq tədbirdə 80-dən çox dövlətdən yüksəksəviyyəli idman rəsmiləri, bu sahədə tanınmış liderlər, idman ulduzları, ümumilikdə 1500-dən artıq şəxs iştirak edəcək.**

AZƏRTAC xəbər verir ki, sammit çərçivəsində 20-dən çox panel iclas keçiriləcək, 70 tanınmış idmançı və digər qonaqlar çıxış edəcəklər. Natiqlər arasında futbolun böyük əfsanələrindən biri italiyalı Françesko Totti, Amerika futbolunun ulduzu, Superboul çempionu Viktor Kruz, İspaniya futbolunun "qızıl nəsli"nin nümayəndəsi Andres İnyesta, Braziliya millisinin sabiq kapitanı Kafu, NBA ulduzu Beron Devis, qadınlar arasında peşəkar tennis turnirlərinin qalibi ispaniyalı Paula Badosa və UFC üzrə sabiq çempion Həbib Nurməhəmmədov yer alırlar.

Sammit öz növündə ən böyük qlobal toplantı hesab olunur. Burada idman sektorunun aparıcı qərarvericiləri, beynəlxalq ekspertlər, dünyaşöhrətli idmançılar, beynəlxalq idman federasiyaları və təşkilatlarının nümayəndələri, həmçinin investorlar və innovatorlar vahid platformada bir araya gələrək fikir mübadiləsi aparacaq və qlobal miqyasda idmanın gələcəyini müzakirə edəcəklər.

Tədbir çərçivəsində "Məhəmməd bin Raşid Al Maktum Qlobal İdman Mükafatı"nın 13-cü təqdimatı da təşkil olunacaq.

## Azərbaycan klubu heyətinə yeni voleybolçu cəlb edəcək

**Kişi voleybolçulardan ibarət "Xilasedici" komandası qışda heyətinə yeni oyunçu cəlb edəcək.**



Bu barədə AZƏRTAC-a Bakı təmilçisinin baş məşqçisi Cəlil Cəlilov məlumat verib.

"Azərbaycan millisinin üzvü Andrey Melnikovla yollarımızı ayırdıq. Daha bir oyunçunu komandadan göndərəcəyik. Hələlik bu barədə nəsə demək istəmirəm. Gedəcək voleybolçunun yerinə yenisi cəlb olunacaq", - deyə mütəxəssis bildirib.

Ötən mövsümün bürünc mükafatçısı olan komanda bu il Azərbaycanı Çelenc Kubokunda təmsil edir.

# Hava bəzi yerlərdə arabir yağıntılı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər bəzi yerlərdə çiskinli, axşam isə arabir yağıntılı olacağı gözlənilir.**

Şimal-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 3-6, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şərq rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Lakin axşamdan başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 6-9 dərəcə isti müşahidə ediləcək.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin səhər şərq rayonlardan başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-9 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı ehtimal edilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin axşamdan başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, sulu qara keçəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5, gündüz 7-11 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə intensiv olacağı bildirilir. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6, gündüz 8-10, dağlarda gecə 0-3, gündüz 5-8 dərəcə isti olacağı gözlənilir.

# Keçmiş məcburi köçkünlər illərlə qayıdış inamı ilə yaşayıblar




"Otuz yeddi yaşımda oradan çıxmışam, indi isə yetmiş yaşım var. Bu gün böyük sevinc hissi keçirirəm. Ən böyük arzum budur ki, Allah övladlarıma cansağlığı versin, onların da öz həyatlərində rahatlıqla gəzməsini görüm".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində bu gün Cəbrayıl rayonunun Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Solmaz Ağayeva bildirib.

İllərlə qayıdış inamı ilə yaşadığını deyən S.Ağayeva heç vaxt ümidini itirmədiyini qeyd edib.

"Elə bilirəm ki, bu qayıdışla otuz il cavanlaşmışam. Çünki biz bu günü illərlə gözləmişik. Bilirdik ki, bu torpaqlar geri qayıdacaq", - deyə o əlavə edib.

* * *

"Bu uzun ayrılıqdan sonra öz elimizə, obamıza qayıtmaq bizim üçün sevincdir. Arzum budur ki, vaxtilə necə yaşamışdımsa, yenə o cür yaşaya bilim".

Bu fikirləri də Cəbrayıl rayonunun Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Asif Əhmədov deyib.

Uzun zamandan - 32 illik ayrılıqdan sonra yenidən öz yurduna qayıtmağın böyük xoşbəxtlik olduğunu qeyd edən A.Əhmədov deyib: "Təəssüf ki, bizə o həyatı yaşamağa imkan vermədilər,




yurdumuzdan didərgin salındıq. Amma bu gün artıq doğma kəndlərimiz yenidən qurulur, abadlaşdırılır və həyat geri qayıdır. Biz də öz töhfəmizi verəcəyik inşallah".

Hər iki keçmiş məcburi köçkün Ali Baş Komandan İlham Əliyevə təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən ordumuza minnətdarlığını bildirərək, şəhidlərə rəhmət, qazilərə cansağlığı arzulayıb.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov və icra aparatının kollektivi

Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi

**AYNUR RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4121
Sifariş 2603

Qiyməti 60 qəpik